26 oktyabr 2018-ci il
№40 (8806)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**İstedadlı və yaradıcı gənclərin III Respublika toplantısı**
⇨səh.3

**Təlim nailiyyətlərinin yaxşılaşdırılmasında sinifdənxaric tədbirlərin rolu**
⇨səh.8

**Edinburq Universitetinin tələbəsi Günel Ağabəyli: "Yeniliklərə imza atmaq istəyirəm"**
⇨səh.9

**İlahiyyat İnstitutu hesabat verdi**
⇨səh.13

# Bakıda VI Beynəlxalq Humanitar Forumu işə başlayıb

### Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib




Oktyabrın 25-də Heydər Əliyev Mərkəzində VI Bakı Beynəlxalq Humanitar Forumu işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak ediblər.

"Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında dövlət başçısı nitq söyləyib.

Builki Forumda 90-dan artıq ölkədən 400-dən çox xarici qonağın iştirak etdiyini deyən Prezident İlham Əliyev bunu dünyada Foruma çox böyük marağın göstəricisi kimi qiymətləndirib: "Bakı Beynəlxalq Humanitar Forumu qısa müddət ərzində dünyada çox önəmli beynəlxalq tədbirə çevrilmişdir. Əminəm ki, Forumda müzakirə ediləcək məsələlər gələcək humanitar əməkdaşlıq üçün çox önəmli olacaq, xaricdən gələn qonaqlar Forumun işinə çox böyük töhfə verəcəklər".

Forumda müzakirəyə çıxarılacaq məsələlərdən birinin də təhsillə bağlı olduğunu deyən dövlət başçısı təhsilin inkişafı və təhsildə müasir metodların tətbiq edilməsini prioritet məsələlərdən biri kimi diqqətə çatdırıb: "Təhsil sisteminin maddi-texniki bazası möhkəmlənir.

⇨Ardı səh.2

# Əmək bazarının tələblərinə uyğun

### Peşə təhsili pilləsində kadr hazırlığı daha cəlbedici olur

Bu dəfə yolumuz Mingəçevir şəhərinədir. Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsinin ən uğurlu nəticələrindən biri, peşə təhsili sahəsində atılan addımların davamı olaraq fəaliyyətə başlayan "ASAN Peşə" Təhsil Mərkəzinə. Təhsil Mərkəzi burada təşkil olunacaq seminarın bütün iştirakçıları üçün maraqlıdır. Niyə də olmasın? Müasir təhsil proqramları ilə təhsil, əmək bazarında tələb olunan ixtisaslar üzrə kadr hazırlığı, yeni standart və müasir infrastruktur. Burda hər şey yenidir. Özü də sadəcə jurnalistlər üçün yox, bütövlükdə Azərbaycan üçün.

#### Dəyişikliyin başlıca səbəbi Dövlət Strategiyasıdır

Peşə təhsili ölkəmiz üçün yeni deyil. Belə ki, 185 peşə təhsili müəssisəsində 300 peşə istiqaməti üzrə 100 mindən çox gəncin ixtisaslı kadr kimi yetişdirildiyi dövrü də yaşayıb. Üstündən keçən vaxt elə də böyük zaman kəsiyi olmasa da, çox şey dəyişib. İndi peşə təhsili müəssisələrində 33-ü yeni olmaqla 168 ixtisas üzrə 23 min civarında gənc təhsil alır. Fərqlənən sadəcə rəqəmlər deyil, həm də keyfiyyətdir.

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor əvəzi Amil Əlili "Azərbaycan Respublikasında peşə təhsili: islahatlar və perspektivlər" mövzusu üzərində qurduğu təqdimatda "ASAN Peşə" Təhsil Mərkəzi yaranana qədərki yola nəzər salıb, ondan sonrakı planlardan da danışıb. Bu yolun planını müəyyənləşdirən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tətbiqi nəticəsində əldə edilən nailiyyətləri xatırladıb. Onun sözlərinə görə, Dövlət Strategiyası qəbul olunanda məhz dövrün tələbləri nəzərə alınıb: "Müasir dünyanın tələbləri dəyişdikcə peşə təhsilinin vacibliyi daha çox önə çıxmağa başladı. Biz bu gün iqtisadiyyatın inkişafından danışırıqsa, səriştəli işçi qüvvəsi zəruridir. Bu isə ali təhsil pilləsində deyil, peşə təhsili pilləsində kadr hazırlığını aktuallaşdırır".

Odur ki, Dövlət Strategiyasında peşə təhsili üzrə müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Həmin tədbirlər çərçivəsində peşə təhsilində tədrisin məzmun və keyfiyyətinin yaxşılaşdırılması, müasir standartlara uyğun universal peşə tədris mərkəzlərinin yaradılması əsas prioritetlərdəndir.

Məqsədə gedən yolu qısaltmaq üçün atılan addımlara gəlincə, peşə təhsili müəssisələri şəbəkəsinin rasionallaşdırılması tədbirləri bunlardan biridir.

⇨Ardı səh.4

# İnformasiya texnologiyaları cənnəti

Estoniyada, Baltik dənizinin sahilindəki qəsəbələrdən birində Taavi Kotka adlı qeyri-adi bir nəfər yaşayır. "e-Estoniya" layihəsinin əsas ideoloqlarından biri olan Kotka ölkəsinin bu günü və gələcəyinə ən böyük töhfə vermiş vətəndaş sayılır. Hökumət təşəbbüsü olan "e-Estoniya"nın əsas missiyası Estoniyanı rəqəmsal dövlətə çevirməkdir. Taavi Kotkanın səyləri ilə bu layihə arzudan reallığa çevrilib.

Elə bir ölkə yoxdur ki, oradan İT mütəxəssisləri gəlib bu kiçik Baltikyanı respublikada işləməsinlər. Estoniya İT peşəkarları üçün əsl cənnətdir. Ölkə həyatının elə bir sferası yoxdur ki, elektronlaşmasın. Bütün problemlərin digital yolla çarəsi mövcuddur. İctimai nəqliyyatda gediş əldə etmək istəyirsiniz? Evdən çıxmağa ehtiyac yoxdur - keçin kompüter arxasına. Avtomobilinizi düz park etməyib cərimələnmisiniz? Onu da evdən həll etmək olar. Estoniyada qanunvericilikdən tutmuş vergi sisteminədək hər nə varsa digital müstəviyə köçürülüb və iri platformada bir yerə toplanıb.

"e-Estoniya" dövlət idarəçiliyi sistemini gözlər önündə dəyişən iddialı layihədir. Ancaq hər birimizdə sual doğura bilər: axı necə oldu ki, sıradan bir post-sovet ölkəsi olan 1,5 milyonluq Estoniya belə bir yolu bu sürətlə qət edə bildi?

Ötən yazılarımızdan birində dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən "silikon vadi"lərdən söz açmışdıq. Əgər Estoniyaya bu nöqteyi-nəzərdən yanaşmış olsaq, bu ölkə bütövlükdə "rəqəmsal vadi"dir.

Təhsildən danışarkən Finlandiya sisteminə istinad etmək son illərin əsas trendidir. Əgər söhbət yüksək texnologiyalardan gedirsə, onda bilin ki, sıralamada ilk adı keçən Estoniyadır. Diqqət yetirin:

- "Kibertəhlükəsizlik üzrə Qlobal indeks" reytinqində Avropa birincisi və dünya beşincisi;
- İnformasiya-kommunikasiya texnologiyaları üzrə qanunvericilik sahəsində dünya ikincisi.

#### Hüdudsuz imkanlar

Kotkanın sözlərinə görə, işə başlayarkən qarşılarına əsas məqsəd ölkə əhalisinin onların missiyasına inanmasına nail olmağı qoyublar. Rəqəmsal sistemə daxil olmaq üçün vətəndaşın sadəcə bir dəfə qeydiyyatdan keçməsi lazımdır. Vəssalam! Nə həkimə gedərkən xəstəlik vərəqəsini, nə də kredit alarkən bankda hansısa çoxsaylı kağızları doldurmağa ehtiyac yoxdur. Vətəndaş haqqında bütün mümkün məlumatlar çipli fərdi ID-karta yazılıb və vahid platformada saxlanılır. Hər sahənin mütəxəssisi sizin barənizdə məlumat əldə etmək istəyirsə, həmin o platformaya müraciət edir. Sağlamlıq durumundan tutmuş siyasi görüşlərə, məşğulluqdan məhkumluğa qədər bütün informasiyanı əldə etmək saniyələrin işidir.

⇨Ardı səh.11

# Direktor vəzifəsinə işə qəbul üzrə müsabiqə qaydaları dəyişdi

Məktəb direktorlarının işə qəbulu üzrə müsabiqəyə 700-ə yaxın vakant yer çıxarılacaq. Bütün regionlar üzrə vakant yerlər var. Ən çox boş qalan direktor yeri isə cənub zonasındakı məktəblər üzrədir. Bu barədə "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov məlumat verib: "Təhsil naziri Ceyhun Bayramovun "Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqənin keçirilməsi barədə" əmrinə əsasən, "Dövlət ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul və çalışmanın yaş həddinə çatmış direktorlarla əmək münasibətlərinin tənzimlənməsi Qaydaları" təsdiq edilib".

E.Bağırov bildirib ki, yeni qaydalara əsasən, bu il ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə işə qəbul üzrə müsabiqədə bəzi dəyişikliklər edilib. Dəyişikliklər müsabiqənin əsasən test və yerləşdirmə mərhələlərindədir: "Hər il qaydalarda yeniliklər tətbiq edilir. Builki müsabiqədə də yeni qayda müəyyənləşib. Belə ki, təhsil nazirinin oktyabrın 18-də imzaladığı 716 nömrəli əmrinə əsasən, təqvim ilinin sonunadək müsabiqənin yekunlaşdırılması nəzərdə tutulub. Bu məqsədlə artıq müsabiqə, müsahibə və apelyasiya komissiyaları yaradılıb".

⇨Ardı səh.5

# Məktəbəhazırlıq qruplarında "Sağlam təhsil"

Qapıdan içəri girən kimi 24 cüt göz, o gözlərin içərisində sakit, məsum baxışlar oturaq və ayaqüstə işləmək imkanı verən partaların arxasından boylanır. Bərbəzəkli, oyuncaqlarla dolu, panorama effekti verilən işıqlı sinif otağında ən çox onların yumru əlləri, kiçik bədənləri, sərbəst danışıqları diqqət çəkir. Çox təşəbbüskardırlar. Bir yerdə dayanmırlar. Sinifdəki fəallıqları onların hələ 5 yaşında olduqlarına şübhə yaradır. Özlərinə qarşı sevgi oyandıran kiçik məktəblilərə gülümsəmədən baxmaq mümkün deyil.

Onlar Bakı şəhəri 26 nömrəli tam orta məktəbdə bu il ilk dəfə təşkil edilən "Sağlam təhsil-sağlam millət" layihəsi üzrə məktəbəhazırlıq qruplarının şagirdləridir. Hələ cəmi 2-3 hərflə tanış olublar. Ancaq o hərflərin iştirakı ilə yaranan çoxlu söz bilirlər. Danışmaqdan isə heç yorulana oxşamırlar. Birindən adını soruşursan, heç gözləmədən söhbətə hamısı qoşulur. Biri hələ soyadını bilmir, o birisi dərsə gəldiyi vaxtı. Məsələn, Yadigar soyadını bilmir.

⇨Ardı səh.5




# Lənkəran Dövlət Universiteti böyük hədəfə doğru

### Burada tədrislə yanaşı, sosial mühit və şərait də müasir standartlara uyğunlaşdırılır

Səh.6-7

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonu qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 24-də Daşkəsən rayonunun Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb
- Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 24-də Vyetnam Sosialist Respublikasının Prezidenti Nquyen Fu Çonqa bu ölkənin prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 23-də Qobustan rayonunun Qobustan-Poladlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 23-də Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellenə bu ölkənin milli bayramı münasibətilə təbrik məktubu ünvanlayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də İmişli rayonunda səfərdə olub. Dövlət başçısı səfəri çərçivəsində bir sıra iqtisadi və sosial təyinatlı obyektlərin açılışlarında iştirak edib.
- Prezident İlham Əliyev oktyabrın 22-də İmişli şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev oktyabrın 22-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyinə həsr olunmuş mərasimin iştirakçılarına təbrik məktubu ünvanlayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqı qəbul edib.
- Prezident İlham Əliyev oktyabrın 20-də Azərbaycan Respublikasının dəniz nəqliyyatı işçilərinə “Əməkdar mühəndis” fəxri adının, S.M.Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi, dəniz nəqliyyatı işçilərinin təltif edilməsi haqqında sərəncamlar imzalayıb.
- Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 20-də Macarıstanın Prezidenti Yanoş Aderə bu ölkənin milli bayramı münasibətilə təbrik məktubu ünvanlayıb.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İzmir şəhərində “Star” neft emalı zavodunun açılış mərasimində iştirak etmək üçün oktyabrın 19-da Türkiyə Respublikasında işgüzar səfərdə olub.
- Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 19-da G.S.Cavadova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, Azərbaycanın bir qrup energetikinə “Əməkdar mühəndis” fəxri adının verilməsi, bir qrup energetikin isə “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında sərəncamlar imzalayıb.

## Təhsil naziri Monteneqronun təhsil naziri ilə görüşüb

Oktyabrın 25-də təhsil naziri Ceyhun Bayramov VI Bakı Beynəlxalq Humanitar Forumda iştirak etmək məqsədi ilə Bakıda səfərdə olan Monteneqronun təhsil naziri Damir Sehoviç ilə görüşüb.

Görüş zamanı Azərbaycan Respublikası ilə Monteneqro arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib, hər iki ölkədə aparılan təhsil islahatları haqqında məlumat mübadiləsi aparılıb.

## “UNEC-də bir gün” yenidən start götürür

Abituriyentlər arasında sevilən və populyar olan “UNEC-də bir gün” layihəsinə yenidən start verilir. Bu ildən magistr və MBA təhsili almaq istəyənlər də layihəyə qoşula bilər.

Layihənin məqsədi abituriyentləri, eləcə də magistr və MBA təhsili almaq istəyənləri universitetlə daha yaxından tanış etməkdir. Eyni zamanda, ixtisas seçimində onlara məsləhət vermək, fənlərdə dinləyici qismində iştirakına şərait yaratmaqdır.

Ötən tədris ilində “UNEC-də bir gün” layihəsində şəhər və region məktəblərindən 2000-ə yaxın şagird iştirak edib. Layihədən faydalanan şagirdlərin böyük əksəriyyəti artıq UNEC tələbəsi adını qazanıb.

UNEC ölkədə dörd dildə (Azərbaycan, ingilis, rus və türk) magistr və bakalavr pilləsi üzrə təhsil verən, eyni zamanda xaricdə filialı olan yeganə ali təhsil ocağıdır. Burada I, II, IV və V ixtisas qrupları üzrə 21 ixtisasda bakalavr təhsili həyata keçirilir. Dünyanın nüfuzlu ali təhsil müəssisələri olan London Universiteti/London İqtisadiyyat Məktəbi, ABŞ-ın Linkoln Universiteti, Fransanın Montpellier Universiteti ilə ikili diplom proqramları aparılır.

Beynəlxalq Magistratura və Doktorantura Mərkəzində (BMDM) 11 ixtisas 39 ixtisaslaşma (iqtisadiyyat və idarəetmə ixtisasları - 26-cı proqram) üzrə 4 dildə magistr hazırlığı həyata keçirilir. BMDM-də ABŞ, İsveçrə, İtaliya, Litva və Turkiyə universitetləri ilə ikili diplom proqramları reallaşdırılır. Eyni zamanda UNEC-in Magistratura Mərkəzində 9 texniki və texnoloji ixtisas üzrə 23 ixtisaslaşmada magistr təhsili aparılır.

MBA proqramı üzrə təhsil isə UNEC Biznes Məktəbində həyata keçirilir. Burada 14 ixtisas üzrə (56-cı proqram) kadr hazırlığı ilə yanaşı, İsveçrənin UBİS (Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti) universiteti ilə ikili dərəcə proqramı reallaşdırılır. “UNEC-də bir gün” layihələrində iştirak etmək istəyənlər 492-60-43 və 497-58-63 telefon nömrələrinə zəng edə, yaxud UNEC-in rəsmi Facebook səhifəsi ilə əlaqə saxlaya bilərlər.

# Bakıda VI Beynəlxalq Humanitar Forumu işə başlayıb

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun rəsmi açılış mərasimində iştirak edib

⇦ Əvvəli səh.1

Son 15 il ərzində 3000-dən çox məktəb tikilib və təmir edilib. Deməliyəm ki, Azərbaycanda cəmi 4500-dən bir qədər çox məktəb var, onların əksər hissəsi ən yüksək standartlar səviyyəsində qurulub. Eyni zamanda, müəllim peşəsinə maraq da çox böyük dərəcədə artır. Aparılan islahatlar, o cümlədən maaşların əhəmiyyətli dərəcədə artırılması, məktəblərin təmiri və digər stimullaşdırıcı addımlar nəticəsində müəllim olmaq istəyənlərin sayı dəfələrlə artıb və bu il biz bunu əyani şəkildə görmüşük. Test imtahanlarında yüksək ballar toplayan abituriyentlər arasında müəllim olmaq istəyənlərin sayı bir neçə dəfə artıb. Yəni, bu, onu göstərir ki, humanitar sahənin əsas hissələrindən biri olan təhsil sahəsinə çox böyük diqqət göstərilir və gözəl nəticələr var”.

Çıxışında Azərbaycanın humanitar əməkdaşlığa çox böyük diqqət göstərdiyini bir daha vurğulayan Prezident İlham Əliyev bir çox təşəbbüslər irəli sürdüyümüzü bildirib ki, onlardan biri də Bakı Beynəlxalq Humanitar Forumudur: “Əminəm ki, aparılacaq diskussiyalar, müzakirələr bizim ümumi işimizə gözəl töhfə verəcək”.



Sonra Rusiya Federasiyası Hökuməti sədrinin müavini xanım Olqa Qolodets Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxuyub. O, çıxışında Forumun ildən-ilə inkişaf etdiyini, Bakının humanitar dialoq mərkəzinə çevrildiyini bildirib.

Daha sonra BMT baş katibinin müavini Rəşid Xalikov, ISESCO-nun baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, UNESCO-nun baş direktorunun müavini Qu Ksinq və Parlamentlərarası İttifaqın prezidenti xanım Qabriela Baron çıxış ediblər.

Açılış çıxışlarından sonra Forum işini plenar və işçi sessiyalarla davam etdirib.

Qeyd edək ki, 2010-cu ildən təşkil olunan Forumun təşəbbüsçüləri Azərbaycan və Rusiya prezidentləridir. Beynəlxalq Humanitar Forum qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə müxtəlif ölkələrdən tanınmış dövlət xadimlərini, elmin fərqli sahələri üzrə Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının nümayəndələrini bir araya toplayan mötəbər tədbirdir. VI Bakı Beynəlxalq Humanitar Forumu gələcək dünyamızı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayacaq. Dünyanı vahid məkan və bütün bəşəriyyəti bir cəmiyyət kimi görmək istəyi yeni münasibətlər qurmağa, daha mütərəqqi və aktual müzakirələr aparmağa imkan verəcək və bəşəriyyətin inkişafına ənənəvi yanaşmalarda dəyişikliklərin yaranmasına vəsilə olacaq.

## İmişli rayonunun Qızılkənd kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İmişli rayonunun Qızılkənd kəndində 624 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən ümumtəhsil məktəbi binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 oktyabr 2018-ci il*

## Heydər Əliyev Fondunun təşəbbüsü ilə İmişlidə 100 yerlik körpələr evi-uşaq bağçası inşa edilib

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə İmişlidə inşa olunmuş 100 yerlik körpələr evi-uşaq bağçası istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, körpələr evi-uşaq bağçasının inşasına 2014-cü ilin oktyabrında başlanılıb, bu ilin iyulunda isə tikinti işləri başa çatdırılıb. Müəssisənin ümumi ərazisi 2900, tikintialtı sahəsi isə 576 kvadratmetrdir. İkimərtəbəli binada yataq, geyim, məşğələ otaqları yaradılıb. Kompüter, musiqi və idman otaqları da balacaların ixtiyarına veriləcək. Binada bufet, mətbəx və digər inzibati otaqlar da var. Bina istilik sistemi ilə təchiz olunub, fasiləsiz su təminatı üçün ərazidə yerləşən artezian quyusundan su xətləri çəkilib, müşahidə kameraları quraşdırılıb. Bir sözlə, binada uşaqların istirahəti və əyləncəsi üçün hərtərəfli şərait yaradılıb ki, bu da balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafı üçün olduqca əhəmiyyətlidir. Burada yaradılan şərait uşaqların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, ünsiyyətqurma bacarıqlarının inkişafında mühüm rol oynayacaq.

Körpələr evi-uşaq bağçasının həyətində də geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolağı salınıb. Burada balacaların vaxtlarını səmərəli keçirmələri üçün müxtəlif attraksionlar da quraşdırılıb.

Qeyd edək ki, hazırda İmişlidə 883 uşaq yerlik 18 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.

## “Erməni dilinin qrammatikası” dərsliyinin təqdimatı keçirilib

### Kitab erməni dilinin qrammatik quruluşu, fonetikası, morfologiyası və sintaksis bəhslərini əhatə edir

Oktyabrın 23-də Azərbaycan Dillər Universitetində (ADU) “Qafqazşünaslıq” kafedrası və Azərbaycanşünaslıq Elmi-Tədqiqat Laboratoriyasının (ETL) birgə təşkilatçılığı ilə kafedranın baş müəllimi Hüseyn Əsgərovun müəllifi olduğu “Erməni dilinin qrammatikası” adlı dərsliyin təqdimat mərasimi keçirilib.

ADU-nun rektoru, akademik Kamal Abdulla universitetdə “Qafqazşünaslıq” kafedrasının fəaliyyət göstərməsini son dərəcə əlamətdar hadisə olduğunu deyərək kafedranın yalnız erməni dili deyil, həmçinin gürcü dili üzrə araşdırmalarını yüksək qiymətləndirib. O, dilin gücünün başqa dilə söz verməklə deyil, başqa dildən söz götürməsi ilə qiymətləndirildiyini söyləyib: “Dil əslində cəmiyyətin müxtəlif təbəqələrini bir yerə yığa biləcək körpüdür. Bu körpüdən keçərək siyasi, ictimai, insani, iqtisadi münasibətlərə yol açılır. Bu baxımdan dilin öyrənilməsi son dərəcə vacibdir”. Dərslik haqqında fikirlərini söyləyən rektor bildirib ki, kitab müstəqil şəkildə erməni dilini öyrənmək istəyən şəxslər üçün də böyük rol oynayacaq: “Dilini öyrəndiyimiz ölkənin böyük şair, yazıçılarını tanımalıyıq, ədəbiyyatını, psixologiyasını bilməliyik”.

“Qafqazşünaslıq” kafedrasının müdiri, professor Əsgər Zeynalov, AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, Azərbaycanşünaslıq ETL-nin aparıcı elmi işçisi akademik Möhsün Nağısoylu, həmin institutun Lüğətşünaslıq şöbəsinin müdiri, professor İsmayıl Məmmədli dərslik haqqında fikirlərini bölüşüblər.

“Qafqazşünaslıq” kafedrasının baş müəllimi Hüseyn Əsgərov müəllifi olduğu dərslik haqqında məlumat verib. Kitabın çap olunmasının universitet hesabına həyata keçirilməsi təşəbbüsünü irəli sürdüyü üçün rektor K.Abdullaya minnətdarlığını bildirib.

Təqdimat müzakirələrlə davam edib.

Qeyd edək ki, Azərbaycan Dillər Universiteti (ADU) Elmi Şurasının 30 iyun 2017-ci il tarixli iclasının qərarı ilə “Erməni dilinin qrammatikası” adlı dərslik çapdan çıxıb.

Kitab erməni dilinin qrammatik quruluşu, fonetikası, morfologiyası və sintaksis bəhsini əhatə edir. Dərslik dili öyrənənlər üçün nəzərdə tutulub.

Kitabın müəllifi ADU-nun “Qafqazşünaslıq” kafedrasının müəllimi Hüseyn Əsgərov, redaktoru Kayseri Erciyes Universitetinin Ədəbiyyat fakültəsi “Erməni dili və ədəbiyyatı” kafedrasının müəllimi, professor Qafar Çaxmaqlı, rəyçilər isə ADU-nun “Qafqazşünaslıq” kafedrasının müdiri, professor Əsgər Zeynalov, “İngilis dili fonetikası” kafedrasının müəllimi, dosent Əmir Cəfərov, ADPU-nun “Azərbaycan dilçiliyi” kafedrasının professoru Məhərrəm Hüseynov və AMEA-nın professoru İsmayıl Məmmədovdur.

# Bakının Nərimanov rayonunda 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub

## Birinci vitse-prezident Mehriban Əliyeva açılışda iştirak edib

Oktyabrın 23-də Bakının Nərimanov rayonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılışda iştirak edib.

Məktəbin direktoru Şahzadə İsgəndərova burada yaradılan şərait barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi. Bildirdi ki, 11 saylı xüsusi təhsil məktəbi 1937-ci ildən fəaliyyət göstərir. Bu təhsil ocağının köhnə binası 1897-ci ildə inşa edilmişdi. Heydər Əliyev Fondu tərəfindən aparılan monitorinq nəticəsində məktəb binasının təhsilə tam yararsız olduğu aşkar edilmiş və Nərimanov rayonunda məktəb üçün yeni binanın inşasına qərar verilmişdi.





Birinci vitse-prezident Mehriban Əliyeva məktəbin rəmzi açılışını bildirən lenti kəsdi və bu təhsil ocağında yaradılan şəraitlə tanış oldu.

Qeyd edildi ki, təhsil müəssisəsinin binasının ümumi sahəsi 4 min kvadratmetrdən çoxdur. Burada 21 sinif otağı, psixoloq, defektoloq, həkim otaqları, idman və akt zalları, yeməkxana var. Eyni zamanda, burada uşaqların istifadəsi üçün kitabxana yaradılıb.

Məktəbin üçmərtəbəli binası 250 şagird yerlikdir. Hazırda 651 nəfər evdə, 137 şagird isə məktəbdə təhsil alır. Məktəbdə 289 müəllim çalışır və onlar autizm, Daun sindromlu, ümumtəhsil proqramını mənimsəyə bilməyən və əqli inkişaf geriliyi diaqnozu olan uşaqlara təlim keçirlər. Ümumtəhsil proqramını mənimsəyə bilməyən şagirdlər də il ərzində aşkarlanaraq bu məktəbə yönləndirilir. Onillik məktəbin tədris planına defektoloq saatları daxil edilib. Eyni zamanda, xüsusi uşaqlar üçün psixoloq saatları ayrılıb. Texnologiya dərslərində isə uşaqların bacarıqları aşkar olunur. Bir sözlə, bu məktəbdə xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil alması, onların təlim-tərbiyəsi ilə hərtərəfli məşğul olmaq üçün bütün imkanlar mövcuddur. Bütün bunlar isə xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitinin yaxşılaşdırılması, bu qəbildən olanların təhsil problemlərinin həlli istiqamətində son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə əhəmiyyətli addımların atılmasından irəli gəlir. 11 saylı xüsusi təhsil məktəbinin yeni binasının Heydər Əliyev Fondunun təşəbbüsü ilə müasir səviyyədə inşa olunması bir daha sübut edir ki, Fond da bu istiqamətdə dövlətin icra etdiyi layihələrə sanballı töhfələr verir. Bu layihənin icrası aydın şəkildə göstərir ki, humanizm, insani dəyərlərə hörmət, dinindən, dilindən, cinsindən, yaşından asılı olmayaraq hər kəsə diqqət göstərmək Heydər Əliyev Fondunun fəaliyyətində əsas prinsiplərdən biridir.

Məktəbin həyətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zonası yaradılıb, istirahət köşkləri qurulub.

11 saylı xüsusi təhsil məktəbinin yeni binasında yaradılan şəraitlə tanış olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bu təhsil ocağına fəaliyyətində uğurlar arzuladı.

## AzMİU-da daha bir laboratoriya stendi açılıb

**Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) Avstriyanın "Herz Armaturen" şirkəti tərəfindən bu ali məktəbə hədiyyə olunmuş laboratoriya stendlərinin açılışı olub. Açılış mərasimində "Herz Armaturen" şirkətinin prezidenti Gerhard Glinzerer, Avstriyanın ölkəmizdəki səfirinin müavini, şirkətin Azərbaycan nümayəndəliyinin rəhbəri və əməkdaşları iştirak ediblər.**

AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova universitetin fəxri professoru, şirkətin prezidenti Gerhard Glinzereri rəhbərlik etdiyi ali məktəbdə görməkdən məmnun olduğunu deyib. İkitərəfli əlaqələrin faydalı əməkdaşlığa çevrildiyini bildirən rektor şirkətin AzMİU-nun maddi-texniki bazasının möhkəmlənməsinə göstərdiyi dəstəyi yüksək qiymətləndirib. O, tədbirin universitet, eləcə də Su təsərrüfatı və mühəndis kommunikasiya sistemləri fakültəsinin tələbələri üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Səmimi görüş üçün rektora təşəkkürünü bildirən cənab Gerhard Glinzerer AzMİU ilə qurulan işgüzar əlaqələrin Azərbaycanla Avstriya arasındakı əməkdaşlığa, dostluğa mühüm töhfə verdiyini qeyd edib. O, şirkətin öz fəaliyyətində beynəlxalq əməkdaşlığa daim yüksək dəyər verdiyini, bu istiqamətdə təhsilin prioritet olduğunu, AzMİU-da gördükləri işin onlar üçün böyük önəm daşıdığını diqqətə çatdırıb. "Mən fəxr edirəm ki, bu gün biz belə bir mühüm stendi bu universitetdə açırıq"-deyən şirkət rəhbəri əməkdaşlığın bundan sonra daha da inkişaf etdirilməsi üçün lazımi köməkliyi edəcəyini bildirib.

Açılış mərasimi rəmzi qırmızı lentin kəsilməsi ilə davam edib. Universitet rəhbərliyi və qonaqlar laboratoriyadakı avadanlıqlar və stendlə tanış olublar. "Mühəndis sistemləri və qurğularının tikintisi" kafedrasının müdiri Nurməmməd Məmmədov laboratoriya barədə məlumat verərək qeyd edib ki, təqdim olunan stend sayca Herz şirkətinin universitetə hədiyyə etdiyi 4-cü stenddir. O, stendin istilik sistemlərinin quraşdırılması istiqaməti üzrə mütəxəssis hazırlığı işində böyük yardımçı olacağını vurğulayıb, şirkətin rəhbərliyinə təşəkkürünü bildirib.

## AzTU-Alman Akademik Mübadilə Xidməti əlaqələri müzakirə olunub

**Oktyabrın 19-da Alman Akademik Mübadilə Xidməti (DAAD) proqramının Bakı Məlumat Mərkəzinin rəhbəri Mara-Lisa Gezer və Mərkəzin nümayəndələri Azərbaycan Texniki Universitetində (AzTU) olublar.**

Qonaqları qəbul edən AzTU-nun rektor əvəzi, professor Xalıq Yahudov Almaniya universitetləri ilə AzTU arasında mövcud olan səmərəli əməkdaşlıqdan danışıb. Rektor əvəzi bildirib ki, bu ildən etibarən AzTU-nun Maşınqayırma fakültəsində almandilli qrup yaradılıb. DAAD çərçivəsində AzTU-nun bir neçə aliminin Almaniyada təhsil aldığına, bəzilərinin bir müddət orada işlədiyinə və universitetin xeyli sayda müəlliminin alman dilini mükəmməl bildiyinə diqqət çəkən professor Xalıq Yahudov növbəti illərdə tələbatdan asılı olaraq almandilli qrupların sayının artırıla biləcəyini qeyd edib.

Növbəti 2 il müddətində Azərbaycanda olacağını və DAAD proqramının Bakı Məlumat Mərkəzinə rəhbərlik edəcəyini deyən Mara-Lisa Gezer AzTU ilə bir neçə istiqamət üzrə əməkdaşlıq formatının mümkün olduğunu bildirib. Mara-Lisa Gezer qeyd edib ki, Alman Akademik Mübadilə Xidmətinin proqramından istifadə göstəricisinə görə Azərbaycan Rusiya və Amerika Birləşmiş Ştatlarından sonra dünyada üçüncü yerdədir. İlk azərbaycanlı kimi AzTU-nun professoru Vaqif Mövlazadənin 1971-ci ildə Almaniyada birillik elmi staj keçdiyini məmnunluqla vurğulayan Mara-Lisa Gezer Alman Akademik Mübadilə Xidmətinin proqramından istifadə göstəricisinə görə AzTU-nun Azərbaycan ali təhsil müəssisələri arasında lider olduğunu qeyd edib.

Görüşdə AzTU-nun almandilli qruplarının tədris materialları ilə təmin olunması, tələbələrin Almaniyaya Yay məktəblərinə və təcrübəyə göndərilməsi, həmçinin müəllim-tələbə mübadiləsi kimi məsələlər də müzakirə olunub.

## İstedadlı və yaradıcı gənclərin III Respublika toplantısı

Oktyabrın 23-də "Fairmont Baku" otelində istedadlı və yaradıcı gənclərin III Respublika toplantısı keçirilib.

Tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev, gənclər və idman nazirinin müavini İntiqam Babayev, təhsil nazirinin müavini Firudin Qurbanov, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik-katibi, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev, elm və təhsil müəssisələrinin nümayəndələri, gənclər iştirak ediblər.



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Sonra respublikamızda istedadlı və yaradıcı gənclərin fəaliyyəti, bu sahədə keçirilən tədbirlərlə bağlı videoçarx nümayiş etdirilib.

Toplantıda çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev Azərbaycan gəncliyinin inkişafı üçün ölkəmizdə geniş yaradıcılıq mühitinin olduğunu vurğulayıb. Nazir ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizdə dövlət gənclər siyasətinin formalaşdığını, gənclərlə bağlı bir çox yeniliklərə imza atıldığını, yeni nazirliyin təsis olunduğunu, mühüm istiqamətlərin müəyyən edildiyini, Dövlət proqramlarının həyata keçirildiyini bildirib.

Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan nazir qeyd edib ki, dövlətimizin başçısının Sərəncamı ilə təsdiq olunan "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı demək olar ki, ölkəmizin bütün sahələrini əhatə edən, gənclərə istiqamət verən mühüm sənəddir. Gənclər bu imkanlardan səmərəli istifadə etməli, ölkəmizin inkişafına öz töhfələrini verməlidirlər. Yaradıcı gənclər daim özlərini inkişaf etdirməli, müasir biliklərə yiyələnməli, müasir texnologiyaların imkanlarından yüksək səviyyədə istifadəni bacarmalıdırlar. Bütün bunlar yüksək yaradıcılıq tələb edən amillərdir.

"Biz öz gəncliyimizə böyük nikbinliklə baxır, onların uğurları ilə qürur duyuruq. Bu gün gənclərimiz Azərbaycanı beynəlxalq aləmdə uğurla təmsil etməyə, ölkəmizin adını uca tutmağa nail olublar", - deyə Əbülfəs Qarayev vurğulayıb.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib ki, toplantı Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının müvafiq bəndinin icrasını təmin etmək məqsədilə keçirilir. 2013-cü ildə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsinin dövlətimizin başçısının gənclərə diqqət və qayğısının bariz nümunəsi olduğunu bildirən nazir müavini Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin Azərbaycan gəncliyinin inkişafına təkan verdiyini, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynadığını deyib. Qeyd edib ki, Prezident İlham Əliyevin "qara qızılı insan kapitalına çevirmək" konsepsiyası bu gün uğurla həyata keçirilir.

Gənclərin milli kompüter oyunlarına marağının get-gedə artdığını vurğulayan İ.Babayev belə yarışların əhəmiyyətini xüsusi qeyd edərək, ölkəmizdə kreativ düşüncəli və bacarıqlı gənclərin olmasından məmnunluğunu bildirib. Yaradıcı gənclərdən ibarət kompüter oyunları üzrə peşəkar komandaların formalaşdığını vurğulayan nazir müavini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kompüter oyunlarının istifadəyə verildiyini diqqətə çatdırıb. Bildirib ki, bu oyunlar Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində mühüm təbliğat vasitəsidir. Sevindirici haldır ki, gənclərimiz bu sahədə fəal iştirak edir, ölkəmizlə bağlı həqiqətlərin dünyaya çatdırılması işinə layiqli töhfə verirlər.

Əlilliyi olan istedadlı gənclərin yaradıcılıqlarının reallaşdırılması sahəsində görülən işlərdən danışan İntiqam Babayev bu qəbildən gənclərin sosial inteqrasiyası və adaptasiyasında "Şərq nağılı" beynəlxalq yaradıcılıq festivalının və digər tədbirlərin önəmini vurğulayıb.

Təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycanda gənclərin inkişafına dəstək verilməsinin dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri olduğunu qeyd edərək bunun üçün hər cür şəraitin yaradıldığını deyib. Bildirib ki, gənclərin himayədarı olan ümummilli lider Heydər Əliyev ölkəmizdə hərtərəfli inkişaf etmiş gənc nəslin yetişməsini dövlətin və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Azərbaycanda istedadlı gənclərin potensialının daha da artırılması, onların stimullaşdırılması, yaradıcı fəal gənclərin mükafatlandırılması, ali məktəblərə qəbul imtahanlarında yüksək bal yığmış gənclər üçün Prezident təqaüdlərinin təsis olunması məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Prezident İlham Əliyevin gənclərin inkişafına, onların bilik və bacarıqlarının artırılmasına, yeni dövrün tələblərinə uyğun yetişmələrinə daim yüksək diqqət yetirdiyini vurğulayan Firudin Qurbanov bunun sayəsində gənclərimizin beynəlxalq arenalarda parlaq nailiyyətlər qazandıqlarını qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev dinamik inkişaf edən Azərbaycanda gənclərimizin yüksək təhsil almaları üçün hərtərəfli şəraitin yaradıldığını vurğulayıb. Ölkəmizdə gənclərə bütün sahələrdə böyük etimad göstərildiyini vurğulayan Elçin Babayev bildirib ki, dövlətimizin başçısı bu istiqamətdə müxtəlif sərəncamlar imzalayıb, Dövlət proqramlarını təsdiq edib. Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Prezident Administrasiyasında gənclər siyasəti və idman məsələləri şöbəsinin yaradılması bu sahəyə göstərilən diqqət və qayğının bariz göstəricisidir.

Gənclər siyasətinin həyata keçirilməsində müxtəlif gənclər təşkilatlarının birgə səmərəli fəaliyyətinin əhəmiyyətini diqqətə çatdıran icraçı direktor Azərbaycanda insan kapitalına böyük sərmayə qoyulduğunu vurğulayıb. Qeyd edib ki, gənclərimiz göstərilən etimadı doğrultmaq üçün bilikli, savadlı olmalı, müasir texnologiyaları mənimsəməli, xarici dilləri öyrənməlidirlər. Prezident İlham Əliyev qarşımıza vəzifə qoyub ki, ölkəmiz regionun siyasi-iqtisadi sahədə lider dövləti olduğu kimi, bölgənin beynəlxalq elm mərkəzinə də çevrilməlidir. Gənclik orta və yaşlı nəsillə birlikdə bu məqsədə doğru birgə hərəkət etməlidir.

AMEA-nın akademik-katibi, Akademiyanın İnformasiya Texnologiyaları İnstitutunun direktoru Rasim Əliquliyev "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramından irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi üçün Akademiyanın qarşısında duran vəzifələrdən danışıb. Son illər AMEA-nın bu istiqamətdə bir sıra mühüm tədbirlər həyata keçirdiyini bildirən alim deyib ki, Akademiyanın, Təhsil, eləcə də Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Azərbaycanın gənc alimlərinin birinci qurultayı keçirilib. Həmin tədbirdə gənc alimlərimiz dövlətin diqqət və qayğısına cavab olaraq müstəqil Azərbaycanın inkişafına yeni və daha böyük töhfələr vermək üçün öz üzərlərində səylə çalışmağın zəruriliyini yekdilliklə ifadə ediblər. Bu istiqamətdə əsas məqsəd gəncliyin intellektual potensialının üzə çıxarılması, onların təhsil və məşğulluq məsələlərinə diqqətin artırılmasıdır.

İstedadlı və yaradıcı gənclərin III Respublika toplantısının rəsmi açılış mərasimindən sonra keçirilən bölmə iclaslarında dövlət və yaradıcı qurumların nümayəndələri, gənclər və ekspertlər müxtəlif yaradıcılıq istiqamətlərində təhlillər və müzakirələr aparıb, inkişaf perspektivlərinə nəzər yetiriblər.

Günün ikinci yarısında görkəmli elm və mədəniyyət xadimlərinin iştirakı ilə intellektual inkişaf, elm, təhsil, kino, teatr, ədəbiyyat, musiqi və rəqs, təsviri və dekorativ-tətbiqi sənət, foto və s. istiqamətlər üzrə paralel görüşlər keçirilib.

İstedadlı və yaradıcı gənclərin III Respublika toplantısında ölkəmizin bütün şəhər və rayonlarından ümumilikdə 500-dən artıq istedadlı gənc iştirak edib.

## Təhsil naziri Gürcüstanın ölkəmizə yeni təyin olunmuş səfiri ilə görüşüb

Oktyabrın 22-də təhsil naziri Ceyhun Bayramov Gürcüstanın Azərbaycana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze ilə görüşüb.

Görüş zamanı Azərbaycan və Gürcüstan arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

## Qazi Universitetinin nümayəndə heyəti ilə görüş

Təhsil nazirinin müavini Firudin Qurbanov Qazi Universiteti İncəsənət kafedrasının müdiri Alev Çakmakoğlu Kurunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazir müavini qonaqları salamlayaraq, Azərbaycan və Türkiyə arasında mövcud dostluq əlaqələrinin yüksək səviyyədə olduğunu, bu əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb. Firudin Qurbanov Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümündə Qazi Universitetində, o cümlədən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində “Anadoludan Qafqaza ermənilərin həyata keçirdiyi mədəni soyqırım” mövzusunda konfransın və “Duyulmayan çığlık Hocalı” beynəlxalq sərginin təşkil edilməsinə, Türkiyə və digər ölkələrdə Qarabağla bağlı davamlı tədbirlərə, o cümlədən sərgidə nümayiş olunan əsərlərin Azərbaycan Respublikasına hədiyyə edildiyinə görə Alev Kuruya minnətdarlığını bildirib.

Qonaq Azərbaycan-Türkiyə dostluq münasibətlərinin sarsılmaz olduğunu qeyd edib. Həmçinin, səfərin təşkilində göstərilən dəstəyə və fəxri professor adı ilə təltif edildiyinə görə Təhsil Nazirliyinə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə təşəkkürünü bildirib.

Görüşün sonunda qarşılıqlı olaraq xatirə hədiyyələri təqdim edilib.

Səfər çərçivəsində Quba rayonunda olan Türkiyə nümayəndə heyəti Heydər Əliyev Mərkəzi, Quba Soyqırımı Memorial Kompleksi, Tarix-Diyarşünaslıq Muzeyi, Xalçaçılıq emalatxanası və digər tarixi yerləri ziyarət edib.

## Təhsil Nazirliyinin nümayəndə heyəti Türkiyədə səfərdə olub

Təhsil Nazirliyinin nümayəndə heyəti Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində işgüzar səfərdə olub. Nümayəndə heyətinin tərkibinə Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, nazirliyin Statistika və təhlil sektorunun müdiri Elvin Nəsibov, Hesabatvermə və icraya nəzarət sektorunun müdiri vəzifəsini icra edən Yaşar Zeynalov, Akkreditasiya və Nostrifikasiya İdarəsinin şöbə müdiri Turan Topalova daxildir.

Azərbaycanın Türkiyədəki səfirliyinin dəstəyi ilə təşkil olunan səfərin məqsədi Türkiyənin təhsil sistemində informasiya texnologiyaları, təhsil sənədlərinin tanınması, strateji planlaşdırma, təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılması, mətbuat və ictimaiyyətlə əlaqələr üzrə təcrübənin öyrənilməsi ilə bağlı fikir mübadiləsi olub.

Səfərin ilk günü Türkiyənin təhsil nazirinin müavini Mustafa Safranla görüş keçirilib. Görüşdə səfərin proqramı müzakirə olunub.

Səfər çərçivəsində Türkiyə Təhsil Nazirliyi və Ali Təhsil Şurasında bir sıra görüşlər keçirilib. Görüşlərdə Türkiyə Respublikasının təhsil sistemində tətbiq olunan elektron idarəetmə sistemləri, tədris haqqında məlumatların toplanılması və təhlili, vətəndaş müraciətlərinin qəbulu və təhsilverənlər üçün ixtisasartırma xidmətləri mövzularında təqdimatlar keçirilib, qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunub.

# “Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə”

## II gənclər sərgisi təşkil olunub

Oktyabrın 22-də Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə “Baku Crystall Hall”da “Ekoloji problemlər və onların həlli yolları tələbələrin gözü ilə” mövzusunda II gənclər sərgisi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, gənclər və idman naziri Azad Rəhimov, digər rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.

Sərginin keçirilməsində məqsəd gənclərin ekoloji sahəyə marağını artırmaq, onları bu sahədə maarifləndirmək, eyni zamanda, yaradıcılıq potensiallarını dəstəkləmək və sosial təşəbbüskarlığı stimullaşdırmaqdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və gənclər və idman naziri Azad Rəhimov sərgidə nümayiş etdirilən əsərlərlə tanış olublar.

Sərgidə 14-29 yaşlı 200-dək gəncin dəzgah rəngkarlığı, kvillinq, xəttatlıq, keramika, rəngkarlıq, ebru sənəti, qrafika, qravüra, landşaft dizaynı, batika, vitraj, qravüra üslubları üzrə ekoloji mövzuda çəkdikləri rəsm əsərləri nümayiş etdirilib. Bununla yanaşı, gənclərin ekoloji mövzuda hazırladıqları müxtəlif əsərlər də sərgilənib.

Tədbirdə ustad dərsləri keçirilib, gənclərin iştirakı ilə ekotamaşa, səhnəciklər, viktorinalar, sağlam həyat tərzinin təbliği məqsədilə idman yarışları təşkil olunub, adı Azərbaycanın “Qırmızı kitabı”na düşən heyvanlar və nadir ağaclar nümayiş etdirilib.

Sonda sərginin qalibləri mükafatlandırılıb.

Qeyd edək ki, sərgi Prezident İlham Əliyevin 2015-ci il 26 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın 5.2.3-cü bəndini (gənclərin elm, texnika, mədəniyyət, incəsənət sahəsindəki bacarıqlarını və təşəbbüskarlığını stimullaşdıran tədbirlər həyata keçirmək) rəhbər tutaraq və “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının 5.6.5-ci (gənclər arasında ətraf mühit və mənfi ekoloji tendensiyaların sağlamlığa zərərli təsiri ilə bağlı maarifləndirmə işlərinin aparılması) bəndinin icrasını təmin etmək məqsədilə keçirilib.

# Əmək bazarının tələblərinə uyğun

## Peşə təhsili pilləsində kadr hazırlığı daha cəlbedici olur




⇦ Əvvəli səh.1

**R.HÜSEYNOVA**

Həmin tədbirlərin nəticəsində 83 peşə təhsil müəssisəsi fəaliyyətə başlayıb. Onların 14-ü son illərdə yaradılan peşə təhsil mərkəzləridir.

### 10 yeni mərkəz yaradılacaq

A.Əlilinin fikrincə, rasionallaşdırma tədbirlərinin həyata keçirilməsinin səbəblərindən biri kəmiyyətin deyil, keyfiyyətin önəmli olmasıdır. Bu proses nəticəsində mövcud peşə təhsili müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi və onların əsasında əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasını həyata keçirə bilən mərkəzlərin yaradılması əsas şərtdir: “Çünki Bakı və Gəncədə fəaliyyət göstərən peşə təhsil müəssisələrinin bir çoxunun maddi-texniki bazası dövrün tələblərinə cavab vermir. Onları birləşdirməklə maddi-texniki bazadan daha səmərəli istifadə etməyə və daha keyfiyyətli kadr hazırlığına nail olmağa çalışdıq”.

Nəticədə Bakı və Gəncə şəhərlərində yerləşən 32 peşə təhsili müəssisəsi rasionallaşdırılıb və onların bazasında 13 ixtisaslaşmış Dövlət Peşə Təhsil Mərkəzi yaradılıb. Qəbələ Peşə Məktəbi və Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin bazasında peşə liseyi statusu ilə Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi fəaliyyətə başlayıb.

Prosesin davamı olaraq Təhsil Nazirliyi 10 yeni peşə təhsili müəssisəsinin yaradılması ilə əlaqədar təkliflər paketini Nazirlər Kabinetinə təqdim edib. Respublikanın digər şəhər və rayonlarında yerləşən peşə təhsili müəssisələrinin rasionallaşdırılması və optimallaşdırılması ilə bağlı Tədbirlər Planı da hazırdır və artıq aidiyyəti üzrə təqdim olunub.

### Yeni peşə təhsil mərkəzləri: “ASAN Peşə” onlardan biridir

Son illərdə yaradılan peşə təhsil müəssisələrindən biri də “ASAN Peşə” Təhsil Mərkəzidir. İxtisaslı kadrların hazırlanmasını və onların əmək bazarının dəyişən tələblərinə uyğun rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədilə Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə layihəsi olan “ASAN Peşə” Təhsil Mərkəzi bu ilin yanvarında fəaliyyətə başlayıb. İlkin olaraq 2018-2019-cu tədris ilində 5 ixtisas üzrə kadr hazırlığına başlanılıb. Burada tikişçi, kompüter operatoru, santexnik-çilingər, elektrik və mexanik hazırlanır.

Necə hazırlanmasına gəlincə, onu da tələbələrdən eşitmək üçün burdayıq.

“ASAN Peşə” Təhsil Mərkəzində dərs vaxtıdır. 2018-2019-cu tədris ilindən qəbul həyata keçirilən yeni ixtisaslardan biri - rəqəmli idarə olunan dəzgahların kompüter operatoru ixtisası üzrə təhsil alan tələbələrin qrupundayıq. Onlar həm nəzəri, həm də praktik olaraq müasir avadanlıqlarla işləməyi öyrənirlər. Gülüstan Kərimova onlara emal prosesinin avtomatlaşdırılmasını tədris edir.

### Universiteti qazandı, “ASAN Peşə”də oxudu

Bu qrupun tələbələrindən biri Aysu Rüstəmli İnteqrasiya Təlimi İnternat Tipli Gimnaziyanı bitirib. Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edib və qazanıb: “İxtisasım məni qane etmədi. Azərbaycan Dövlət İqtisad Universitetinin çox işlənən malların texnologiyası ixtisasına qəbul olundum. Ancaq qeydiyyatdan keçmədim”.

Daha sonra peşə məktəblərinə qəbul prosesində iştirak edib. “ASAN Peşə” layihəsi çərçivəsində “ASAN Xidmət” mərkəzlərində peşə təhsili müəssisələrinin ixtisasları ilə maraqlanıb və yeni ixtisas olmasına baxmayaraq, rəqəmli idarə olunan dəzgahların kompüter operatoru ixtisasını seçib: “Bu ixtisası 160 nəfər seçib. Attestat balım yüksək olduğu üçün bu rəqabətdən uğurla çıxdım və seçimimə görə peşiman deyiləm. Avadanlıqlar, dərslərimiz, müəllimlərin tədris metodları məni qane edir. Çalışırıq ki, əlimizə düşən bu fürsətdən maksimum yararlanıb peşəmizi öyrənək. Bu ixtisas sadəcə peşə təhsili müəssisələrindədir, hələ universitetlərdə yoxdur”.

### “ASAN Peşə” layihəsinin üstün cəhətlərindən biri də...

2016-2017-ci tədris ilindən başlayaraq peşə təhsili müəssisələrinə sənəd qəbulu “ASAN Peşə” layihəsi çərçivəsində həyata keçirilir. Vətəndaşların rahatlığının təmin edilməsi, o cümlədən təhsilin bütün pillələrində olduğu kimi peşə təhsilində də tam şəffaflığın təmin edilməsi məqsədi ilə həyata keçirilən layihə 2016-2017-ci tədris ilində Bakı və Gəncə şəhərləri ilə məhdudlaşırdısa, 3 ildir uğurla reallaşdırılan layihə artıq bütün ölkə ərazisini əhatə edir. Amil Əlilinin sözlərinə görə, bu layihəyə qədər peşə təhsili müəssisələrinə orta göstəriciləri aşağı olanlar müraciət edirdi. “ASAN Peşə” layihəsindən və peşə təhsili müəssisələrində aparılan islahatlardan sonra orta məktəbi “5” qiymətlə bitirənlər arasında peşə təhsili müəssisələrinin tələbəsi statusunu qazanmaq istəyənlərin sayı artıb. İndi onların sayı əvvəlki illərlə müqayisədə 3 dəfədən çoxdur: “Sadəcə bir faktı deyim ki, 2018-2019-cu tədris ilində orta məktəbi fərqlənmə attestatı ilə bitirən 70-dən çox gənc ixtisas seçib”.

Attestat balı yüksək olan Gülgəz Kərimli Mingəçevir şəhər 13 nömrəli tam orta məktəbin məzunudur. Kompüter operatoru ixtisası barədə məhz “ASAN Peşə” layihəsinə qatılarkən məlumat alıb: “ASAN Peşə” layihəsinin üstün cəhətlərindən biri də məhz ixtisaslarla bağlı məlumatlanmağımızda və attestat balımıza uyğun düzgün ixtisas seçməyimizdə “ASAN xidmət”dəki könüllülərin köməyidir. Könüllülər həm məlumatlandırır, həm də düzgün istiqamət verirlər. Bu gün burada təhsil ala bildiyim üçün həm də bu layihəyə borcluyam. Buradakı təhsil, təcrübə o qədər maraqlı keçir ki, nə vaxt özüm təkbaşına işləyəcəyəm deyə tələsirəm. Hər şeyi daha tez öyrənmək istəyirəm. Bu baxımdan həftənin bazar ertəsi mənim üçün ən maraqlı gündür. Həmin gün “Akkord”da və ya Mingəçevir Sənaye Texniki Parkında istehsalat təcrübəsi keçirik”.

### Ali təhsilli elektrik

Təhsil Mərkəzində 5 qrupdan biri - “Elektrik xətlərinin quraşdırılması üzrə mütəxəssis” ixtisası üzrə təhsil alan 20 nəfərlik qrupdayıq. Amil Əlilinin sözlərinə görə, bu ixtisas üzrə ən yüksək keyfiyyətli kadr hazırlığı məhz “ASAN Peşə” Təhsil Mərkəzindədir. Bu qrupun ən fəal tələbələrindən biri diqqətimizi çəkir. Məlum olur ki, Xəyyam Əliyev peşə təhsilinə üz tutan onlarla ali təhsilli gəncdən biridir. 2005-ci ildə Gəncə Dövlət Universitetinin fizika fakültəsini bitirib: “11 il fizika müəllimi işlədim. Ölkə başçısının iştirakı ilə Mingəçevirdə Sənaye Parkının açılışı oldu. Açılışdan sonra bu inkişafdan yararlanmaq qərarına gəldim və sənayedə çalışmaq üçün müraciət etdim. İş yerimi dəyişib tekstildə işləməyə başladım. Hesab etdim ki, inkişaf bu sahədədir. Yeni texnologiyalarla işləmək maraqlıdır. Fikrimcə, insan öz üzərində daim işləməlidir. Gələcəyimizin də texnologiyadan asılı olduğunu nəzərə alsaq, mən də olduğum yerdən bir az irəli getmək istədim. Təhsil almaq, şərait, yeni texnologiya ilə tanışlıq, müəllimlərlə işləmək çox maraqlıdır”.

Amil Əlili bu fikirdədir ki, bir neçə il sonra ali təhsilə deyil, peşə təhsilinə üstünlük verənlərin sayı kəskin dəyişəcək: “Ali təhsilli mütəxəssislər artıq peşə təhsilinə müraciət edirlər. Son 3 ildə ali məktəbi bitirib əmək bazarında özünə iş tapmayan kifayət qədər diplomlu insan görmək olar. Həmin şəxslər qısa müddətdə, özü də əmək bazarının tələbinə uyğun yeni ixtisas üzrə peşə təhsilinə müraciət edirlər. Bu da peşə təhsilinin aktuallığını üzə çıxarır. Məsələn, İT STEP Kompüter Akademiyasına müraciət edən 30 nəfərin 50 faizdən çoxu məhz ali təhsillilərdir. Xidmət sektoru üzrə müraciət edənlərin arasında da ali təhsillilər çoxluq təşkil edirlər. Bu ildən etibarən pilot olaraq texniki ixtisaslar üzrə kadr hazırlığı aparılır. Elə həmin ixtisaslar üzrə də kifayət qədər ali təhsilli şəxslər müraciət edirlər. Məsələn, avtomobil təmiri çilingəri, elektrik-qaz qaynaqçısı ixtisasları üzrə ali təhsillilərin müraciətinin şahidi oluruq”.

### “Hamı məni axtarsın”

Sanitar-texniki avadanlıqlar laboratoriyasındayıq. Santexnik olmaq istəyənlər bu peşənin sirlərini öyrənirlər. Məsələn, Yasin Qocayev ümumi orta təhsil pilləsindən gəlib. Mingəçevir şəhərindəki Rəşad Muradov adına 7 nömrəli tam orta məktəbdə təhsil alıb: “Bu peşəyə marağım vardı. Ona görə də təhsilimi peşə məktəbində davam etdirmək istədim. Valideynlərim də qərarımı dəstəklədilər. Müşahidə edirdim ki, bu peşə hamıya lazım olur. Burada yaxşı öyrənəcəyəm. Çalışacağam ki, bir il ərzində elə yetişim ki, hamı məni axtarsın”.

### 11 il sonra xəyalı gerçəkləşdi

Rəqəmli idarə olunan dəzgahlarda və tornaçı qrupunda ixtisas fənn müəllimi Tünzalə İsmayılova deyir ki, onlar məktəblərdə də iş aparır, Təhsil Mərkəzində tədris olunan ixtisaslar barədə məktəblilərə məlumat verirlər.

Ruqiyyə Həsənova məhz bu məlumatlandırmanın nəticəsi olaraq burdadır. “ASAN Peşə” Təhsil Mərkəzində tikiş avadanlıqlarının operatoru, tikişçi ixtisası üzrə təhsil alır. Mingəçevirdəki İlqar Zeynalov adına 2 nömrəli tam orta məktəbin şagirdi olan Ruqiyyə ümumi orta təhsil bazasından peşə təhsili müəssisələrinin ixtisas seçimi mərhələsinə qatılaraq uğur qazanıb: “Uşaqlıqdan tikişə marağım var. Müəllimimiz də bizi çox həvəsləndirir”.

Tikişə marağı olan Yevlax rayonunun Tanrıqulular kənd sakini Lalə Hüseynova isə 11 ildir orta təhsilini tamamlayıb: “Ailəliyəm, iki övladım var. Evdar qadınam. Ancaq elanı eşidəndən sonra mən də təhsil almaq istədim. Tikib-biçməyi sevsəm də, bacarmamışam. Buna görə həmişə təəssüflənirdim. Bu şans barədə eşidəndə kənarda qalmaq istəmədim. Bu imkanı mənə, mənim kimi neçə-neçə qadına yaratdıqlarına görə dövlətimizə çox minnətdaram. Tikmək mənim üçün illər keçdikcə xəyala çevrilməyə başlamışdı. Demək olar, xəyalımı gerçəkləşdirdilər. Artıq iki aydır oxuyuram, amma hələ də inana bilmirəm ki, iki il sonra sevdiyim işlə məşğul ola biləcəyəm”.

### “Ustalarımız da, müəllimlərimiz də yüksək ixtisaslı mütəxəssislərdir”

Mingəçevir Peşə Məktəbinin direktoru İlham İlyasov “Azərbaycan müəllimi”nə açıqlamasında bildirib ki, 2018-2019-cu tədris ili üçün 8 ixtisas üzrə ümumilikdə 160 tələbə qəbul olunub. 8 qrupdan 5-i bu binada, “ASAN Peşə” Təhsil Mərkəzində təhsil alır. Təhsilalanlar tədris planına uyğun olaraq aprel ayına qədər nəzəri məşğələlər, aprel ayından sonra isə ixtisaslarına uyğun olaraq istehsalat sahələrində təcrübə keçəcəklər.

İlham İlyasov onu da qeyd edib ki, “ASAN Peşə” Təhsil Mərkəzi Avropa İttifaqı ölkələrinin, Çin, Türkiyə və başqa qabaqcıl ölkələrin texnologiyası ilə təchiz edilib. Pedaqoji heyət 16 müəllim, 8 usta olmaqla 24 nəfərdən ibarətdir: “Ustalarımız da, müəllimlərimiz də yüksək ixtisaslı mütəxəssislərdir”.

İ.İlyasov onu da qeyd edib ki, peşəyönümlü fəaliyyətlə əlaqədar işəgötürənlərlə sıx əməkdaşlıq edilir: “Yeni açılan ixtisaslar üzrə Mingəçevir şəhərində yerləşən idarə, müəssisə və təşkilatlarla danışıqlar aparılır, rəsmi yazışmalar gedir. Cəhdlərimiz ona yönəlib ki, tələbələrə təhsil aldığı müddətdə təcrübədən keçmələri üçün şərait yaradaq, kadrlarımızı işəgötürənlərə təklif edək”.

Amil Əlili vurğulayıb ki, peşə təhsilində 30-a qədər müəssisə ilə əməkdaşlığa dair görüşlər keçirilib. 1000-ə yaxın müəssisə ilə peşə təhsili müəssisələri arasında təhsilalanların istehsalat təcrübəsi keçmələrinə dair müqavilələr imzalanıb.

### Qəbul planı işəgötürənlərin sifarişi əsasında hazırlanır

Amil Əlili qeyd edib ki, kadrların nəinki təcrübə və işlə təmin olunmasında, elə hazırlığı prosesində də işəgötürənlərin tələbi böyük önəm daşıyır. Odur ki, peşə təhsili müəssisələrinə qəbul planı hazırlanarkən bu məqam göz önündə tutulur.

A.Əlili qeyd edib ki, tələbat artan ixtisaslar arasında köhnə stereotiplərin dağıldığını göstərən faktlara da rast gəlinir: “Aşpaz hər zaman tələb olunan ixtisasdır. Ancaq tutaq ki, turizm sektoru üzrə köhnə stereotiplərin qırıldığını göstərən tələblərlə qarşılaşırıq. Məsələn, oteldə konsier, mehmanxana inzibatçısı, mehmanxana təsərrüfatı üzrə mütəxəssis, turizm agenti kimi yeni ixtisaslara böyük tələbat yaranıb”.

A.Əlili xüsusi qeyd edib ki, əmək bazarının tələblərinə uyğun kadr hazırlığından danışırıqsa, hər bir istehsal subyektinin yanaşmalarını əsas götürməliyik: “Sahibkarların necə kadrlara ehtiyacı var və həmin kadrları hazırlamaq üçün hansı imkanlara malikik? Bu baxımdan işəgötürənlərlə peşə təhsili müəssisələrinin birbaşa əlaqəli fəaliyyəti çox önəmlidir. Əks halda, diplomlu işsizlərin sayı arta bilər”.

# Direktor vəzifəsinə işə qəbul üzrə müsabiqə qaydaları dəyişdi

## Namizədin vakansiyaları qeyd edərkən izlədiyi ardıcıllıq nəzərə alınmayacaq

⇦ Əvvəli səh.1

Ruhiyyə DAŞSALAHLI

### Kimlər iştirak edə bilər?

Təsdiq edilən qaydalara görə, müsabiqədə pedaqoji və ya idarəetmə ixtisas sahələri üzrə ali təhsili, 5 ildən az olmayaraq pedaqoji stajı olan və hazırda ümumi təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan şəxslər iştirak edə bilərlər. Təhsilin təşkili və idarə olunması ixtisası üzrə elmi dərəcəsi və elmi adı olduqda 3 illik təcrübə ilə də direktorluğa namizəd olmaq mümkündür.

E.Bağırov qeyd edib ki, direktorların işə qəbulu üzrə müsabiqədə ikili format tətbiq olunur. Belə ki, Bakı şəhərində direktor vəzifəsinə keçirilən müsabiqədə iştirak etmək üçün namizədlər ilk növbədə müvafiq ali təhsil müəssisələrində təşkil edilən xüsusi təlimlərdən keçməlidirlər. Maliyyə, statistika, əmək və təhsil qanunvericiliyinə aid mövzuları əhatə edən təlimlərdən keçənlər Bakı şəhərindəki ümumi təhsil müəssisələrinə direktor vəzifəsinə namizədliyini verirlər. Müsabiqənin elektron ərizə qəbulu, test, vakansiya seçimi və müsahibə mərhələsində uğurla iştirak edənlər Bakı şəhərində yerləşən ümumtəhsil müəssisələrində direktor vəzifəsinə təyin oluna bilərlər. Digər rayon və şəhərlərdə təlimlər təşkil olunmur.

### Elektron ərizə qəbulu

Direktorların işə qəbulu müsabiqəsinin 2018-ci ilin oktyabr-dekabr aylarında keçirilməsi planlaşdırılır. Bu günlərdə müsabiqənin başlanılması ilə bağlı Nazirliyin saytında elan veriləcək. Müsabiqə üçün ayrıca rəsmi internet səhifəsi yaradılacaq. Namizədlər həmin səhifə vasitəsi ilə elektron qaydada qeydiyyatdan keçəcək və elektron ərizəsinin sonunda elan edilən vakant yerlərdən 4 yer qeyd edə biləcəklər. Ancaq yerləşdirmə zamanı namizədin şansı 4-dən çox olacaq. E.Bağırov bunu qaydalarda edilən dəyişikliklə əlaqələndirib: "Namizəd elektron ərizəsində vakant yerləri seçdiyi vaxtdan müsahibəyə gəldiyi vaxtadək kifayət qədər müddət keçir. Həmin müddət ərzində əlavə vakant yerlər yaranır. Yəni, namizədin elektron ərizə ilə müraciət etdikdən sonrakı dövrdə həmin ərazidə yaranan yeni vakant yerlər barədə nazirlikdə məlumat olur və direktorluğa namizədə həmin yerlər də təklif edilə bilər".

Bu şansların heç biri reallaşmadığı təqdirdə isə proses köhnə qaydada davam edir. Belə ki, müsabiqənin bütün mərhələlərini uğurla başa vuran, ancaq yekunda seçdiyi vakant yerlərə yerləşdirilməyənlər ehtiyat kadr siyahısına daxil olur. Test imtahanı mərhələsində əldə etdiyi nəticələri 2 il qüvvədə olan namizədə bu müddət ərzində yeni yaranan vakant yerlər də təklif oluna bilər: "Ehtiyat kadr siyahısında olanlar indiyədək ya yerləşdirilib, ya da onlara təklif olunan yerlərdən imtina ediblər. Odur ki, hazırda ehtiyat kadr siyahısında təyinatını gözləyən namizəd yoxdur. Həmin siyahıda olan və təklif edilən yerlərdən imtina edənlər müsabiqəyə yenidən qatılmalıdırlar".



### Vakansiya seçimi - üstünlük yerli sakinlərə verilir

Namizəd vakansiya seçərkən özünün işlədiyi təhsil müəssisəsinin yerləşdiyi rayon üzrə vakant yerləri seçə bilər. Bəs, müsabiqə komissiyası qərar verərkən üstünlüyü kimə verir?

E.Bağırov bildirib ki, direktor idarəetmə işi ilə məşğul olduğundan onun nüfuzu olmalıdır: "Rayonda və kollektivdə, ictimaiyyət tərəfindən tanınmalıdır. Yerli təhsili idarəetmə orqanının nümayəndəsinin müsahibə komissiyasında iştirakı da bununla əlaqədardır. Kollektiv direktorluğa təyin olunan şəxsi tanımayanda da problemlərə gətirib çıxarır. Ona görə də direktor təyin olunan zaman üstünlük məktəbin yerləşdiyi rayonun və ya kəndin sakinlərinə verilir".

### Namizədlərdən rəy tələb edilməyəcək

Müsabiqənin test imtahanı mərhələsində dəyişiklik yoxdur. Namizədlərə 60 sual təqdim olunacaq. Test sualları əmək, təhsil qanunvericiliyi, idarəetmə və məntiqdən salınacaq. Ancaq yenilik test mərhələsinə buraxılma şərtindədir: "Əvvəlki illərdə test imtahanına müvafiq yerli təhsil şöbələrindən öz fəaliyyəti ilə bağlı müsbət rəy alan namizədlər buraxılırdı. Bu da bir çox hallarda narazılıqlara səbəb olurdu. Namizədlər həmin rəyləri mübahisələndirirdilər. Yerli təhsili idarəetmə orqanlarına, nazirliyə müraciət edirdilər. Bu cür xoşagəlməz halların qarşısının alınması məqsədi ilə bu ildən ali təhsilli, 5 illik pedaqoji təcrübəsi ümumi təhsil müəssisəsində pedaqoji fəaliyyətlə məşğul olan istənilən şəxsin müsabiqədə iştirakına məhdudiyyət qoyulmayacaq. Yerli təhsili idarəetmə orqanlarının nümayəndələri müsahibə komissiyasında təmsil olunacaqlar və öz rəylərini məhz həmin mərhələdə verə biləcəklər".

### Keçid balı 40 faiz müəyyənləşdirilib

Test imtahanı mərhələsində rayonlar üzrə keçid balı 40 faiz müəyyənləşdirilib. E.Bağırov deyib ki, 40 faiz nəticə göstərənlər növbəti mərhələyə buraxılacaqlar. Bakı şəhərində yerləşən orta təhsil müəssisələrinin direktoru vəzifəsi üzrə müsabiqəni davam etdirə bilmək üçün lazım olan keçid balı isə cari vəziyyətdə vakant yerlərin sayına və müsabiqə iştirakçılarının nəticələrinə əsasən müəyyənləşəcək: " Minimum 40 faizlik həddi Bakı məktəblərinə direktor vəzifəsi üçün də keçərlidir. Namizədlərin sayı çox, nəticələri yüksək ola bilər. Odur ki, Bakı üçün keçid balı müsabiqə şəraitində formalaşacaq və Nazirlik tərəfindən tənzimlənəcək".

Yekun - müsahibə mərhələsində namizədlərin bilik və bacarıqları 5 ballıq şkala ilə qiymətləndiriləcək: "Namizəd müsahibəyə dəvət olunanda təhsil sənədi, ixtisas uyğunluğu, pedaqoji fəaliyyəti, təcrübəsi yoxlanılacaq və sonra müsahibəyə buraxılacaq. Müsahibə mərhələsində idarəetmə bacarığı, ümumi dünyagörüşü, peşəkar kompetensiyaları və digər zəruri meyarlar qiymətləndiriləcək və yerləşdirməni komissiya aparacaq. Yəni, bu il tətbiq edilən yeniliyə əsasən, namizədin hansı vakant yerə yerləşdirilməsi müsabiqə komissiyası tərəfindən tənzimlənəcək: "Namizədin vakansiyaları qeyd edərkən izlədiyi ardıcıllıq nəzərə alınmayacaq. Nümayiş etdirdiyi peşəkarlıq səviyyəsi, bilik və bacarığına əsasən onun hansı məktəbdə işləyə biləcəyinə komissiya qərar verəcək. Çünki məktəblər şəraiti, mühiti, şagird sayı, kollektivi baxımından müxtəlif olduğundan namizədin hansı məktəbdə işləyə biləcəyinə komissiyanın qərar verməsi daha ədalətli hesab edilib".

### 800-ə yaxın məktəb direktoru müsabiqə yolu ilə seçilib

E.Bağırov qeyd edib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda əsas strateji hədəflərdən biri də təhsildə nəticələrə görə şəffaf və səmərəli tənzimləmə mexanizminə malik yeni idarəetmə sisteminin formalaşdırılmasıdır. Bu istiqamətin icrası üzrə 2014-cü ildən başlayaraq ölkə üzrə ümumtəhsil müəssisələrinin vakant olan direktor vəzifələrinə işə qəbul mərkəzləşdirilmiş qaydada həyata keçirilir: "İndiyədək 800-ə yaxın məktəb direktoru müsabiqə yolu ilə seçilib. Onlardan 700-dək namizəd regionlarda yerləşən ümumtəhsil məktəblərinə, 130 nəfərə yaxın namizəd isə Bakı şəhəri üzrə məktəblərə yerləşdirilib".

# Məktəbəhazırlıq qruplarında "Sağlam təhsil"

## Layihənin əhatəliliyi genişlənib

⇦ Əvvəli səh.1

R.HÜSEYNOVA

Onur Quluzadə məktəbə gələndə "Səhər idi deyəsən", - deyir. Əslində, onların dərsi əqrəblər günorta saat 2-ni göstərəndə başlayır.

### Məktəbəhazırlıq qrupunda dərs

Hər yarım saatdan bir 10 dəqiqəlik tənəffüs edirlər. 1, 2, 4 və 5-ci günlər dərsə gəlirlər. Məktəbi də sevirlər, müəllimlərini də, bir-birilərini də. Dediklərinə görə, heç dalaşmırlar.

Kiçik, sevimli məktəblilər bir-birləri ilə yarışırlar. Deyəcəkləri sözü - əşyanın, heyvanın adını demədən öncə ətraflarında onu axtarırlar. "Ə" hərfinin iştirakı ilə yaranan bir söz demək üçün ətraflarına baxır, axtardıqları əşyanı tapır, sonra adını deyirlər. Əllərinə götürdükləri oyuncaqlar, əşyalar nəinki əllərindən, bəzən boylarından da böyük olur.

### Yeni standartlar uşaqların fiziki cəhətdən sağlam böyüməsinə şərait yaradacaq

"Sağlam təhsil-sağlam millət" layihəsi artıq 5 ildir ibtidai təhsil pilləsində həyata keçirilir. Bu ildən isə ilk dəfə olaraq məktəbəhazırlıq qruplarında da tətbiq edilir. Beş yaşlı uşaqların tələb və imkanlarını nəzərə almaqla onların fiziki inkişafı, təlim və təhsili prosesinin təşkili məqsədi ilə reallaşdırılan bu yeniliyin müsbət nəticə verəcəyi şübhə doğurmur. İbtidai sinif müəllimi Sevinc Həşimovanın sözlərinə görə, məktəbəhazırlıq qruplarında yeni standartla təhsil uşaqların fiziki cəhətdən sağlam böyüməsinə şərait yaradacaq. Sevinc müəllim qrupunda olan 24 nəfər beş yaşlı şagirdinin məktəbə adaptasiyasının da asan keçdiyini vurğulayıb: "Burada, fikir verirsinizsə, dərs prosesi elə qurulub ki, uşaqların hərəkətliliyinə mane olmur, onların tam sərbəstliyinə şərait yaradırıq. Gah oturur, tez-tez qalxır, əylənir və öyrənirlər".





Sevinc Həşimova bu sinifdə dərs deyə bilmək üçün təlimlərə qatılıb və "Sağlam təhsil" siniflərində dərs deməyə hazır hesab ediləndən sonra dərsə başlayıb.

### 15 məktəbdə 21 qrup

Beləliklə, bu il oktyabrın 1-dən etibarən "Sağlam təhsil-sağlam millət" layihəsinin həyata keçirildiyi 15 məktəbdə 21 məktəbəhazırlıq qrupu dərsə başlayıb. Həmin qruplardan 3-ü 26 nömrəli tam orta məktəbdədir.

26 nömrəli tam orta məktəbin direktor əvəzi Yaqut Məmmədova deyib ki, məktəbdə 9 məktəbəhazırlıq qrupu açılıb. Ümumiyyətlə, məktəbdə ibtidai təhsil pilləsində "Sağlam təhsil - sağlam millət" layihəsi üzrə 11 sinifdə 228 şagird təhsil alır.

### 4 ilin sonunda nəticə tam arzuolunan kimidir

"Sağlam təhsil - sağlam millət" layihəsində tibbi gigiyena blokunun eksperti Şəhla Balayeva deyib ki, layihənin təşəbbüskarı olan Təhsil Nazirliyinin əsas məqsədi uşaqların sağlamlığıdır. Dünyada da bu problem yaşanır və məktəbi bitirənlərin cəmi 5-15 faizi tam sağlam olurlar: "Sağlam təhsil şəraiti yaratmaq üçün ilk növbədə hipodinamiya aradan qaldırılmalı idi. Odur ki, ayaqüstü partalar təklif edildi. Bu, onların hərəkətliliyini təmin edəcək. Partanın mailik dərəcəsi isə şagirdlərdə görmə pozuntusunun qarşısını almağa xidmət edir. Bu və başqa amillər nəzərə alınaraq, belə siniflər yaradıldı. Sinfin divarları, tavanı, işıqlandırması məhz şagirdlərin sağlamlığına hesablandı. 4 ilin sonunda nəticə tam arzuolunan kimidir. Odur ki, bu ildən qərar verildi ki, layihə məktəbəhazırlıq qruplarında da tətbiq edilsin. Ümid edirəm ki, bunun da müsbət nəticəsi olacaq".

### "Sağlam təhsil" sinfinin şagirdləri

"Sağlam təhsil - sağlam millət" layihəsində sosioloji blokun rəhbəri Nigar Şahhüseynbəyova bildirib ki, keçirilən müxtəlif tədbirlərlə şagirdlərin sosiallaşmasını izləyirlər. Yaradıcılıq potensialının üzə çıxarılması üçün rəsm və əl işləri müsabiqələri keçirilir. Belə tədbirlər nəticəsində uşaqlarda məsuliyyət, məqsədyönlülük formalaşır, kommunikasiya bacarıqları kimi vacib kompetensiyalara yiyələnirlər. İbtidai təhsil pilləsini bitirəndə uşaqlar öz fikirlərini daha yaxşı ifadə edir, daha təşəbbüskar olur, öz imkanlarını daha yaxşı ortaya qoya bilirlər. Təqdimat bacarıqları ənənəvi sinifdə təhsil alan yaşıdlarından daha yüksək səviyyədə olur".

### "Siniflərimiz və şagirdlərimizlə bağlı fikirlər çox yüksəkdir"

İbtidai təhsil pilləsi üzrə reallaşdırılan "Sağlam təhsil - sağlam millət" layihəsi 26 nömrəli məktəbdə layihənin başladığı ilk gündən, artıq 5-ci ildir ki, həyata keçirilir. Ötən il ilk buraxılışı reallaşan layihənin şagirdləri artıq 5-ci sinifdə oxuyurlar.

Layihə üzrə metodist Xalidə Həmidova bildirib ki, ötən 4 il ərzində hər ay bir neçə dəfə məktəblərdə olub, müəllimlərə pedaqoji kömək göstəriblər: "Həm müəllimlərlə, həm də valideynlərlə müzakirələr keçiririk. Siniflərimiz və şagirdlərimizlə bağlı fikirlər çox yüksəkdir. Hər kəs "Sağlam təhsil" siniflərinin təhsilin digər pillələrində və bütün şagirdlərə tətbiqini arzulayır. Ümid edirəm ki, bu arzular reallaşacaq".



### 39 məktəbdə 182 "Sağlam təhsil" sinfi

Qeyd edək ki, "Sağlam təhsil-sağlam millət" layihəsi çərçivəsində ümumilikdə 39 məktəbdə 182 "Sağlam təhsil" sinfi təşkil edilib. "Sağlam təhsil" siniflərində tədris hərəkətli təlim şəraitində həyata keçirilir. Şagird masaları həm oturaraq, həm də ayaqüstə çalışmaq imkanı verir. "Sağlam təhsil" siniflərində aparılan tibbi monitorinq bu siniflərdə tətbiq edilən texnologiyaların uşaqların sağlamlığına müsbət təsir etdiyini aşkara çıxarıb. Eyni zamanda, belə siniflərdə təhsil alan şagirdlərin fiziki və intellektual cəhətdən daha yaxşı inkişaf etdiyi, onların öyrənmə qabiliyyətinin, habelə emosional-psixoloji durumunun yüksəldiyi müəyyən edilib.

Qeyd edək ki, "Sağlam təhsil-sağlam millət" layihəsinin tətbiqinə 2014-2015-ci dərs ilindən başlanılıb. Layihənin əsas məqsədi təhsilalanların təlim nailiyyətlərini yüksəltməklə yanaşı, tədris şəraitindən irəli gələn hərəkət məhdudiyyətini və digər amilləri aradan qaldırmaq, onların sağlamlığını qorumaqdan ibarətdir. İndiyədək layihə 3500-ə qədər məktəblini əhatə edib.












# Lənkəran Dövlət Universiteti böyük hədəfə doğru

## Burada tədrislə yanaşı, sosial mühit və şərait də müasir standartlara uyğunlaşdırılır

Ruhiyyə DAŞSALAHLI

Hələ tədris ili başlamadan, ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticəsi olaraq açıqlanan rəqəmlərdən belə görünürdü ki, ölkəmizin ayrı-ayrı bölgələrindəki ali təhsil müəssisələrinin nüfuzu yüksəlib. Həmin məlumatlara əsaslansaq, ali təhsil müəssisələrinə qəbul imtahanlarında 500-dən, hətta 600-dən artıq bal toplayanlar arasında Lənkəran Dövlət Universitetini (LDU) seçənlərin sayı 2 dəfəyədək artıb. Təbii ki, ardıcıl olaraq bir neçə ildir ki, yüksələn xətt üzrə davam edən bu artımın mütləq bir səbəbi var. Həmin səbəbdən doğan maraq “Azərbaycan müəllimi”nin yolunu Lənkərana saldı.

### Kadr islahatı ilə başlayan inkişaf

1991-ci ildən fəaliyyət göstərsə də, indiyədək nəinki ölkədə, hətta regionda belə ali təhsil müəssisəsi kimi tanınmayıb, universitet gözündə görülməyib. Bəs, indi nə oldu ki, Azərbaycanın hər yerindən onu seçirlər?

Təhsil müəssisələrindəki inkişaf birdən-birə qeydə alınan sıçrayış deyil, həyata keçirilən islahatların məntiqi nəticəsi kimi dəyərləndirilir. Elə Lənkəran Dövlət Universitetinin nümunəsində də belədir. Hər şey 2016-cı ildə həyata keçirilən kadr islahatı ilə başlayıb. O gündən, yəni riyaziyyat üzrə elmlər doktoru, professor Natiq İbrahimov rektor vəzifəsini icra etməyə başlayandan keçən müddətdə Lənkəran Dövlət Universitetində görülən işlər bu təhsil müəssisəsini böyük hədəfə doğru aparır.

Böyük hədəf nədir? Təhsilinin keyfiyyətinə görə üstünlüyünü göstərmək. Ən müasir universitet tələblərinə cavab vermək və nüfuzlu ali təhsil müəssisələrindən birinə çevrilmək. Bəlkə bu hədəfə gedən yolun Lənkəran Dövlət Universiteti üçün uzun olacağını düşünürsünüz? Amma bu, heç də belə deyil. Hədəfə gedən yolun əvvəlində olsalar da, qərarlı görünürlər. Artıq Lənkəran Dövlət Universitetində tədris də, sosial mühit də, şərait də Avropa standartlarına uyğunlaşdırılır. Qapısından içəri atılan ilk addımdaca “universitet ab-havası” hiss olunur.

### Lənkəran Dövlət Universitetində tədris

Universitetdə təhsil ildən-ilə müasirləşdirilir. Ən müasir proqramlarla dərs keçilir. Rektor vəzifəsini icra edən Natiq İbrahimov “Azərbaycan müəllimi”nə deyib ki, universitetdə işə məhz buradan başlayıb: “Rektor vəzifəsinin icrasına başlayanda öyrəndim ki, Lənkəran Dövlət Universiteti 15 il geri qalıb. Təsəvvür edin ki, dərslər 15 ildən qalan tədris planı ilə keçilirdi. Yeni standartlar bu universitetə hələ gəlib çatmamışdı. Tədris proqramı dəyişdirilərək müasir proqramlara uyğunlaşdırılıb.Tyutor xidmətinin nə olduğunu bilmirdilər. Bakıdan mütəxəssis çağırıb kurslar təşkil etdik. 2 aylıq kurs nəticəsində sertifikat alanlar işə götürüldü. Artıq universitetin tyutor xidməti qurulub, elektron sistemə keçilib və bütün sessiyanın nəticələrini olduğun yerdən, bura gəlmədən izləmək mümkündür”.

Natiq İbrahimovun fikrincə, tələbələr də vəziyyətdən razıdır: “Doğrudur, yuxarı kurs tələbələri arasında yeni qaydalardan narazılar da tapılır. Başqa cür qiymət almağa alışdıqlarından şəffaflıq və obyektivlik onların bəzilərinin ürəyincə deyil. Ancaq nə qədər narazı olsalar da, universitetin fərqini anlayırlar”.

Narazılığın yaranması isə imtahan sisteminin dəyişdirilməsi ilə bağlıdır. İmtahanlar tamamilə şəffaflaşdırılıb və İctimai Şuranın nəzarəti altında keçirilir. Bu da ənənəvi üsulla qiymət alanların narazılığına səbəb olur. Ancaq beləlerinin sayı çox deyil: “Bir neçə tələbəmiz başqa universitetlərə köçürülmüşdü. Həmin tələbələrdən 4 nəfəri bu il geri qayıtdı. Universitetimizdə ölkənin hər yerindən, hətta xaricdən tələbələr oxuyur”.

### Yeni ixtisaslar, yeni laboratoriyalar

LDU-da 3447 tələbə təhsil alır. Burada 27 ixtisas üzrə bakalavr, 19 ixtisas üzrə magistr hazırlığı həyata keçirilir. 2017-2018-ci tədris ilindən 12 ixtisas üzrə doktorantura və dissertantura pillələrində təhsil də təşkil olunub. Ölkə Prezidentinin sərəncamı ilə LDU-ya aqrar və kənd təsərrüfatı ixtisasları da verilib. Həmin ixtisaslar üzrə təhsilin təşkilini səmərəliləşdirmək məqsədi ilə Rusiya istehsalı olan cərrahiyyə kabineti alınıb. 4 yeni laboratoriya qurulub. İki “Baytarlıq”, “Qida məhsulları texnologiyası”, “Qida təhlükəsizliyi və ekologiyası” laboratoriyaları İngiltərə, Amerika, Çin, Rusiya istehsalı olan cihazlarla təchiz olunub.

Natiq İbrahimov vurğulayıb ki, müəllim hazırlığının keyfiyyətini artırmaq məqsədi ilə laboratoriyaların təşkilinə təyin olunduğu ilk gündən xüsusi diqqət yetirir: “İki laboratoriyanı vəzifəyə başlayan kimi qurdurduq. Hesab edirəm ki, laboratoriya müəllim hazırlığında çox önəmlidir. Universitetimizdə olan kimya və biologiya üzrə laboratoriyalar ölkəmizdəki heç bir ali təhsil müəssisəsində yoxdur. Artıq 2 ildir tələbələr həmin laboratoriyalarda təcrübə aparırlar”.

“Baytarlıq cərrahiyyəsi”, “Aqrokimya” və “Torpaqşünaslıq” laboratoriyaları isə tezliklə gətiriləcək.

Baytarlıq laboratoriyasının müdiri Azər Cəlalovun sözlərinə görə, baytarlıq ixtisası üzrə hazırlığa da yeni başlanılıb, laboratoriya da yeni qurulub. Yeni ixtisasa hazırlıq ən müasir tələblər səviyyəsində həyata keçiriləcək. Analitik tərəzi, bioloji təhlükəsizlik dolabı, bufer sobası, mikroskoplar istifadəyə hazırdır. 2018-2019-cu tədris ilindən fəaliyyətə başlayan bu laboratoriyada tələbələr tədqiqat da apara biləcəklər. Laboratoriyada işləyə bilmək üçün aparatları quraşdıran mütəxəssislər universitetin müəllimləri üçün treyninq keçiblər. Odur ki, müəllimlər də tələbələrinə laboratoriyada iş zamanı kömək etməyə tam hazır sayıla bilərlər.

Gələcəkdə laboratoriyaların universitetə gəlir gətirəcəyi də şübhə doğurmur. Məsələn, “Qida mühəndisliyi” laboratoriyasına qidanın tərkibini müəyyən etmək üçün bütün cihazlar gətirilib. 1-ci kurslar ikinci semestrdən başlayaraq laboratoriyadan istifadə edəcəklər: “Yuxarı kurslarda təhsil alan tələbələrimiz bu laboratoriyadan artıq istifadə edirlər. Doktorantura pilləsində bütün tələbələrimizin ən çox işlədiyi otaq bu olacaq. Laboratoriyada azot birləşmələrini, nitratın miqdarını müəyyənləşdirmək, ya da modifikasiya olunmuş məhsulu ayırd etmək çətinlik törətməyəcək”.

Aqrar və mühəndislik fakültəsinin dekanı, dosent Balayar Şahbazov deyib ki, baytarlıq, aqronomluq, torpaqşünaslıq, qida mühəndisliyi üzrə təhsil alan tələbələrin istifadə edəcəyi bu laboratoriya nəzəri biliklərin təcrübədə tətbiqini öyrətmək baxımından universitet üçün çox böyük əhəmiyyət daşıyır. Magistrlər, həmçinin doktorantlar da laboratoriyalardan istifadə edəcəklər. Laboratoriya onların tədqiqat işini maksimum səmərəli apara bilməsinə kömək edəcək.

Lənkəran Dövlət Universitetinin əvvəllər qurulan, sonradan yenilənən kompüter, kimya və biologiya laboratoriyaları da tələbələrin istifadəsindədir.

### Tədris-təcrübə sahəsi

Nəzəri biliklərin təcrübədə tətbiqi sadəcə laboratoriya şəraitində gerçəkləşdirilmir. Lənkəran Dövlət Universiteti tələbələrinin ixtiyarına tədris-təcrübə sahəsi də verib. Aqronomluq və torpaqşünaslıq, o cümlədən meşəçilik ixtisası üzrə təhsil alan tələbələri tədris-təcrübə sahəsində tez-tez görmək olar. Dəmirağacı parkı, limon, portağal, kinkan ağaclarının yetişdirildiyi istixana, istixanadan aralıda, açıq 30 sot ərazidə feyxua bağı, kivi bağı, çay sahəsi də tələbələrin əlinin işi, əməyinin nəticəsidir. Limon, portağal, mandarin istixanadan kənarda, açıq havada da əkilib. İstixana isə 4 ildir qurulub. Hələlik böyük həcmdə məhsul verməsə də, tələbələrin təcrübə qazanmasında faydalıdır. Tədris-təcrübə sahəsində bostan bitkiləri də var. Qarpız, yemiş artıq “soyusa” da, balqabaqların barı hələ üstündədir.

Yardımçı təsərrüfatın fəhlələri var, ancaq burada əsas işi tələbələr görür. Suvarma damcı üsulu ilə aparılır.

Aqrar və torpaqşünaslıq ixtisası yeni olduğundan hələlik yardımçı təsərrüfatın yaradılması mümkün olmayıb. Ancaq 5 hektar torpaq sahəsi alınıb və abadlıq işlərinə başlanılıb. Natiq İbrahimovun sözlərinə görə, burada kənd təsərrüfatı bitkiləri əkiləcək: “Kartof əkməyi planlaşdırırıq. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) təbeliyində “ABAD” (Ailə Biznesinə Asan Dəstək) mərkəzi tələbələrimizin əkdiyi kartofun hamısını alacaq. Bu barədə onlarla müqavilə bağlamağa hazırlaşırıq. Əldə etdiyimiz razılaşmaya görə, toxumu da onlar verəcək, məhsulu da onlar götürəcək”.

Bir sözlə, LDU-da tələbələrə torpaqdan səmərəli istifadə etməyi öyrədirlər. Burada çalışırlar ki, tələbələr bitkiyə lazım olan qida elementlərini çatdırmaqla məhsuldarlığı artırsın, məhsulun keyfiyyətini yüksəltsinlər. Məlum məsələdir, universitet tələbəsi məhsulun keyfiyyətini artırmağı öyrəndisə, deməli, universitetin “məhsulu”nun - yetişdirdiyi kadrların da keyfiyyəti yüksələcək.

Yeri gəlmişkən, Lənkəran Dövlət Universitetində tələbələrin əlinin bəhrəsinin saxlandığı ayrıca otaq da var. Tələbələrin yetişdirdiyi məhsuldan nümunələrin saxlanıldığı həmin otağın da qapısı açıldı “Azərbaycan müəllimi”nin üzünə. Buğda, arpa, soğan toxumu, sarımsaq... Nə yoxdur ki?

### “Seaside”

Lənkəran Dövlət Universiteti ilə tanışlıq əsnasında təəccübləndirən bir çox detallar oldu. Onlardan biri də LDU-ya aid olan “Seaside”dır. Palıd meşəsinin qırağında 1 hektar ərazidə tikilən “Seaside” LDU-nun həm qonaq evi, həm də tələbələrinin təcrübə sahələrindən biridir. Dənizlə arasında cəmi 200 metr məsafə olan ikimərtəbəli bina turizm obyekti kimi istənilən şəxsə xidmətə hazırdır. Yetər ki, qapısını döyən olsun. Ancaq respublika və beynəlxalq miqyaslı hər hansı tədbir keçirilərsə, universitet üstünlüyü öz qonaqlarını yerləşdirməyə verər və yalnız bu halda kimisə “Seaside”ın qapısından geri qaytara bilərlər. Qalan vaxtlarda qonaqlar tələbə xidməti görər, istər açıq havada, istərsə də yeməkxanada yemək yeyər, birinci mərtəbədə 5, ikinci mərtəbədə yerləşən 8 otaqdan birini seçib dincələ bilər. Otağının pəncərəsinin dənizə, yoxsa palıd meşəsinə açılacağına isə özü qərar verər.

Təsərrüfat işləri və iqtisadi məsələlər üzrə prorektor vəzifəsini icra edən Azər Əliyevin sözlərinə görə, hələlik məşhurlaşmasa da, belə bir məkan heç yerdə yoxdur: “Ancaq hələlik tam gücü ilə işləmir. Universitet xeyrinə qazanc gətirmir. Çalışırıq ki, buna nail olaq. Nəzərdə tutmuşuq ki, müdirindən və təmizlik işçilərindən savayı bütün işləri tələbələr görsün. Otelin müdiri Əhməd də tələbələrdən yaşca fərqlənmir. Cavan da olsa, bu sahədə peşəkardır”.

Bir sözlə, LDU tələbələri qonaq olub-olmamasından asılı olmayaraq, hər gün buraya gəlirlər. Qida mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələr yemək bişirməyi, turizm üzrə təhsil alanlar isə ixtisasları üzrə xidmətləri öyrənirlər.

### Yüksək ballı abituriyentlərin seçimi

Natiq İbrahimov “Keyfiyyətdə əsas nəticəmiz 4 il sonra biləcək”, - desə də, universitetin seçilənlərdən olması görülən işlərin artıq nəticə verməyə başlamasının göstəricisi sayıla bilər. Demək, Lənkəran Dövlət Universitetinin keyfiyyət göstəriciləri yüksəldikcə reytinqi də qalxır. Yüksək reytinq isə böyük seçim deməkdir. Ən yaxşılar - yüksək bal toplayan abituriyentlər tərəfindən seçilməkdir. Özü də seçənlər bilik və bacarıqlarında özünə güvənən, sərbəst qərarlar verən bir nəslin nümayəndələridir. Bir universitet üçün yüksək balla gələn tələbə kadr hazırlığında az zəhmətlə yüksək nəticə deməkdir.

### “Heç tərəddüd etmədən Lənkəran Dövlət Universitetinin adını qeyd etdim”

Aynur Əliyeva universitetə bu sahədə başucalığı gətirəcək tələbələrdən biridir. Orta məktəbi Masallının Kosakül kəndində oxuyub. 645 balla Lənkəran Dövlət Universitetinə daxil olub: “Məndən əvvəl dayım da bu universitetdə oxuyub. Universitet, burada təhsil barədə məlumatlı idim. Ancaq son dəyişiklikləri də izləyirdik.

*(Davamı səhifə 7-də)*

*(Əvvəli səhifə 6-da)*

Odur ki, təhsil almaq istədiyim universitetlərin siyahısını hazırlayarkən heç tərəddüd etmədən Lənkəran Dövlət Universitetinin də adını qeyd etdim. Təhsil başlayandan xeyli vaxt keçib. Bütün müəllimlərimizin dərsini dinləmişik. Azərbaycan tarixini bizə tədris edən Həşim Kəlbiyev və Azərbaycan nitq mədəniyyətindən dərs deyən Əlirza Əliyevin hər dərsini səbirsizliklə gözləyirəm”.

O, universitetin “Oxu zalı”nın da fəal istifadəçilərindəndir. Buradakı şəraitdən çox razıdır. Təhsilini magistratura pilləsində davam etdirməyi düşünür.

## “Özümə də, universitetə də güvənirəm!”

Aynurun qrup yoldaşı Leyla Heydərova 611 bal toplayaraq tarix müəllimliyi ixtisası üzrə təhsil alır: “Ailəmə, evimə yaxın olan, üstəlik, keyfiyyətli təhsil verən bir universitet kimi Lənkəran Dövlət Universitetini seçdim”.

Leylanın bacısı da LDU-nu seçəcək? Tərəddüd etmədən cavab verir: “Yaxşı oxusun, gəlsin!”.

Əminliklə deyir ki, bu universitetdə təhsil ala bilmək üçün yaxşı oxumaq, qəbul imtahanlarına qətiyyətlə hazırlaşmaq lazımdır: “Düşünürəm ki, müəllimlik gələcək nəslin, ən əsası, sağlam, bacarıqlı insanların yetişməsi üçün çox vacib peşədir. Bu prosesdə mən də iştirak etmək istəyirəm. Mən də insan, şəxsiyyət yetişdirmək istəyirəm. Məncə, bunu bacararam. Bu peşəyə layiq olduğumu düşünürəm. Bunu tam orta təhsil pilləsinin sonunda əldə etdiyim nəticələrlə təsdiq etdiyim kimi, ali təhsil pilləsini uğurla başa vuraraq da sübut edəcəyəm. Bu universiteti bitirəndə savadlı, bacarıqlı, Azərbaycan məktəbinə layiqli bir müəllim olacağıma şübhəm yoxdur. Çünki özümə də, təhsil almaqda olduğum universitetə də güvənirəm!”.

## “Layiq olduğum qiymətləri alacağıma şübhəm yoxdur”

Süsən Quliyeva isə Lənkəranın Ləj kəndindəndir. Bu il onun bitirdiyi kənd məktəbinin 9 məzunu olub. Dediyinə görə, əvvəlki illərlə müqayisədə məktəbin tələbə adı qazanan məzunlarının sayı bu il daha çox olub. Onların arasında qızlar üstünlük təşkil edib: “Lənkəran Dövlət Universitetini seçdim. “Yüksək balla niyə Lənkəran?”, - deyənlər çox oldu. Ancaq fikrimcə, bu universiteti seçməmək üçün heç bir səbəbim yox idi. Burada da təhsilin keyfiyyəti yüksəlir. Bu barədə rayonumuzda hamı bilir. Dəyişiklikləri maraqla izləyirlər. Keyfiyyətdən danışarkən müəllim amili mənim üçün çox önəmlidir. Müəllimlərin peşəkarlığının artırılması, ya da keyfiyyətin artmağında xidməti ola biləcəyini düşündükləri müəllimlərin universitetə dəvət edilməsi barədə də xəbərdar idim. Ən əsası, rüşvətin qarşısının alınması istiqamətində tədbirlər görüldüyündən hamı danışırdı. Hələ ki, peşman deyiləm. İmtahanlar başlayanda eşitdiklərimi həm də görmək imkanım olacaq. Görəcəyimə inanıram. Çünki bütün müəllimlərin dərsində iştirak etmişəm. Kimya müəllimi Gülbəniz müəllimdən, botanika müəllimi Gülçin müəllimdən çox xoşum gəlir. Obyektiv şəraitdə imtahan verəcəyimə və layiq olduğum qiymətləri alacağıma şübhəm yoxdur”.

Süsən gələcəyə dair böyük planlar qurur. Universiteti bitirəcək, sonra təhsilini davam etdirəcək: “Hədəfim odur ki, növbəti təhsil pilləsini xaricdə oxuyum. Müəllim olacağam. Yaşar müəllim kimi müəllim olmaq istəyirəm. Orta məktəbdə biologiyadan mənə dərs deyən həmin müəllimim kimi peşəkar olmaq üçün çox çalışmalıyam”.

## Köhnə sinif otağında müasir müəllim

Gördüyümüz kimi, müəllim təhsilin keyfiyyətində mühüm amil olduğu kimi, tələbələr üçün də əhəmiyyətlidir. Çox vaxt onların nəinki fənnə, ixtisasa, hətta peşəyə münasibətində məhz müəlliminə nə dərəcədə isinişməsi həlledici olur.

Rastımıza çıxan auditoriyalardan birinə daxil oluruq. Müasir standartlarda auditoriya deyil, adi sinif otağıdır. Hər halda tədris proqramını yenicə müasirləşdirmiş bir universitetdə bu, heç də təəccüblü deyil.

Yeri gəlmişkən, qeyd edək ki, universitetdə müasir auditoriyalar yaxın müddətə hazır olacaq. Nəzərə alsaq ki, növbəti tədris ilində LDU-nun 2 yeni korpusu istifadəyə veriləcək, onda tələbələrin ən müasir auditoriyalarda təhsil alacağı günün o qədər də uzaq olmadığı təsəvvür etmək çətin olmaz.

İndi Aynur Rzayevanın dərsindəyik. O, gənc olsa da, artıq baş müəllimdir. Dərsi I kurslardadır. İngilis dilini öyrətməyə aşağı səviyyədən başlayıb. Tələbələrinin ingiliscə biliyindən razı deyil. Ancaq öyrənəcəklərinə əmindir. Çünki özünə güvənir: “Hələlik yenidirlər. Dərs ili cəmi bir aydır başlayıb. Universitetdə təhsil almağın məsuliyyətini hiss edirlər. Dili öyrənməyə maraq göstərirlər. Bu da o deməkdir ki, onlara verilən təhsilin mütləq nəticəsi olacaq”.

## Müəllimlər üçün xidməti mənzillər

Ümumiyyətlə, Lənkəran Dövlət Universitetində müəllim amilinə xüsusi diqqət yetirilir. Müəllimlərin gənc, çevik, müasir tələbələrlə ayaqlaşa biləninə üstünlük verilir. Elə bunun nəticəsidir ki, rəhbərlikdə təmsil olunanlar da gənclərdir. Natiq İbrahimovun sözlərinə görə, ölkə universitetlərində ən gənc - 33 yaşlı prorektor məhz Lənkəran Dövlət Universitetindədir.

LDU-da müəllimə olan tələbat da artıq ödənilib: “Bu tələbatı ödəmək üçün Bakıdan müəllim dəvət etdik. Onlara yüksək əməkhaqqı təyin olundu. Ümumiyyətlə, LDU-da maaş yüksəkdir. Müqayisə üçün deyim ki, universitetimizdə müəllimlərin maaşı 600 manatdan başlayır, Bakıdakı universitetlərdə isə 400 manatdan. Akademiyada çalışaraq 450 manat əməkhaqqı alan dosentə 1000 manat təklif edən kimi qəbul etdi. Əslən bu regiondan olan müəllimləri daimi əsaslarla işə götürdük. Bu yolla universitetin müəllimə olan ehtiyacını ödədik”.

Əslən regiondan olsalar da, burada yaşayacaq evi olmayanlar nəzərə alınıb. Həmin müəllimlərin Lənkəranda yaşamasını təmin etmək üçün mənzillər də hazırlanıb: “Respublikada yeganə ali məktəbdir ki, dəvət olunan professor-müəllim heyəti üçün Avropa standartlarına uyğun müasir tipli 6 xidməti mənzil inşa edilib. Hər mənzilin 2 otağı, mətbəxi, hamamı var”.

LDU-nun 2 saylı tədris korpusunun ərazisində inşa olunan həmin mənzillərdən birinin qonağıyıq. Ev sahibi, LDU-nun müəllimi Ülviyyə Mirzəyeva Bakı Slavyan Universitetinin doktorantıdır. Rus dilinin tədrisi metodikası ixtisası üzrə təhsilini davam etdirir: “Bakıda 1 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzində çalışırdım. Konfransda iştirak etmək üçün LDU-ya gəlmişdim. Burada müəllimlər üçün yaradılan şəraiti gördükdən sonra qalıb işləmək istədim. Müraciətim müsbət dəyərləndirildi və bir müddət mütəxəssis kimi fəaliyyət göstərdim. Artıq Beynəlxalq əməkdaşlıq şöbəsində müdir müaviniyəm. Buraya anamla gəldim. Boş vaxtlarımızda məşğul olmağımız üçün mənzillərimizin qarşısında kiçik torpaq sahəsi də ayrılıb. Ancaq torpaqla məşğul olmağa vaxt tapmıram. Burada yaradılan şəraitdən, mühitdən çox razıyam”.

Lənkərana dəvət edilən müəllimlər üçün LDU-nun tələbə qızlar yataqxanasında da mənzillər ayrılıb.

## Tələbələr üçün yataqxanalar

Bəli, məhz yataqxanalar.

LDU sadəcə müəllimlərin deyil, elə tələbələrinin də qayğısına qalır. Tələbə qızlar üçün şəhərin ən yaxşı yerində 50 nəfərlik bir yataqxana binası hazırda istifadədir. Həmin binada qızlar yaşayır. Yataqxana üçün avtobus belə ayrılıb. Tələbə qızlar dərsə həmin avtobusla gəlir. Bu, onların dərsə gecikməsinin qarşısını almaq üçün düşünülüb.

Növbəti tədris ilinə daha bir yataqxana istifadəyə veriləcək. Tikintisinə yenicə başlanan yataqxana binası oğlanlar üçün nəzərdə tutulub. 60 nəfərlik bu yataqxananın tikildiyi ərazidə Lənkəran Dövlət Universiteti üçün bir korpus da tikilir. Qeyd edək ki, hazırda LDU-nun birinci korpusuna əlavə olaraq yeni binanın da tikintisi davam edir. Bu ilin dekabrınadək həmin korpus istifadəyə veriləcək.

## Bu universitetin mühiti də fərqlənəcək

Tədris çox önəmlidir. Ancaq onun aparıldığı mühit də tədrisdən az əhəmiyyət kəsb etmir. Axı, yetişdirilən kadrların verilən bilik və bacarıqları necə mənimsəməsi mühitdən çox asılıdır. Deməli, təhsilin keyfiyyətinin artırılmasında mühit elə tədris qədər əhəmiyyətlidir. Bunu nəzərə alan rektor əvəzi Natiq İbrahimov sözügedən amilə xüsusi diqqət yetirdiyini deyir: “Korpuslarımız, yeməkxanamız, müəllimlər üçün evlərimiz, tələbələrimizin yaşadığı yataqxanalarımız var. Düşündüyüm tələbə dünyasını qurmağa çalışıram. Universitetə daxil olan tələbə bu mühitdə ona lazım olan hər şeyi tapmalıdır. Yataqxanası, yeməkxanası, oxu zalı, hətta gecə-gündüz yanında olan müəllimi. Kafemiz var. Tələbələrimiz yorulanda, boş vaxtlarında yeməkxanamızın xidmətindən istifadə edirlər. Sadəcə tələbələr deyil, elə biz müəllimlər də. Dəfələrlə onlarla çay içmişəm, söhbət etmişəm, birgə vaxt keçirmişəm. Düzdür, bu mühitə hələlik bəzi müəllimlərimiz alışa bilmir. Tələbələrimizlə eyni vaxtda, eyni yerdə oturub çay içməyin kompleksini hiss edirlər. Ancaq düşünürəm ki, yavaş-yavaş onlar da bu komplekslərini aşacaqlar. Ancaq mənimlə də, prorektor İdrak müəllimlə də tələbələrimiz heç bir narahatlıq yaşamır. İstənilən vaxt yaxınlaşa, maraqlandıqları məsələ ilə bağlı danışa bilirlər”.

Bir sözlə, Azərbaycanda qurulmaqda olan bu universitetin mühiti də fərqlənəcək. Elə bir mühit yaranacaq ki, bu, tələbə ilə müəllimin işləməsi üçün də əlverişli olacaq.

## Tarixə ekskursiya

Lənkəran Dövlət Universitetində Tarix Muzeyi də var. Müasir mühitdən xəbərdar olan tələbə gənclər üçün keçmişi də əyani görmək çətin deyil.

Leyla Məcidova tarix üzrə fəlsəfə doktorudur. 24 ildən artıqdır ki, LDU-da çalışır. Tarix müəllimi olan babasının şəxsi kolleksiyasından muzey təşkil edib. Burada nə yoxdur ki?

Mezolit dövrünə aid qədim təbii daşlardan xırda bəzək əşyaları diqqətimizi çəkir. Həmin əşyalar 1978-ci il professor Əsədulla Cəfərov tərəfindən tədqiq olunan, Lerik rayonunda yerləşən mağarada tapılıb.

Leyla Məcidova orta əsrlərə aid boyalı qablar mədəniyyətindən, ilk - kömür ütülərindən danışır. İlk saxsı çıraqlar, XIX əsrə aid lampalar, XIX əsrə aid Mir Möhsün Nəvvabın şəxsi güldanları, Mir Haşım Talışlının Masallıda qoz ağacından düzəldilən və artıq 100 il tamam olan beşiyi, Lənkəran xanının xanımı Tuqra xanımın güzgüsü, əl dəyirmanı, talış zənbilləri, yun əyirmək üçün cəhrə və talış etnoqrafiyasına aid bir çox nümunələr barədə birnəfəsə danışaraq, muzeydəki hər eksponat barədə bacardıqca daha çox məlumat verməyə təlsir. XII əsrə aid olan pullara çatanda onu necə xilas etdiklərini xatırladır: “Mis pullar Kəsranilər dövrünə aiddir. Bəlləbir qalasından tapılan həmin pulları fəhlələr satırdı. Natiq müəllimin dəstəyi ilə universitetimiz aldı. Muzeyimizdə hər dövrə aid nümunə var. Erkən tunc dövründən başlayaraq yeni dövrə qədər nümunələrlə zənginləşdirmişik”.

## Bu il LDU-nun kadrlarına tələbat daha da artıb

Ot kökü üstündə bitən kimi, bu universitetin məzunları da tarixi keçmişinə bağlı bir şəkildə yetişdirilərək ixtisasının peşəkarına çevrilir. Bunun da nəticəsi əmək bazarında kadrlarına artan tələbatda özünü göstərir.

İnsan resursları və kargüzarlıq şöbəsinin müdiri Allahşükür Quliyevin sözlərinə görə, Lənkəran Dövlət Universitetini pedaqoji ixtisaslar üzrə bitirən məzunlardan 2016-cı ildə müəllimlərin işə qəbulu müsabiqəsində 43 nəfər, 2017-ci ildə 28 nəfər işlə təmin olunub.

Həmçinin Lənkəran Dövlət Universiteti və Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə ənənəvi keçirilən “Məzun yarmarkası”nda rayon məşğulluq idarəsinin və işəgötürən təşkilatların təmsilçilərinin iştirakı ilə məzunların işlə təmin olunmasında mühüm işlər görülüb. Belə ki, 2017-ci ildə keçirilən məzun yarmarkasında işəgötürənlər tərəfindən 140, 2018-ci ildə isə 250 vakant yer təklif olunub və universitetin məzunları həmin vakant yerlərə işə qəbul olunublar. Bundan əlavə, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Lənkəran Regional bölməsində builki məzunlardan 6 nəfər işə götürülüb. Keçənilki məzunlardan 6 nəfər Ekologiya və Təbii Sərvətlər şöbəsində işlə təmin olunub.

İşlə təmin olunan məzunlardan əsasən istehsalat, maliyyə və sığorta, aqrar sahənin inkişafı və pedaqoji fəaliyyətlə məşğul olanlar üstünlük təşkil edib.

Universitetin məzunlarının işlə təmin olunması məsələsi ilə bağlı Tədrisin təşkili və təlim texnologiyaları mərkəzində “Təcrübə, potensial inkişaf və karyera” bölməsi yaradılıb. Bölmə tərəfindən məzunlarla daimi əlaqələr qurulur və onların iş fəaliyyəti, karyera inkişafı ilə bağlı məlumatlar toplanılıb analiz olunur. Bölgədə yerləşən dövlət və özəl müəssisə, təşkilatlarda mövcud olan vakant yerlərlə bağlı onlara məlumat verilir, işlə təmin olunması istiqamətində mümkün olan kömək göstərilir.

Lənkəran Dövlət Universiteti yetirmələri ilə öyünə bilər. Sadəcə, pedaqoji deyil, aqrar, iqtisadiyyat, biznes sahələri üçün kadr hazırlayan LDU bu vəzifəsinin öhdəsindən gəlir. Artıq bir çox iş yerləri də bunun fərqindədir. Elə bunun nəticəsidir ki, bu il universitetin kadrlarına tələbat daha da artıb. Nəinki regionda, elə ölkə səviyyəsində LDU yetirmələrinin işlə təminatında ürəkaçan məqamlar var.

Natiq müəllim deyir ki, elə universitetdə də vəzifə və elm pilləsində yüksələnlər, dekan vəzifəsində çalışan, fəlsəfə doktoru olan LDU məzunları var.

Bütün bu göstəricilərin, inkişafın isə bir izahı var: Bu inkişaf “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın qəbulundan ötən müddət ərzində ölkəmizin təhsil sistemində aparılan islahatların, davamlı tədbirlərin nəticəsidir.











# Təlim nailiyyətlərinin yaxşılaşdırılmasında sinifdənxaric tədbirlərin rolu

## Hər şagirdin yaşına, dünyagörüşünə uyğun, arzu və marağı nəzərə almaqla tədbirləri müəyyənləşdirirəm



**Nəzakət ƏHMƏDOVA,**
*Xaçmaz rayon, Xudat şəhər N.Nərimanov adına 2 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

**Gənc nəslin savadlı, bilikli, vətənpərvər, zəngin dünyagörüşlü olmasını məhz bu günün novator müəllimi təmin edir. Bunun üçün mən pedaqoji fəaliyyətin imkanlarından maksimum yararlanır, elmi-texniki nailiyyətləri izləyir, hərtərəfli inkişaf etmiş vətəndaş yetişdirmək üçün müxtəlif səmərəli yollar axtarır, onları işimə tətbiq edirəm.**

Proqramın mövzularını həyatla əlaqələndirir və hər şagirdin yaşına, dünyagörüşünə uyğun, onların arzu və maraqları nəzərə alınmaqla sinifdənxaric və məktəbdənkənar tədbirləri müəyyənləşdirirəm.

Apardığım fəaliyyət prosesində kiçikyaşlı məktəblilərdə əxlaqi və mənəvi keyfiyyətlərin formalaşdırılmasına nail ola bilmişəm. Bu sahədə sinifdənxaric və məktəbdənkənar tədbirlərin rolu əvəzolunmazdır. Tədbirlər sistemində aşağıdakı vasitələrdən geniş istifadə edirəm:

a) Kiçikyaşlı məktəblilərlə aparılan hərbi-vətənprvərlik tədbirləri;
b) Milli Qəhrəmanlar, Qarabağ müharibəsinin iştirakçıları və şəhid ailələri ilə keçirilən tədbirlər;
c) Müxtəlif mövzularda: mənəvi-əxlaqi, milli dəyərlərimizə, mənəviyyatımıza əsaslanan tədbirlər, tarixi günlər və bayramlarla əlaqədar aparılan söhbətlər, disputlar, ekskursiyalar və s.

Kiçik yaşlılarla aparılan hər bir sinifdənxaric və məktəbdənkənar tədbir onların ideya-siyasi, mənəvi tərbiyəsinin səviyyəsini daim yüksəldir. Bu sahədə gördüyüm işlər, həmkarlarımla bölüşmək və ibtidai sinif müəllimlərinə kömək məqsədi ilə "Müəllim günü" , "Müstəqilliyimiz əbədidir", "Bayraq günü", "20 Yanvar hüzn günü", "Xocalı soyqırımı", "Beynəlxalq ana dili günü", "Respublika günü" və s. aid hazırladığım ssenarilər mətbuatda dərc olunub.

Sinifdənxaric tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsində məktəbimizdə yaratdığım və 35 ildən çox fəaliyyət göstərən "N.Nərimanov xatirə muzeyi"nin rolu əvəzsizdir. Muzey Bakıdakı ev-muzeyinin filialı kimi fəaliyyət göstərir. Burada nümayiş olunan 4 minə yaxın eksponat içərisində vaxtilə N.Nərimanovun adını daşıyan təhsil ocaqlarında oxumuş və Böyük Vətən müharibəsində (1941-1945) həlak olmuş həmyerlilərimizin, əfsanəvi "Luçano" ləqəbli "Mixaylo" ilə partizan hərəkatında iştirak etmiş M.Xəlilovun, N.Nərimanovun yeganə oğlu Nəcəfin döyüşlərdə qəhrəmanlıqla həlak olub uyuduğu Ukraynanın Donetsk vilayətindəki məzarlıqdan göndərilmiş torpaq və fotosənədlərin, N.Nərimanovun şimalli çekist dostu Sergey İqnatyevin oğlu Nəriman Sergeyeviç İqnatyevin məktubları, Qarabağ döyüşlərində iştirak etmiş və Xocalı soyqırımını çəkərək hamıya çatdıran Milli Qəhrəman Ç.Mustafayevə aid fotosənədlər, Milli Qəhrəman Mübariz İbrahimova və məktəbimizin 12 şəhid məzununa həsr olunmuş fotostendlər kiçikyaşlı məktəblilərin təlim keyfiyyətlərinin yaxşılaşdırılmasında mühüm rol oynayır. Haqqında verdiyim məlumatlardan və apardıqları araşdırmalardan öyrənirlər ki, Azərbaycan xalqının fenomen oğullarından olan N.Nərimanovun böyük xidmətlərindən biri də məhz iki məşhur generalımız Ə.Şıxlinski, S.b.Mehmandarovun və dahi bəstəkarımız Ü.Hacıbəylinin adlarını onların məhvi üçün Moskvaya göndərilən siyahıdan çıxarılmasına nail olmasıdır. Rusların Zaqafqaziyanın işğalından sonra Naxçıvanski soyadını qəbul edən Kəngərlilər nəsli Azərbaycanın hərb tarixinə beş general verib: Ehsan xan, İsmayıl xan, Kəlbalı xan, Hüseyn xan və Cəmşid xan Naxçıvanskilər. Bu nəsil Azərbaycanın hərb tarixində Qacarlardan sonra ən çox general yetişdirən nəsildir. Köhnə rus ordusunda tam süvari generalı rütbəsini alan və "Ağ qartal" kimi ali ordenlə təltif olunan 2-ci azərbaycanlı hərbiçi Hüseyn Naxçıvanski olub. İlk hərbiçi isə azərbaycanlı vitse-admiral İbrahim Allahverdibəyov (1888), 1915-ci ildə isə artilleriya generalı Səməd bəy Mehmandarov olub. Məktəblilərə hərb tariximiz haqda məlumatların verilməsindən sonra muzey xətti ilə onların Bakıya ekskursiyasını təşkil etdim. Məktəblilər Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin "Hərbi vətənpərvərlik" redaksiyasının əməkdaşları ilə görüşüb, şəhidlərin həyətdəki abidəsi önünə tər çiçəklər qoyublar. Sonra isə Vətən torpaqları üçün canından keçən qəhrəmanları tərənnüm edən şeirlər söyləyib, xatirə şəkilləri çəkdiriblər.

Şəhidlər xiyabanını ziyarət edən məktəblilər dərsliklərdə haqlarında məlumatlar yer almış Milli Qəhrəmanlarımız, iki dəfə Sovet İttifaqı Qəhrəmanı general Həzi Aslanovun və türk əsgərlərinin xatirəsinə ucaldılan abidələrin də önünə tər çiçəklər qoyublar. Onlar tədbirlərdən aldıqları təəssüratları yazdıqları inşalarda, hazırladıqları fotostendlərdə, divar qəzetlərində əks etdiriblər.

Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində məktəb muzeyimiz daim silsilə tədbirlər həyata keçirir. Milli Qəhrəman Mübariz İbrahimova həsr olunmuş tədbirdə məktəblimiz onun qəhrəmanlığına, döyüş şücaətinə həsr etdiyi şeirində düşmənə nifrət hissini obrazlı şəkildə belə ifadə etmişdi:

*Kimdir o, cəlladların üstünə qartal kimi şığıyan?*
*Kimdir o, cihadıyla Şəhidliyin zirvəsinə ucalan?*
*Mübarizdir, Mübarizdir, Mübariz!..*
*O mənfur düşmənləri kaş ki, bu əllərimlə özüm boğa biləydim....*

Tədbirdə məktəblilərimiz Ş.Əlizamanlının ən çox sevdikləri hərbi mahnıları da ifa etmişlər.

İstər tədris prosesində, istərsə də sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkilində muzey materiallarından istifadə edir, muzey dərsləri keçirirəm. Hərbi-idman oyunlarına da geniş yer veririk.

Ümumiyyətlə, Milli Ordumuza, Vətənə həsr olunmuş materiallardan istifadə etmək, şeirlər, mahnılar, rəsm müsabiqələri keçirməklə yanaşı ekskursiyaların, görüşlərin təşkili də kiçik yaşlarından başlayaraq şagirdlərdə vətəndaşlıq qüruru, tolerantlıq, milli-mənəvi dəyərlərə hörmət hissi aşılayır ki, bu da onların möhkəm xarakterli, savadlı, bilikli, yüksək əqidəli, doğma Vətənin əsl müdafiəçisi kimi yetişmələrini təmin edir.

Yeri gəlmişkən qeyd edək ki, hazırda hərbi sahədə çalışanların arasında məktəbimizin də yetirmələri ildən-ilə çoxalır.

Ümummilli lider Heydər Əliyev demişdir: "Vətəndaş" sözü böyük, müqəddəs sözdür. "Vətəndaş" sözü o deməkdir ki, hər bir vətəndaş öz vətəninə sadiq olmalıdır, onu göz bəbəyi kimi qorumalıdır və Vətəni uğrunda, torpağı uğrunda, ata-anasının müdafiəsi yolunda şəhid olmağa hazır olmalıdır. "Vətəndaş" sözünün mənası bax budur!".

Yeri gəlmişkən onu da qeyd edim ki, ulu öndərimizin anım və doğum günlərində rayonumuzun və şəhərimizin Heydər Əliyev muzeylərində keçirilən tədbirlərdə şagirdlərim fəal iştirak edirlər. Onların Fəxri xiyabana ziyarətlərini də təşkil etmişəm, məktəblilər ulu öndərin və oftalmoloq alim, akademik Zərifə Əliyevanın məzarları önünə tər çiçəklər qoyublar. Fəxri xiyabanda olarkən şagirdlərim müxtəlif sahələrin görkəmli şəxsiyyətlərin xatirələrini də yad ediblər. Onu da qeyd edim ki, keçirilən tədbirlərdə fəal iştirakıma və muzeyimizin Təhsil Nazirliyi tərəfindən "İlin muzeyi" adına layiq görülməsinə görə Fəxri fərmanlarla təltif olunmuşam. Görülən işlər və keçirilən tədbirlər mütəmadi olaraq radio və televiziyada işıqlandırılıb.

Bu günün vətəndaşlarına - Həzi və Mehdilərə, Çingiz və Təbrizlərə, Əlif və Mübarizlərə məktəbdə hələ ibtidai siniflərdə ilkin anlayışlar verilir, keçirilən əməli tədbirlər nəticəsində cəsurluq, Vətən yolunda mübarizlik onların əqidəsinə çevrilir və nəhayət, hər bir məktəblidə əsl vətəndaşlıq, vətənpərvərlik hissləri formalaşır. Deməli, tədris prosesində tərbiyə üç cəhəti təşkil edir: 1.Bilik. 2. Biliyin inama çevrilməsi. 3.İnamın davranışa çevrilərək vətəndaşın formalaşması. Şagirdlərin hərtərəfli inkişafında tərbiyənin təlimə təsiri əsas amillərdən biridir. Odur ki, sinifdənxaric və məktəbdənkənar tədbirlər məqsədyönlü, şagirdyönlü, planauyğun, şagirdlərin yaş xüsusiyyətləri, arzu və istəkləri nəzərə alınmaqla təşkil olunmalıdır. Bu zaman yerli materiallardan istifadə olunmaqla, yerli şəraitə uyğun nəyi, nə vaxt, harada, necə, kimlərlə, təşkil etmək əvvəlcədən planlaşdırılmalıdır. Məsələn, mən Ü.Hacıbəylinin, N.Nərimanovun, S.Vurğunun, H.Cavidin, C.Cabbarlının və başqalarının yubileyləri ilə bağlı tədbirlərimizi onların ev-muzeylərinə ekskursiyalar təşkil etməklə keçirirəm. Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adma Dilçilik İnstitutunda, ADPU-nun pedaqogika kafedrasında, "Respublika" qəzetinin redaksiyasında və s. yerlərdə görkəmli alimlərlə görüşlər təşkil etmişik. Eyni zamanda şagirdlərimlə hər il aprelin 14-ə kimi Nərimanov həftəsi keçiririk. Həftəiçi şagirdlərin əl işlərindən ibarət rəsm sərgisi, N.Nərimanova həsr olunmuş şeir müsabiqəsi, inşa yazılar və məktəbin həyətində iməciliklər təşkil edirik. Həftə sonu buraya Bakıdakı ev-muzeyinin əməkdaşlarını, Nərimanovşünas alimləri, N.Nərimanovun qohumlarını da dəvət edirəm. Muzeyin xətti ilə fəaliyyət göstərən "Vətənpərvərlər" dərnəyinin rəhbəri kimi şagirdlərimin sinifdənxaric və məktəbdənkənar tədbirlərdə iştirakını daim təmin edirəm.

Tanınmış ziyalılarla, xüsusən Nərimanovşünas alimlərlə məktəbimizdə və məktəbdənkənar keçirilmiş geniş tədbirlər, görüşlər, ekskursiyalar uzun müddət məktəblilərin xatirində silinməz izlər qoyub. Görkəmli pedaqoq B.A.Suxomlinski demişdir: "Uşağın mənəvi aləmi yalnız və yalnız o zaman dolğun ola bilər ki, o, oyun, nağıl, musiqi, fantaziya, yaradıcılıq dünyasında yaşasın. Bunsuz o, qurumuş ağaca bənzəyir". Əlbəttə, sinifdənxaric və məktəbdənkənar tədbirlər müxtəlifliyi, rəngarəngliyi, zənginliyi ilə uşaqların diqqətini cəlb edir və elmə, biliyə maraq oyatmaqla onların layiqli vətəndaş kimi formalaşmasında zəruri rol oynayır.

# Humanitar təmayüllü şagirdlərdə texniki fənlərə maraq yaradan layihə

**Gülgəz AĞAYEVA,**
*Bakı şəhər humanitar təmayüllü məktəb-liseyin riyaziyyat müəllimi*

Müəllifi olduğum "Humanitar təmayüllü şagirdlərdə texniki fənlərə marağın artırılması" adlı layihə Bakı şəhər humanitar təmayüllü məktəb-liseyin riyaziyyat müəllimi kimi mənim hazırladığım və "Təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsi" çərçivəsində fəqdi kateqoriya üzrə qalib gələn layihələrdən biridir. Məqsədim humanitar təmayüllü liseyimizdə texniki potensialı və istedadı olan şagırdləri aşkar edib, bu sahədə biliklərini sistemləşdirərək fənn olimpiadalarında iştirakını təmin etmək və beləliklə də təhsildə inkişafa dəstək verməkdir. Layihə sentyabrın 3-dən icra olunmağa başlayıb. Həmin tarixdə məktəbimizdə təşkil etdiyimiz, rəhbərliyin və çoxsaylı qonaqların da iştirak etdiyi geniş açılış tədbiri ilə layihənin işinə start verdik. Sentyabr ayında formalaşdırdığımız işçi qrup hazırlıq işlərini həyata keçirdi, ekspertlər dəvət olundu, seçim turu keçirilərək məşğələlərə cəlb olunacaq şagirdlər müəyyənləşdirildi və intensiv məşğələlərə başlandı. Hazırda məşğələlərimiz və digər müvafiq tədbirlərimiz davam edir. Artıq əməyimizin ilk bəhrələrini görürük. Belə ki, layihəyə cəlb etdiyimiz şagirdlərdən biri sentyabrın 22-də məktəblərarası riyaziyyat olimpiadasında yüksək nəticə göstərərək qalib olub. Onu da qeyd edim ki, məktəbimizin digər müəllimləri də layihənin işində həvəslə iştirak edirlər. Şagirdlərin fizika, kimya və riyaziyyat fənlərinə marağını artırmaq üçün həmkarlarımla müvafiq tədbirlər həyata keçiririk. Layihəmiz davam edir, inanırıq ki, uğurlarımız daha çox olacaq.

# "Məntiqi tapşırıqlara dair xüsusi vəsait"

## İstedad axtarışında məktəblərə yardımçı olacaq kitab hazırlanır



**"Təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsi" çərçivəsində fərdi kateqoriya üzrə həyata keçirilən "Məntiqi tapşırıqlara dair xüsusi vəsait" layihəsində məqsəd xüsusi istedadlı şagirdlər liseyində "Məntiq" kursunu tədris edən müəllimlər və kursu öyrənən şagirdlər üçün zəruri vəsaitin hazırlanmasına nail olmaqdır. Bu vəsaitin hazırlanması təhsilimizdə "Məntiq" xüsusi kursunun tədrisindəki dərslik problemini qismən də olsa həll etməyə xidmət edir. İnanırıq ki, Təhsil Nazirliyinin maliyyə dəstəyi ilə həyata keçirilən bu layihə çərçivəsində hazırlanan vəsait istedadlı uşaqların axtarışında mühüm rol oynaya biləcək. Vəsait, əsasən, xüsusi istedadlı şagirdlər liseylərini əhatə edir, lakin ondan məntiqlə maraqlanan digər şagirdlər də istifadə edə bilərlər.**

Layihənin rəhbəri Şirvan şəhər 1 nömrəli tam orta məktəb-xüsusi istedadlı şagirdlər liseyinin hərbi rəhbəri, liseydə tədris olunan "Məntiq" kursunun müəllimi, Əməkdar müəllim Rəfail Əliyevdir.

İyunun 20-dən başlanan layihənin icra müddəti üç aydır.

Layihə konkret olaraq Şirvan şəhər 1 nömrəli tam orta məktəbdə fəaliyyən göstərən istedadlı şagirdlər liseylərində həyata keçiriləcək. Layihənin əsas iştirakçıları liseyə bu il qəbul olunmuş V sinif şagirdləridir. Layihənin sonunda bu sinifdə təhsil alan 25 şagird həmin vəsaitlə təmin olunacaq. 200 nüsxə çap olunacaq vəsaitin 20 ədədi yekun mərhələsinin konfrans-təqdimat mərasiminin iştirakçılarına-məktəblərin nümayəndələrinə paylanacaq. Vəsaitin qalan nüsxələri növbəti dərs illərində 3-4 il ərzində burada təhsil alacaq V sinif şagirdlərinin istifadəsinə veriləcək. Respublikada fəaliyyət göstərən digər liseylərə də məlumat göndəriləcək. Həmin məktəblərin nümayəndələri də öz arzuları ilə bu vəsaitdən yararlana bilərlər.

Layihə "İstedadlı uşaqların aşkar edilməsində xüsusi vəsaitlərin rolu və əhəmiyyəti" mövzusunda elmi-praktik konfrans və vəsaitin təqdimat mərasimi ilə yekunlaşacaq. Tədbir layihənin həyata keçirildiyi Şirvan şəhər 1 nömrəli tam orta məktəbdə noyabrın 16-da keçiriləcək.

Layihənin icrasına 20 iyun 2018-ci il tarixdə start verilib. İlk öncə hazırlanacaq vəsaitin planlaşdırılması həyata keçirilib, zəruri ədəbiyyat araşdırılıb. Sonra vəsaitin əlyazması üzərində iş aparılıb, sentyabrdan vəsaitin mətninin kompüterdə yığılmasına başlanılıb. Hazırda bu iş başa çatmaqdadır. Vəsaitin dizaynı başa çatdıqdan sonra redaktə olunmaq üçün Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinə təqdim olunacaq və çapa hazırlanacaq.

# "Yeniliklərə imza atmaq istəyirəm"

## Böyük Britaniyanın Edinburq Universitetinin tələbəsi Günel Ağabəyli: "Gələcəyin zavodları üçün yeni sistem dizaynı üzərində çalışıram"

**Oruc MUSTAFAYEV**



**Tanıtım.** *Günel Bəhram qızı Ağabəyli 1990-cı ildə Bakı şəhərində anadan olub. 2008-ci ildə Nizami Nərimanov adına 248 nömrəli tam orta məktəbi və eyni ildə L.M.Rostropoviçlər adına 21 nömrəli 11 illik musiqi məktəbini bitirib. 2013-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının tətbiqi kimya fakültəsində təhsilini başa vurub. Təhsil aldığı müddətdə bir çox yay təcrübə proqramlarında və konfranslarda istirak edib. 2012-ci ildə ilk elmi tezisi "Kimya və kimya texnologiyaları: yeniliklər və perspektivlər" konfransında dərc olunub. 2012-2015-ci illərdə akademik Yusif Məmmədəliyev adına Kimya Prosesləri İnstitutunda elmi işçi vəzifəsində və Xəzər Mühəndisliyi Birliyində könüllü kimi fəaliyyət göstərib. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 2015-2016-cı illərdə Böyük Britaniyanın Birmingem Universitetində kimya mühəndisliyi üzrə magistr təhsili alıb. 2016-cı ildə universitetin mühəndis tələbəsi kimi "Shell 360" ideya yarışmasının yarımfinalçısı olub. Təhsilini başa vurduqdan sonra vətənə qayıdıb və 2016-cı ilin noyabrından Bakı Mühəndislik Universitetinin kimya kafedrasında tədqiqat köməkçisi və tədris məsləhətçisi kimi fəaliyyət göstərməyə başlayıb. 2017-ci ildə kafedra rəhbəri Yusif Abdullayevin rəhbərliyi ilə BMU-da yerləşən Texnoparkın təşkil etdiyi "Yeni Fikir 2017" və Azərbaycanda ilk dəfə keçirilən "Climate Launchpad 2017"nin Azərbaycan üzrə qaliblərindən biri olub. Həmin ilin oktyabr ayında Cənubi Kiprdə keçirilən Qlobal Dünya finalında çıxış edib. Azərbaycan komandası 964 ideyanın təqdim olunduğu final müsabiqəsində 35 ölkədən 105 startup arasında ən yaxşı 15 startupdan biri olub. 2017-ci ilin iyul ayından elektrik və elektronika mühəndisliyi ixtisası üzrə Edinburq Universitetinin "Enerji sistemləri " bölümünün doktoranturasına qəbul olaraq tam təqaüdə layiq görülüb. 2017-ci ildən həmin bölümdə seminar və laboratoriya dərsləri üzrə müəllimlik edir, bölümüm həm də tələbə gənclər təşkilatının rəhbəridir.*

Azərbaycanın istedadlı gənclərinin dünyanın nüfuzlu universitetlərindən gələn xoş sorağı hər birimiz üçün sevindiricidir. Reytinqli universitetlərdə təhsil alan və akademik fəaliyyətlər göstərən, elmi tədqiqatları ilə uğurlu layihələrə imza atan gənclərimiz öz potensial imkanları ilə diqqət çəkir. Onlardan biri də haqqında bəhs etmək istədiyimiz Böyük Britaniyanın Edinburq Universitetinin tələbəsi Günel Ağabəylidir. Günel Şotlandiyanın bu nüfuzlu universitetində doktorantura təhsili alır, həm müəllimlik edir, həm də layihə rəhbəridir. Gəlin Güneli daha yaxından tanıyaq.

### "Məni 3-cü sinifdən 5-ci sinfə keçirmək istəyirdilər"

*- Orta məktəbdə daha çox hansı fənlərə maraq göstərirdiniz? Gələcəkdə hansı peşəyə yiyələnmək, hansı ixtisası seçmək barədə düşünürdünüz?*

- Məktəb illərində xüsusi diqqət ayırdığım hər hansı bir fənn olmayıb. Bütün fənləri eyni dərəcədə sevib oxumuşam. Amma texniki fənlərə, xüsusən də riyaziyyat fənninə daha çox vaxt ayırmağa çalışırdım. Hətta, xatırlayıram ki, ibtidai sinifdə oxuyarkən, xüsusi riyaziyyat savadıma görə məni 3-cü sinifdən 5-ci sinfə keçirmək istəyirdilər. Əfsuslar olsun ki, ibtidai sinif müəllimim Tamella xanıma olan sevgimə görə təhsilimi öz sinfimdə başa vurmalı oldum. Xatırlayıram, riyaziyyat müəllimim İradə Marifovna kitabı vaxtından əvvəl oxuyub bitirdiyimə görə mənə həmişə yuxarı siniflərdən əlavə tapşırıqlar verərdi. Kimya və fizika fənlərini keçməyə başladıqdan sonra bu marağım texniki fənlərə daha da artdı. Amma buna baxmayaraq, 10-cu sinfə kimi hər ixtisası demək olar ki, nəzərdən keçirmişdim. VIII sinifdə hüquqşünas, daha sonra həkim olmağı belə arzulayırdım. Amma seçimimi kimya ixtisasında saxladım. Anamın dediyinə görə, uşaqlıqdan kimya ilə bağlı uşaqlar üçün çoxsaylı verilişləri izləyirmişəm. Demək ki, seçimimi uşaq yaşlarından etmişəm.

**Avropada enerjinin effektiv saxlanılması və yenidən, lazım gəldikdə, istifadəsi üzrə tədqiqatlara ayrılan qrantlar digər qrantlardan 2 dəfə artıqdır. Mənim tədqiqat mövzum da bu problemin həlli yoluna, ən əsas da enerjinin saxlanılıb başqa bir qlobal problem olan karbon qazının azaldılması prosesinə yönəlib. Daha dəqiq desək, gələcəyin zavodları üçün yeni sistem dizaynı üzərində çalışıram. Bu dizayn özündə sistemin araşdırılması, prosesin simulyasiyası və optimallasdırılmasını cəmləşdirir. Artıq 2-ci kurs tələbəsi olaraq üzərimdə daha çox məsuliyyət hiss edirəm.**

### "Arzum İngiltərədə təhsil almaq olub"

*- Necə oldu ki, xaricdə təhsil almağa qərar verdiniz? Xaricdə təhsilin hansı üstünlükləri sizi cəlb etdi?*

- Qeyd etdiyim kimi, bakalavr təhsilimi M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında almışam. Bakı filialında oxuduğum zaman ali məktəbin giriş qapısından içəri girdiyimizdə hər bir tələbə sanki portal vasitəsilə xaricə keçid edirdi. Buna baxmayaraq, hələ məktəb illərindən arzum İngiltərədə təhsil almaq olub. O zamanlar müəllifi Verşagina olan ingilis dili kitabları var idi. Mən də məktəbdə seçmə sinifdə oxuduğum üçün bizə o kitabla ingilis dili tədris olunardı. Çox savadlı və sevimli ingilis dili müəllimim Elmira Mütəllimova bizə hətta əlavə dərslər keçər, maraqlı intellektual oyunlar ilə ingilis dilinə maraq oyadardı. Bu da məndə İngiltərəyə, onun tarixinə və oradakı təhsilə maraq oyatmışdı. Hələ ibtidai sinifdən valideynlərimə deyərmişəm ki, bir gün "Big Ben" (Londondakı qülləli saat) yerləşdiyi ölkədə təhsil alacağam. Xaricdə təhsilin üstünlükləri, ələlxüsus da, mühəndislik sahəsində daha çoxdur. Burada ən son yeniliklərdən xəbər tutmaq olur və gündəmdə olan problemlərin həllinə yönələn layihələrdə iştirak etmək imkanı qazanmış olursan.

### "Üzərimdə daha çox məsuliyyət hiss edirəm"

*- Hazırkı ali təhsil həyatınız barədə məlumat verərdiniz. Hansı ixtisas üzrə təhsil alır və hansı mövzularda tədqiqatlar aparırsınız?*

- Hazırda Edinburq Universitetində "Elektronika və elektrik" mühəndisliyi üzrə doktorantura təhsili alıram. Əslində bu proqram kimya mühəndisliyi ilə birləşmis bir proqramdır. Mənim tədqiqat mövzum bərpa olunan enerji mənbələrindən (külək və Günəş) alınan enerjinin ən effektiv yolla saxlanılması və yeni proseslərə tətbiqindən ibarətdir. Hazırda bütün dünyada mühəndislərin və şirkətlərin düşündüyü qlobal problemlərdən biri enerjinin effektiv saxlanılmasıdır. Çünki bildiyiniz kimi, Günəş və külək enerjisi hər fəsildə eyni miqdarda əldə edilmir. Bəzən küləyin gücü həddindən artıq olub ölkə enerjisinin yarısından çoxunu ödəyə bilir. Məsələn, Danimarkaya baxsaq, görərik ki, bu ölkə enerji tələbatının 50 faizini məhz külək və Günəş enerjisi ilə ödəyir. İngiltərə özü demək olar ki, bu enerji növünə tələbatının 18-25 faizini (rəqəm 2030-cu ilə kimi qalxacaq) bu enerji mənbələri ilə ödəyir. Bu sıralamaya İspaniyanı, Portuqaliyanı və İsveçi də əlavə etmək olar. Bəs, bu enerji mənbələrinin enerjisinin daimi olmayıb hava şəraitindən asılı olduğunu nəzərə alsaq, onda ölkənin tələbatı bərpa olunan enerji növündən necə asılı ola bilər ? Məhz bu səbəbdən Avropada enerjinin effektiv saxlanılması və yenidən, lazım gəldikdə, istifadəsi üzrə tədqiqatlara ayrılan qrantlar digər qrantlardan 2 dəfə artıqdır. Mənim tədqiqat mövzum da bu problemin həlli yoluna, ən əsas da enerjinin saxlanılıb başqa bir qlobal problem olan karbon qazının azaldılması prosesinə yönəlib. Daha dəqiq desək, gələcəyin zavodları üçün yeni sistem dizaynı üzərində çalışıram. Bu dizayn özündə sistemin araşdırılması, prosesin simulyasiyası və optimallasdırılmasını cəmləşdirir. Artıq 2-ci kurs tələbəsi olaraq üzərimdə daha çox məsuliyyət hiss edirəm.

### "Tələbələrin üzərində ciddi nəzarət olur"

*- Edinburqun təhsil və elmi mühiti barədə nə deyə bilərsiniz?*

- Artıq ikinci təhsilini İngiltərədə alan bir tələbə kimi deyə bilərəm ki, buradakı təhsil və elmi mühit digər Avropa ölkələrindən fərqlənir. Edinburq Universiteti Şotlandiyanın qədim və öndə gedən universitetidir. 2018-ci il QS reytinqinə görə dünya universitetləri arasında 18-ci yerdədir. Bu universitetin mühəndislik kafedrasında həyat tamam başqadır. Edinburq Universiteti ölkənin ən qədim ali məktəbi olduğu üçün burada ayrıca kafedralar yoxdur. Onun əvəzinə 7 mühəndislik institutu var ki, hər birində də hər sahədən olan mühəndislər cəmləşiblər. Mənim aid olduğum institut Enerji Sistemləri bölümüdür. Bu institut digər mühəndislik institutlarından həm müəllim, həm də doktorant tələbə sayına görə fərqlənir (nisbətdə daha çoxuq). Bundan əlavə, xırda klublar var ki, orada tələbələr artıq tədqiqat sahəsinə görə cəmləşir. Məsələn, külək enerjisi, enerji ehtiyatı və ya karbon ehtiyatı kimi kiçik tədqiqat klubları vardır. Mən həm enerji ehtiyatı, həm də karbon ehtiyatı klubuna daxiləm. Ayda bir dəfə klubların toplantıları olur. Kluba həm müəllim, həm də tələbələr cəmləşir. Hər ayda kluba və instituta təzə qoşulmuş doktorant tələbələr özlərinin təqdimatlarını edirlər. Digər tələbələr isə öz işlərindəki yeniliklərdən xəbər verirlər. Belə görüşmələr tələbələrdə həm çıxış etmə bacarığını artırır, həm də onlara müəllim heyətindən yeni fikir alıb işlərinə tamam başqa bucaq altında baxmağa şərait yaradır. Bundan başqa, hər mühəndislik institutunun özünün seminarlar təşkil edən komandası olur. Bu komandaların hamısının təşkilatçısı da məhz tələbələr özləri olurlar. Məsələn, mənim rəhbərlik etdiyim tələbə gənclər təşkilatı kimi. Edinburq Universitetində ən çox sevdiyim hallardan biri də odur ki, heç kəs öz postunda daimi deyil və vaxtdan asılı olaraq daim dəyişir. Məsələn, seminar komandası öz vəzifəsini gələn il üçün yeni qoşulan doktorantlara təhvil verib növbəti il üçün başqa vəzifələr götürəcək. Beləliklə, təhsil aldığı 3-4 il ərzində hər tələbə özünü müxtəlif sahələrdə yoxlayıb daha çox bacarıq əldə edir. Bu, həm də müəllim heyətinə aiddir. Bundan əlavə, doktorantların hər uğuru qiymətləndirilib universitet jurnalında paylaşılır. Tələbələrin üzərində ciddi nəzarət olur. Bunun ən yaxşı göstəricisi ali məktəbə qəbul olduqdan bitirənə kimi təhvil verməli olduğumuz hesabatlardır. Hər bir doktorant ilk təhsilə başladığı 2 ay ərzində (10 həftə ərzində) artıq bir il üçün hansı araşdırmanı edəcəyi haqqında məlumat verməlidir. Bu, bir az hər tələbəyə asan başa gəlmir. Çünki əgər layihə haqqında əvvəldən məlumatın varsa, nə edəcəyini əvvəldən düşünmüş tələbə bunu asanlıqla təhvil verir. Xeyr, əgər yeni mövzu seçmişsizsə, onda həmin 2 ay sizin üçün az da ola bilər. Bundan başqa, 6 aylıq, 1 illik, 2 illik, 3 illik hesabatlar məcburi sayılır. Beləliklə, hər bir müddətdən bir tələbənin aktivliyi yoxlanılır və müəllim heyəti tərəfindən məsləhətlər verilir. 3 illik hesabata əsasən tələbə təhsilini 3 ildə bitirə və ya 4-cü ilinə başlayıb daha çox eksperiment apara da bilər. Doktorantlara münasibət tamam başqadır. Bakalavriat və magistrantlardan fərqli olaraq, doktorant tələbələr daha çox universitetin akademik heyətinə cəlb edilir və daha çox faydalanma şansı olur. Sadəcə, bu şansların hamısından zamanında yararlanmaq lazımdır.

### "Ən çox qrantları mühəndislik bölümləri qazanır"

*- Sizi Britaniyada daha çox nə cəlb edir: yüksək akademik biliklər, yoxsa tədqiqatlar üçün geniş imkanlar?*

- Hər ikisi desəm, daha düzgün olar. Amma tədqiqata ayrılan imkanlar daha çoxdur. Zəif cəhəti odur ki, bu qrantlar daha çox İngiltərə və Avropa vətəndaşları üçün nəzərdə tutulur. Xarici tələbə olub və burada doktorantura təhsili imkanı qazanmaq çox çətindir. Düşünün ki, dünyanın hardasa 234 ölkəsi var, Avropa Birliyinə daxil olan və bəzi zəif inkişaf etmiş ölkələri çıxsaq, o zaman təqribən 150 ölkədən olan müxtəlif sayda müraciət edən əcnəbi tələbələrlə bir yer üstündə mübarizə aparırsan. Bu mübarizədə qalib olmaq artıq yolun 20 faizidir. İngiltərə universitetlərində ən çox qrantları mühəndislik bölümləri qazanır. Çünki böyük şirkətlər universitetlərə yatırımlar edib tədqiqat sahəsi açır və qəbul almış tələbələri ya universitetlərdə, ya da şirkətlərdə doktorantura təhsilinə cəlb edirlər.

### "Özüm özümü motivasiya etməyi öyrənmişəm"

*-Çətin situasiyalarda özünüzü necə motivasiya edirsiniz? Məsələn, sizin universitetin professoru Xiqs çətin durumlarda Edinburq dağlarına gəzintiyə çıxardı. Alim ona Nobel mükafatı qazandırmış məşhur kəşfini də növbəti gəzintidən sonra həyata keçirmişdi.*

- Bu sual Edinburq Universitetinin mühəndislik bölümünə yeni qəbul olunmuş və universitet tərəfindən keçirilən 3 günlük düşərgədə iştirak edən hər bir tələbəyə müəllim kollektivi tərəfindən verilir. Tələbənin mənəvi durumuna, emosiyalarına önəm verilir. Mən də bu düşərgədə 2018-ci ilin may ayında iştirak etdim. Hər tələbə müxtəlif cavablar verirdi. Mənim cavabım isə belə oldu: "Məktəbdə oxuyarkən motivasiya mənbəyim anam idi. O, hər an həm mənim, həm də qardaşlarımın yanında olur, hər uğur və ya uğursuzluğumuzdan sonra bizə dəstək verirdi. İllər keçdi, böyüdüm. Yenə də anam mənim əsas motivasiya mənbəyimdir. Amma indi həm də özüm özümü motivasiya etməyi öyrənmişəm. Çətinliyə düşəndə öz-özümə deyirəm ki, zirvələr həmişə çətinliklərdən, uçurumlar isə asan yumurlanmaqdan ibarətdir. Seçim etmək sənin əlindədir. İndiyədək gəldiyin yola və qazandığın uğurlarına bax və ona irəliləməkdə özünə güc ver. Çünki məyusluq seçim yolu deyil". Həftə sonları mən də "Calton Hill" və "Artur seat"e çıxıb oradan mənzərəni izləyib düşünməyi sevirəm. Ən əsas da "Calton Hill"in sakit və hüzurverici ab-havası insanı əsl yeni kəşflərə həvəsləndirir.

*- Yaxın gələcəkdə hansı kəşflərə imza atacağınızı düşünürsünüz?*

- Birinci düşündüyüm hədəf doktorantura təhsilimi uğurla başa vurmağımdır. Əlbəttə, hər bir doktorantura tələbəsi kimi mən də öz sahəmdə yeniliklərə imza atmaq istəyirəm. Ümidvaram ki, yaxın gələcəkdə buna tezliklə nail olaram.

### "Tələbələri ancaq dərslə yükləmək düzgün deyil"

*- Britaniyadan baxdıqda təhsil sistemimizdə baş verən dəyişiklikləri necə qiymətləndirərdiniz? Universitetlərimizdə nələri görmək istərdiniz?*

- Ölkəmizdə son 10 ildə təhsil sahəsində çox dəyişikliklər baş vermişdir. Bizim ali məktəblərdə tələbə həyatı bir az maraqsız keçir. Tələbələri ancaq dərslə yükləmək düzgün deyil. Məsələn, hər bölüm üzrə müəllimlərin rəhbərliyi altında layihələr işlənib xarici qrantlara müraciət oluna bilər. Bunun sayəsində də tələbələrimizin xaricə çıxışları olar və gənc yaşlarından artıq akademik məqalənin necə yazılmalı olduğunu öyrənərlər. Daha sonra xırda və maraqlı klublar yaratmaq olar. Hansı ki ayda bir dəfə görüşüb hər hansı bir məqaləyə müraciət etsinlər. Bu yolla tələbələr bir-birlərini gündəmdə olan tədqiqatlar barədə xəbərdar edərlər. Bu cür müzakirələr həm də gələcəkdə yeni kəşflərə aparan yolun başlanğıcı ola bilər.

### "Hər mümkünsüz iş çox çalışdığın halda mümkündür"

*- Bir gənc olaraq həmyaşıdlarınıza həyatda uğurlu olmaq üçün hansı tövsiyələriniz var...*

- Həmyaşıdlarıma tövsiyəm o olardı ki, həmişə qarşılarına bir məqsəd qoysunlar və o məqsədə doğru hər gün ən azı bir addım atsınlar. Məsələn, arzu xaricdə oxumaqdırsa, bu arzuya çatmaq üçün hər gününüzün ən azı bir saatını bu sahəyə ayırmalısan. Bunu edə bilmirsənsə, demək, bu, sənin həyat hədəfin deyil. İkinci əsas məsləhət- seçdikləri yolda başqalarının mənfi fikirlərinə fikir verməsinlər. Bu məsləhəti bütün tələbələrimə verirəm. Çünki çox zaman onlardan "müəllim, bəlkə biz seçilmədik", "müəllim, axı o yerə 1000 nəfər sənəd verir, bizim şansımız azdır" kimi özlərinə güvənsizlik kəlmələri eşidirəm. Birincisi, özlərində güvənsizliyi məhv etməli, daha sonra isə arzuya çatmağa yönəlməlidirlər. Həyatda insanın nail ola bilməyəcəyi heç nə yoxdur. Moskva Dövlət Universitetindən rusiyalı professorlardan biri olan P.Zlomanov həmişə deyərdi ki, "Hər mümkünsüz iş belə çox istənildiyində və çox çalışdığın halda mümkündür".

*- Mütaliəyə münasibətiniz? Hansı mövzuda kitab oxumağa həvəslisiniz?*

- Kitab oxumağı çox sevirəm. Vaxt tapan kimi kitab oxumağa çalışıram. Oxuduğum kateqoriya özündə dedektiv, psixologiya və fəlsəfəyə aid kitabları cəmləşdirir. Hazırda Amerika yazıçısı Den Braunun "Origin" əsərini oxuyuram.

*- Gələcək planlarınız və arzularınız.*

- Doktorantura təhsilimi uğurla başa vurub akademik təcrübəmi ixtisasım üzrə daha da artırmaq əsas arzularımdan biridir.

# Məktəblilərin zərərli vərdişlərdən xilas olunmasına həsr olunan seminar

Şəmkirdə məktəblilərin zərərli vərdişlərdən xilas olunmasına həsr olunan seminar Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Sonra polis polkovnik-leytenantı Yaşar Hüseynov gənc nəslin zərərli vərdişlərdən uzaq olması məqsədilə onlarla mütəmadi görülən iş və tədbirlərdən söz açıb.

Tədbirdə narkomaniya, erkən nigah, ailə münaqişələri və radikal dini təriqətlərin səbəb olduğu təhlükələrdən qorunmağın yolları və onların törədə biləcəyi çətinliklərlə bağlı məktəblilər məlumatlandırılıb.

Rayon polis idarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili şöbəsinin baş inspektoru, polis kapitanı Əfqan Qasımzadə zərərli vərdişlər və onun fəsadları barədə geniş məlumat verib.

Sonda şagirdləri maraqlandıran suallara aydınlıq gətirilib və tədbir iştirakçılarının fikirləri dinlənilib.

**Kənan İBRAHİMOV,**
*Şəmkir Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




# “Vətəni tanı” hərəkətli intellektual oyun



İmişli rayon Rəsullu kənd tam orta məktəbində “Vətəni tanı” adlı hərbi mövzuda hərəkətli intellektual oyun keçirilib. Yarışda 10-11-ci sinif şagirdlərindən təşkil olunmuş 4 komanda mübarizə aparıb. Beş mərhələdə keçirilmiş oyunda komandalara hər mərhələdə 3 açar sözün tapılması üçün tapşırıq verilib. Tapşırığı icra edən komanda yekun olaraq bir suala cavab vermək şərti ilə növbəti mərhələyə keçib.

Nəticədə beş mərhələni uğurla başa vuran “Qarabağ” komandası intellektual oyunun qalibi olub. Qalib komandaya yarışın təşkilatçıları tərəfindən müxtəlif mükafatlar verilib.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Riyaziyyatdan “açıq dərs”



Samux rayon Lək kənd tam orta məktəbinin VIII sinfində Ağgül Qurbanovanın riyaziyyatdan “Sinir sisteminin reflektor funksiyası” mövzusunda “açıq dərs”i keçirilib.

Dərsdə şagirdlər üç qrupa (“Beyincik”, “Uzunsov beyin” və “Arabeyin”) bölünərək iştirak ediblər. Dərs şagirdlərin fəal iştirakı ilə diskussiya şəklində keçib. Dərs prosesində verilmiş “Sinir sisteminin quruluşu necədir?” tədqiqat sualı qrup liderləri tərəfindən izahlı şəkildə cavablandırılıb.

Sonda müşahidəçi qismində iştirak edən rayon təhsil şöbəsinin əməkdaşları və fənn müəllimləri tərəfindən dərs təhlil edilib.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# “Ən ümdə vəzifə bilikli, vətənpərvər vətəndaş yetişdirməkdir”

## Aybəniz Məmmədova: “Şagird nailiyyətlərinə məktəb direktorunun idarəetmə üsulu da təsir edir”

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

Aybəniz Məmmədova 1962 -ci ildə Bakı şəhərində doğulub.1986-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib. Həmin vaxtdan Qax şəhər 4 nömrəli tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi, 2004-cü ildən isə rayon təhsil şöbəsində Azərbaycan dili və ədəbiyyat fənni üzrə metodist vəzifəsində işləyib. Keçən il direktorların işə qəbulu imtahanında uğurla iştirak edərək Qax rayonu İlisu kənd tam orta məktəbinə direktor təyin olunub.

**-Aybəniz xanım, bugünkü uğurlarınızın əsasında nə dayanır?**

-Müəllimlik peşəsinə olan sonsuz məhəbbətim. Daim öyrənmək, öyrəndiklərimi yaradıcı şəkildə tətbiq etmək və məsuliyyət.

Müəllim ailəsində doğulub, boya-başa çatmışam. Əvvəl atamdan, sonra bu şərəfli peşəni vicdanla, ləyaqətlə daşıyan müəllimlərimdən bu peşəni sevməyi öyrənmişəm. Orta məktəb, tələbəlik illəri bir-birini əvəz etdi. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib təhsil aldığım məktəbdə müəllimlik fəaliyyətinə başladım. Tezliklə şagirdlərimin sevimlisinə çevrildim. Bu, əlbəttə, çalışqanlığın, prinsipiallığın nəticəsində oldu.

**-Pedaqoji fəaliyyətinizdə ilk uğurunuzu necə xarakterizə edərdiniz?**

-2001-ci ildə Təhsil Nazirliyi tərəfindən keçirilən “Ən yaxşı müəllim” müsabiqəsinin respublika mərhələsində iştirak etdim. Nəticədə III dərəcəli diploma layiq görüldüm. Sonra “Sərhədlərimizi qoruyaq” qəzet-yazı nominasiyası üzrə respublika turunda fərqlənmə diplomuna və pul mükafatına layiq görüldüm.

**-Belə bir uğur sizin gələcək fəaliyyətinizə hansı təkanı verdi?**

-Sonrakı fəaliyyətim rayon təhsil şöbəsində Azərbaycan dili və ədəbiyyat fənni üzrə metodistliklə bağlıdır. Təhsil sahəsində aparılan islahatlar, Milli Kurikulumun tətbiqi, “Təhsil qanunu”, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və s. kimi hüquqi sənədlərin tətbiqi, yeni təlim metodları və İKT-dən səmərəli istifadə, gənc müəllimlərə metodik köməklik göstərmək ən ümdə vəzifələrdən biri kimi işimin əsasını təşkil etdi.

**-Məktəb direktoru olmaq sizin üçün nə deməkdir?**

-Çətin, məsuliyyətli bir yolun yolçusu olmaq. İşinlə, əməlinlə həm pedaqoji kollektivin, valideynlərin inamını doğrultmaq, həm də 130 illik tarixə malik olan elm, təhsil ocağının ənənələrini yaşatmaq.

**-Bu gün cəmiyyət tərəfindən məktəbə verilən tələblər dəyişir, təhsil sahəsində aparılan dəyişikliklər, təkmilləşmələr məktəb və müəllimlər, o cümlədən məktəb rəhbərinin qarşısında mühüm vəzifələr qoyur. Sizin buna münasibətiniz necədir?**

-Əlbəttə, bu gün bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ciddi dəyişikliklər gedir. Dövlət başçısı tərəfindən təhsilimizə göstərilən diqqət və qayğı, həyata keçirilən tədbirlər təhsilimizin dünya standartlarına cavab verməsi məqsədi daşıyır. Eyni zamanda, təhsil işçiləri qarşısında mühüm vəzifələr qoyur. Bu vəzifələrdən ən ümdəsi bilikli, savadlı və vətənpərvər vətəndaşlar yetişdirməkdir.



**- Hazırda məktəb direktoru kimi işinizdə ilkin olaraq nədən başladınız?**

- İşlədiyim pedaqoji kollektivdə sağlam, mənəvi-psixoloji mühitin yaradılması, yaradıcı müəllimlərin inkişafına stimul vermək və onlarla birgə addımlamaq gündəlik fəaliyyətimizin əsas istiqamətini təşkil edir.

Təsadüfi deyildir ki, gördüyümüz işin bəhrəsi tez bir zamanda özünü göstərdi. Qısa müddət ərzində rəhbərlik etdiyim məktəbin iki müəllimi, kimya və ibtidai sinif müəllimləri “Təhsildə inkişaf və innovasiyalar üzrə ikinci qrant müsabiqəsi”ndə qalib oldular.

**-2017-2018-ci tədris ilinin “Təhsildə keyfiyyət ili” elan edilməsi ilə bağlı gördüyünüz tədbirlər və bunların təhsilə, məktəbə təsiri?**

-Əmrlə bağlı fəaliyyət planına uyğun olaraq tədris ili ərzində mütəmadi tədbirlər həyata keçirilib. Məktəb rəhbəri kimi “Təhsildə keyfiyyət ili” çərçivəsində keçirilən pedaqoji mühazirələrin respublika mərhələsində III dərəcəli diploma layiq görüldüm. Gənclərin Çağırışaqədərki Hazırlığı fənni rəhbəri Şahin Həsilov şagirdlərin hərbi-vətənpərvərlik sahəsindəki səmərəli fəaliyyətinə görə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən fəxri fərmana, Sərhəd Mühafizəsi Xidmətinin yaranması münasibətilə keçirilən “Sərhədlərimizin keşiyində” inşa yazı müsabiqəsinin ümumrespublika mərhələsində X sinif şagirdi Səidə Əlimzadə II dərəcəli diploma layiq görülüblər. Qazandığımız uğurlar pedaqoji kollektivə, şagirdlərə böyük stimul verir.

**-Sizcə, məktəb direktoru şagird nəticələrinə təsir edirmi?**

-Çox maraqlı sualdır. Gözləyirdim ki, belə bir sual verəcəksiniz. Əlbəttə, indiki vaxtda şagird nailiyyətlərinə bir sıra amillərlə yanaşı, məktəb direktorunun idarəetmə üsulu da təsir edir. Çünki şagird nailiyyətləri yüksək olan məktəb rəhbərləri üçün daxili problemlərin həlli və pedaqoji təcrübənin inkişafı prioritet məsələdir.

**- 2018-2019-cu tədris ilində konkret planlarınız ?**

- Müstəqil dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyev təhsilə xüsusi önəm verərək: “Təhsil millətin gələcəyidir!” demişdir. Prezidentimiz İlham Əliyev də ulu öndərin bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də həyata keçirdiyi işlərini uğurla davam etdirir. Təhsil sahəsində misli görünməmiş layihələr həyata keçirilir ki, bu da gənc nəslin intellektual səviyyəsinin inkişafını təmin edir. Belə olan halda biz təhsil işçilərinin əsas vəzifəsi də yaradılan münbit şəraitdən maksimum yararlanmaqla, gənc nəslə dərin, praktik, məntiqli, intellektual, fundamental təhsil verməkdir.

Bir də unutmamalıyıq ki, məktəb rəhbəri kimi işimizdə araşdırmalar, statistik təhlillər aparmadan, bunun nəticəsində mövcud vəziyyəti qiymətləndirmədən yüksək səviyyəli təhsilə nail olmaq mümkün deyil.

# Şagirdlər “Ağ ölüm əsrin bəlasıdır” mövzusunda maarifləndiriliblər

Saatlı şəhər 4 nömrəli tam orta məktəbdə “Ağ ölüm əsrin bəlasıdır” mövzusunda tədbir keçirilib. Tədbirdə rayon təhsil şöbəsinin, polis idarəsinin əməkdaşları, məktəbin müəllim və şagirdləri iştirak ediblər.

Rayon polis şöbəsinin əməkdaşları narkomaniya və onun fəsadları barədə tədbir iştirakçılarına ətraflı məlumat verib. Sonra gənc nəslin savadlı, vətənpərvər ruhda böyüməsi, sağlam inkişaf etməsi, zərərli vərdişlərdən uzaq olması üçün məktəbdə görülən işlərdən və tədbirlərdən söz açıblar.

Təhsil şöbəsinin müdiri Seyidağa Kazımov bildirib ki, təhsildən yayınan, baxımsız və valideyn nəzarətindən çıxaraq hüquqa zidd əməllər törədən və cinayətə meyilli məktəblilərin diqqətdən kənarda qalması, vaxtında zəruri qabaqlayıcı profilaktik və tərbiyəedici tədbirlərin görülməməsi bəzi hallarda onların cəmiyyətin tələblərinə zidd həyat tərzi keçirmələri, eləcə də cinayətlərin subyektinə çevrilmələri ilə nəticələnir.

Narkomaniyaya aid videoçarx nümayiş etdirilib.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırılıb.

**Xalid NƏCİYEV,**
*Saatlı Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# “İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq”

“Azercell Telekom” MMC interneti məktəblilər üçün təhlükəsiz etmək məqsədilə ölkəboyu şagirdlər, müəllimlər və valideynlər üçün “İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq” mövzusunda təlimlərini davam etdirir.

Qəbələ Rayon Təhsil Şöbəsindən verilən məlumata görə, Bakı ilə yanaşı regionlarda da bu faydalı təşəbbüslə çıxış etməyi hədəfləyən şirkət Qəbələ şəhərində 5 nömrəli məktəbdə 123 şagird, 26 müəllim və 21 valideynin iştirakı ilə təlim keçirib. Təlimlərdə şagirdlərə internetdə olan təhlükələr haqqında nəzəri və praktiki məsləhətlər, məktəbdənkənar təhdidlərin tanınması və onlarla mübarizə yolları ilə bağlı məlumatlar verilib.

Ümumilikdə, təlimlər sürətli internetin və internetdən istifadə arealının genişlənməsi nəticəsində şagirdlərin üzləşə biləcəkləri çətinlikləri müəyyənləşdirmək, həmin təhlükələri aradan qaldırmaq üçün şagirdlər, valideynlər və uşaqlarla kompleks işin təşkilini əhatə edib.

# Yol polisi əməkdaşları məktəblilərlə görüşüb

Xaçmaz rayonu Mehrəliqışlaq kənd ümumi orta məktəbində Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti alayının II tağımının əməkdaşları məktəblilərlə görüş keçiriblər. Məktəbin direktoru Pənah Ələsgərov bu cür maarifləndirici tədbirlərin keçirilməsinin yüksək əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Sonra YPX-nin baş inspektoru Telman Mustafayev “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tələblərindən, yollarda nizam-intizam qaydalarından, eləcə də yol mədəniyyətinin yüksəldilməsindən danışıb. Bildirib ki, qəzaların qarşısının alınması istiqamətində profilaktik tədbirlərin gücləndirilməsində tək polis əməkdaşları deyil, vətəndaşlar da məsuliyyət daşımalıdır. Yollarda nizam-intizam qaydaları, eləcə də yol mədəniyyətinin yüksəldilməsi üçün hamı çalışmalıdır.

Sonda şagirdlər tərəfindən verilən suallar yol polişi əməkdaşları tərəfindən cavablandırılıb.

**Səhifəni hazırladı: Şakir CƏFƏROV**

# İnformasiya texnologiyaları cənnəti

## Estoniya dünyanın rəqəmsal mərkəzlərindən birinə çevrilir

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Anna Piperal “e-Estoniya”nın könüllü səfiridir. Sistemin necə işlədiyini izah edir: ona məxsus olan ID-kartı USB-port vasitəsilə xüsusi qurğuya taxır, parolu daxil edir və hər şey hazırdır. Sistemin interfeysi kifayət qədər sadədir: şəxsi məlumatlar, daşınmaz əmlak, iş və s.

Piperal magistraturada oxuyur. Sistemdə bu barədə informasiya var, ancaq sadəcə məlumat üçün deyil: o, tutaq ki, sabah nəqliyyat üçün bilet alacaqsa, sistem dərhal Annanın tələbə olduğunu nəzərə alır.

Zarafat kimi qəbul olunmasın, ancaq Estoniya vətəndaşının evdəki pişiyinə hansı peyvəndlərin vurulduğu barədə məlumat belə, onun şəxsi rəqəmsal platformasında qeydiyyata düşür. Bir az da ciddi istəyirsinizsə, onu da qeyd edə bilərik ki, daşınmaz əmlak, torpaq və s. bu kimi məqamlar mütləq sistemdə öz əksini tapmalıdır. Estoniyada düşünürlər ki, bu barədə məlumatları ilk növbədə siyasət adamları ictimailəşdirməlidirlər. Elə bu səbəbdəndir ki, məsələn, filan deputata məxsus mal-mülk barədə istənilən məlumatı, hətta Google-dan çəkilmiş şəkilləri həmin sistemdə görmək problem deyil.

“The New Yorker”in yazdığına görə, potensial haker müdaxiləsini yumşaltmaq məqsədilə istifadəçilərin məlumatları bir yerdə saxlanılmır. “X-Road” hökumət platformu müxtəlif serverlərə nəzarət edir və lazım olduğu halda onları bir-birlərinə “calayır”. Yəni, stomatoloqa lazım olan məlumatlar bir yerdədir, təhsillə bağlı informasiya digər. Lazım gələrsə, onlar bir-birlərinə ehtiyac duyulan məlumatları ötürürlər. “X-Road” hökumət platforması olsa da, artıq şirkətlər özəl məlumat banklarının yaradılması işinə başlayıblar. Yəni, bu işin də dövlət və özəl sektoru var.



**“IT Personal”ın rekruterləri hesab edir ki, IT sferasında işə düzəlmək üçün “middle” səviyyəsi yetərlidir. Əsas odur məhsuldar düşüncə tərzinə sahib olasan. Estoniyada orta statistik IT şirkətində daxili münasibətlər üfuqi əsasda qurulub: müxtəlif ierarxiya təmsilçilərinin azad fikir mübadiləsi aparmalarında heç bir məhdudiyyət yoxdur. Hazırda ölkədə IT sahəsində 4000-ə yaxın şirkətin fəaliyyət göstərdiyi bildirilir.**

Hələlik rəqəmsallaşmayan sahələr də mövcuddur. Məsələn, ailə qurmaq istəyənlər hələ də dövlət orqanlarına gəlib öz istəklərini yazılı şəkildə bildirməlidirlər. Yaxud, evi və ya torpaq sahəsini internetlə almaq mümkün deyil.

Reallıq odur ki, əksər sferaların elektronlaşması dövlətə şəffaflıqla yanaşı, maliyyə gəlirləri də gətirir. Məsələn, dövlət fəaliyyətinin rəqəmsal müstəviyə transfer olunması nəticəsində təqribən ÜDM-in 2%-dək qənaət etmək mümkün olub. Müqayisə üçün, Estoniyanın NATO-ya üzvlük xərci məhz bu qədərdir. Başqa sözlə, ölkənin müdafiəsi üçün vətəndaşdan pul alınmır.

Rəqəmsal qərarların tətbiqi nəticəsində dövlətin heç bir xidməti bir yerə bağlanmır. 2014-cü ildə hökumət tərəfindən bu məqsədlə rəqəmsal rezidentlik proqramı tətbiq olunmağa başlayıb. İndi dünyanın istənilən yerində yaşamaqla Estoniyanın bank sektorunun xidmətlərindən elə istifadə edə bilərsiniz ki, sanki bu ölkədəsiniz. Estoniyada gəlir vergisi dünyada ən aşağılardandır. Belə münbit vəziyyət dünyanın hər bir yerindən startapları Estoniyaya yönəldir. “Adcash” şirkətinin fransız sahibi Tomas Padovani hesab edir ki, bu rahatlığı ofşorla dəyişik salmaq olmaz. Bununla belə, Estoniyada yaxşı pul qazanmaq üçün hər cür şərait var: dövlət heç nəyə mane olmur, sadəcə yönəldir.

### Virtual əhali artımı

2013-cü ildə Kotkanın qarşısına daha bir vəzifə qoyulub: Estoniya əhalisinin artımına nail olmaq. Başlıca motiv iqtisadidir. Kotka düşünür ki, dövlət böyük müəssisəsdir, hökumətin əsas məqsədi əhalisini daha da varlı etməkdir. Hər bir dövlət ona lazım olan insanları əldə etməyə çalışır. Ancaq tək fiziki yolla yox. Kotka ilk gündən əmindir ki, bunu virtual formada da etmək olar. Estoniyanın bunun üçün bütün imkanları var - rəqəmsal infrastruktur işlək vəziyyətdədir. Bunun üçün o, “e-Residency” adlı proqram yaradıb. Sistemə əsasən, iştirakçılar hər hansı sərhəd-gömrük prosedurları keçmədən dünyanın istənilən nöqtəsindən ölkəyə “daxil ola” bilərlər. Cəmi 10 dəqiqə və 100 avro xərcə. Proseduru keçib istənilən Estoniya konsulluğundan vəsiqənizi ala bilərsiniz. Estoniyada biznes qurmaq istəyən şəxslər üçün bu, olduqca əlverişli yoldur. Təsadüfi deyil ki, ən çox müraciət edənlər Rusiya və Böyük Britaniyadan olanlardır. Hər ikisinin səbəbi var, ancaq bu, başqa yazının mövzusudur.

Bu gün “e-Residency”yə müraciət edənlərin sayı ölkədə doğuşun səviyyəsindən qat-qat yuxarıdır. Bir növ əhalinin rəqəmsal artımı baş verir. Özü də bu, ölkənin demoqrafik görünüşünə, tutaq ki, Tallində əhali sıxlığına heç bir təsir göstərmir. Axı hər nə varsa, virtual baş verir. Deyilənə görə, ABŞ-ın eks-prezidenti Barak Obama belə fikir işlədib: “Bizim səhiyyə sisteminin saytını işə salmazdan əvvəl gərək mən Estoniyaya zəng edərdim”.

Dünyada əksər yeniliklərin, kəşflərin müəllifləri, yaxud sahibləri özəl şirkətlərdir. Yalnız Estoniyadan savayı. Burada hər kəs öz ixtirasını dövlətə satmağa çalışır. Məsələn, “e-Ambulance” layihəsi. Proqram “X-Road”a bağlanıb. Təcili tibbi yardım heyəti çağırışa gedərkən artıq yolda xəstənin sağlamlığı ilə bağlı bütün məlumatlarla tanış olur və heyətdə vətəndaşa çatanadək onun sağlamlığına dair ilkin təsəvvürlər mövcuddur. Xəstənin müayinəsindən sonra cərrahi əməliyyata ehtiyac varsa, bütün məlumatlar cərraha ötürülür. Təcili tibbi yardım maşını klinikaya çatanadək cərrah əməliyyata hazırdır. Bu sistem vasitəsilə bütün xəstəxanalarda iş prosesi nizamlanır. Cərrahlar əməliyyatların ardıcıllıq cədvəlini, heyəti və istifadə olunacaq ləvazimatların siyahısını tərtib edirlər. Dərmanların uçotu gedir. Həkimin məsləhət bildiyi dərman sistem tərəfindən məqbul görülmürsə, pasiyentə yazılmır.

“e-Ambulance” kimi tematik proqramlar Estoniyanın “X-Road” hökumət təşəbbüsünün tərkib hissəsidir. Və bu istiqamətdə yeni-yeni ideyalar sanki tükənmək bilmir.

### Birinci sinifdən məntiq və alqoritmlərin əsasları

Estoniyada proqramlaşdırmanı uşaqlara məktəbdən öyrədirlər. Prosesə 2012-ci ildən start verilib və pilot layihə kimi ilkin olaraq 20 məktəbdə tətbiq olunub. 1-ci sinifdən etibarən uşaqlara məntiq və alqoritmlərin əsasları öyrədilir. Uşaqlar ilkin siniflərdən “Stratch” sistemi əsasında proqramlaşdırmanın incəliklərinə yiyələnirlər.

Hər il Estoniya IT sahəsində işləyən əlavə 1500 nəfər mütəxəssisə ehtiyac duyur. Bunlardan 70%-i ali, qalanı isə profil təhsilli olmalıdırlar. Sferadakı artımla paralel olaraq təbii ki, mütəxəssislərə də ehtiyac artacaq. “Biz belə bir trend müşahidə edirik: yüksək ixtisaslı IT mütəxəssislərinə ehtiyac getdikcə artır. Məsələn, 2013-cü ildə onların sayı 23 min idi, 2020-ci ildə 37 min olacaq”, - deyə dünyaca məşhur “Playtech” şirkətinin Estoniya filialının rəhbəri İvo Lasn bildirir. Estoniya İnformasiya Texnologiyaları və Telekommunikasiyaları Assosiasiyasının prezidenti Anneli Heynsoo deyir ki, sistem analitikləri, IT-memarlar və proqram tərtibatçıları ən çox ehtiyac duyulan sahələrdir. İ.Lasnın sözlərinə görə, fəaliyyət sferası və ixtisaslaşma konkret şirkətlərdən asılıdır. Sistem administratorlar, proqram tərtibatçıları və bir neçə dil bilən analitiklərin işə düzəlmə ehtimalı daha çoxdur. Hesablamalar göstərir ki, Estoniyada IT mütəxəssislərin əməkhaqları digər peşə sahiblərinin maaşlarını bir neçə dəfə üstələyir.

“IT Personal”ın rekruterləri hesab edir ki, IT sferasında işə düzəlmək üçün “middle” səviyyəsi yetərlidir. Əsas odur məhsuldar düşüncə tərzinə sahib olasan. Estoniyada orta statistik IT şirkətində daxili münasibətlər üfuqi əsasda qurulub: müxtəlif ierarxiya təmsilçilərinin azad fikir mübadiləsi aparmalarında heç bir məhdudiyyət yoxdur. Hazırda ölkədə IT sahəsində 4000-ə yaxın şirkətin fəaliyyət göstərdiyi bildirilir.

Estoniya o ölkələrdəndir ki, gənc dövlətçiliyə malik olsa da, dünyaca məşhur IT-brendlərə sahibdir. Onların bəzilərinin həqiqətən də Estoniya mənşəli olduğuna inanmaq bir anlıq inanılmaz görünür. Beləliklə:

**Skype** - Estoniyanın ən məşhur qabaqcıl şirkətidir. Dünyanın ən populyar messenceri sayılır. Hazırda “Microsoft”un bir parçası olsa da, ən böyük ofisi hələ də Tallindədir.

**PipeDrive** - Eyni adlı CRM-sistemin istehsalçısıdır. Dünya üzrə 30 mindən çox abunəçisi var.

**AdCash** - Tərkibinə 100 mindən çox sayt və mobil əlavə daxil olan reklam şirkətidir.

**TitanGrid** - Kibertəhlükəsizlik sahəsində startap.

**Taxify** - Mobil əlavə vasitəsilə işləyən və “Uber”lə ciddi rəqabət aparan taksi şirkəti.

**Fortumo** - Mobil ödəmələr servisi.

1991-ci ildə iqtisadi tənəzzüllə üz-üzə qalmış Estoniya özü haqqında həm vətəndaşları qarşısında, həm də dünyada təsəvvürləri dəyişməyə nail oldu. Təsəvvür dəyişikliyi isə reallığın dəyişilməsi ilə nəticələndi. Estonlar hesab edirlər ki, illərlə sovet sistemində yaşamış Estoniya əhalisi yeniliklər, o cümlədən dövlət idarəçiliyində innovasiyaları uğurla sınaqdan çıxarmağa qadirdir. Çünki SSRİ-nin tərkibində nəyisə dəyişməyin mümkünsüz olduğu şəraitdə yaşayıblar. İndi isə onların yeni effektiv cəmiyyət yaratmaq üçün bütün imkanları var. Belə görünür ki, bu imkandan yetərincə istifadə etməyi bacarırlar. Ölkənin informasiya texnologiyaları cənnəti kimi tanınması təsadüfün nəticəsi deyil.

# ABŞ-ın 16-cı prezidentinin oğlunun müəlliminə yazdığı məktub

***Avraam Linkoln:** “Oğluma dürüstlüyü, ədalətli olmağı, cəsur olmağı, özünə inamı öyrədin!..”*

**Kamal CAMALOV,**
*Azərbaycan Respublikasının Əməkdar müəllimi*

ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun (Uilyam Linkoln) müəlliminə yazdığı məktub əxlaq kodeksi daşıyan bir məktubdur. Linkoln oğlunu məktəbə göndərən zaman onun müəlliminə də məktub ünvanlayır. Məktubda oxuyuruq ki, ata məktəb həyatının ilk günündən oğlunu müəllimə əmanət edir. Ata istəyir ki, müəllim oğluna dürüstlüyü və ədalətli olmağı öyrətsin. Ona qısqanclığın pis bir mərəz olduğunu anlatsın. Müəllimdən oğluna səssiz gülüşün sirlərini öyrətməyi və həmçinin oğluna kitabları sevməyi, kitabların möcüzəli bir nemət olduğunu aşılamağı istəyir. Avraam Linkoln müəllimdən oğlunun təbiətə vurğun olmasını, sevdirməsini istəyir. İstəyir ki, oğlu təklikdə olan zaman göydəki quşların, arıların, çəmənlikdəki güllərin daxili sehrinə enməyi bacarsın. Ata müəllimdən oğluna məktəbdə səhv etməyin hiylə işlətməkdən daha şərəfli olduğunu bildirməyi istəyir. Ata məktubda yazır ki, oğluma öyrət fikrinin üstündə möhkəm olsun, nəzakətli insanlara qarşı nəzakətli, kobudlara qarşı kobud olsun. Oğluma bildir ki, qazanılan bir dollar tapılan beş dollardan daha dəyərlidir. Linkoln yazır ki, oğluma insanlara qulaq asmağı, qulaq asdıqlarını həqiqət ələyindən keçirib ancaq yaxşıları özünə götürməyi və həmçinin kədərləndiyi zaman necə gülə biləcəyini öyrət. Bütün bunlarla yanaşı, Linkoln istəyir ki, müəllim oğluna əgər oğlu haqlıdırsa, dimdik ayaqda qalıb mübarizə aparmağı, səbrsiz olacaq qədər cəsarətə sahib olmağı, cəsur olacaq qədər səbrli olmağı öyrətsin. Linkoln istəyir ki, müəllim oğluna özünə inamı öyrətsin, çünki özünə inam olarsa bu yolla onun bəşəriyyətə də inamı daim olacaqdır. Sonda, oğluna qarşı müəllimin mehriban olmasını istəyir.

Göründüyü kimi, atanın (və ya valideynin) oğlunu əmanət etdiyi müəllim təbii ki, vətənpərvər, mənəviyyatı təmiz, əxlaqı saf, təlim-tərbiyə fəaliyyətində pedaqoji biliyə dərindən yiyələnən, uşaqlarla humanist münasibət quran, səlis və aydın nitqə sahib və sair yüksək keyfiyyətlərə malik müəllimdir. Necə ki, görkəmli pedaqoq Yan Amos Komenski deyirdi: “Ata kimi sevməsən, müəllim kimi hərəkət edə bilməzsən”.

Gələcək cəmiyyətin necəliyi müəyyən mənada müəllimdən asılıdır. Müəllim bu gün yaşayır, gələcəyi qurur. Buna görə də onun fəaliyyəti gələcəyə yönələn fəaliyyət olub, fəal şəxsiyyət formalaşdırılması prosesidir. Şagird düzlüyü, doğruçuluğu, səmimiliyi, saflığı, ətrafa, cəmiyyətə hörmət və məhəbbəti, mehribanlıq kimi yüksək mənəvi və əxlaqi keyfiyyətləri, ümumi mədəniyyətə, özünənəzarətə, özünü ələ alma bacarığına, tələbkarlığa və sair sirlərə müəllimin pedaqoji ustalığı ilə yiyələnir. Bu da şagirdin sonrakı fəaliyyəti üçün əsas və zəmin olur. Bu mənada, Linkoln müəllimdən oğlunun elə yetişdirilməsini istəyir ki, oğlu millətin, cəmiyyətin inkişafında əvəzsiz rol oynasın.

Dünyanın ən qiymətli kapitalı, “yer üzünün əşrəfi” (N.Gəncəvi) olan insan və onun tərbiyəsi müəllimə etibar edilir. Cəmiyyətin gələcəyi müəllimin əməyindən və bu əməyin necəliyindən həlledici dərəcədə asılıdır. Gələcək cəmiyyət məhz müəllimin əli ilə yaradılır, onun zəhməti hesabına qurulur. Buna görə də müəllimlik, müəllim peşəsi və müəllim bütün dövrlərdə, cəmiyyətin bütün inkişaf mərhələlərində xalq tərəfindən müqəddəs tutulmuş, ona hörmətlə yanaşılmış, dövrün mütərəqqi fikirli adamları ona yüksək qiymətlər vermişlər.

Müəllimin rolu təkcə dərs demək və tərbiyə etməklə məhdudlaşmır. Onun cəmiyyətdə rolu böyükdür. Böyük rus pedaqoqu K.D.Uşinski bu münasibətlə yazırdı: “Əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, müəllimlərə uşaqlarımızın əxlaqını, ağlını, ruhunu və bütün bunlarla bərabər öz Vətənimizin gələcəyini etibar edirik”.

Cəmiyyətimizin müasir inkişaf mərhələsində müəllimin üzərinə mühüm vəzifələr və məsuliyyət düşür. Bu gün parta arxasında əyləşən hər bir məktəbli bir neçə ildən sonra müstəqil həyata atılacaq və cəmiyyətin ümumxalq həyatında fəaliyyət göstərəcək. Buna görə də müəllimin başlıca vəzifələrindən biri məhz gənc nəsli gələcək həyata hazırlamaqdır. Bu işi isə yüksək pedaqoji ustalığa, hərtərəfli hazırlığa və dərin peşə keyfiyyətlərinə malik olan əsl müəllimlər müvəffəqiyyətlə həyata keçirə bilər. Müəllimin pedaqoji ustalığı dərin məzmunlu və geniş sahəli elə bir problemdir ki, ona yiyələnmək, öz işinin əsl ustası olmaq hər bir müəllim üçün uğurdur, şan-şöhrətdir. Pedaqoji ustalıq - müəllimlik fəaliyyətində səriştəlilik, bacarıqlılıq, mahirlik deməkdir. O, müəllimin dərin nəzəri biliyi ilə praktik fəaliyyətinin üzvi vəhdətinin birləşməsindən yaranan elə bir sənətkarlıqdır ki, burada artıq onun bütün xüsusiyyətləri - bacarıq və qabiliyyətləri, şəxsi keyfiyyətləri özünü göstərir.

Tərbiyənin məqsədinin gələcəyə yönələn olması ilə əlaqədar müəllimin də fəaliyyəti ilk növbədə tərbiyə etdiyi şəxsiyyətin gələcəyinə yönəldilir. Başqa sözlə desək, müəllimin fəaliyyəti şagirdlərin təlim-tərbiyəsinin gələcək nəticəsinin bu gün məqsəd kimi qarşıya qoyulub, gələcəyə istiqamətlənən olması ilə səciyyələnir. Müəllim gələcək cəmiyyətin qurucusu kimi onu indidən qurur, yaradır. Bu isə olduqca ağır və çətin iş olub, əsl ustalıq, yaradıcı yanaşma tələb edir.

Göründüyü kimi, insana həyat verən, onun ağlına, ruhuna, qəlbinə işıq salan müəllimdir.

Avraam Linkolnun oğlunun müəlliminə yazdığı əxlaq kodeksi daşıyan məktubdan sonda belə nəticəyə gəlmək olar: Müəllim yaradıcı olsun, müəllim hazır göstərişlərlə yox, hər bir konkret halda qarşıya çıxan problemlərə müstəqil və yaradıcı yanaşsın. Sinifdə və ya auditoriyada düşdüyü qeyri-standart vəziyyətdə qərarlar qəbul etsin. Müəllim həqiqi biliklə yanaşı müasir həyatın Sokratı olsun.

Bu gün müasir məktəbə məhz belə yaradıcı, tədqiqatçı müəllim lazımdır.

# İlahiyyat İnstitutu hesabat verdi

## 2019-2020-ci tədris ili üçün magistraturaya tələbə qəbulu diqqətdə saxlanılır




Oruc MUSTAFAYEV

Qloballaşan dünyanın yaratdığı çağırışlara cavab olaraq cəmiyyətdə milli-mənəvi dəyərlərin qorunub saxlanması təhsil sistemləri üçün mühüm əhəmiyyət kəsb edir. Bu mənada ölkəmizdə multikultural dəyərlərin, milli adət-ənənələrin qorunub saxlanılması, cəmiyyətin saflaşdırılması çox aktualdır.

Oktyabrın 24-də Azərbaycan İlahiyyat İnstitutunun (Aİİ) fəaliyyətinin ilkin nəticələri ilə bağlı keçirilən mətbuat konfransında da səsləndirilən mühüm fikirlərdən biri milli, dini və əxlaqi dəyərlərin qorunub saxlanması ilə bağlı oldu. Öncə AİİNun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov rəhbərlik etdiyi qurumun fəaliyyəti, ilk tədris ilinə hazırlığı, reallaşdırdığı layihələr və perspektivləri barədə danışıb.

İlahiyyat İnstitutunun Prezident İlham Əliyevin 9 fevral 2018-ci il tarixli sərəncamı ilə yaradıldığını deyən rektor təhsil ocağının ona göstərilən etimadı doğrultmaq üçün səylə çalışdığını diqqətə çatdırıb. Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsinin bazasında yaradılan İlahiyyat İnstitutu gələn ildən onun üçün ayrılmış ayrıca binada fəaliyyətini davam etdirəcək.

### Dünya standartlarına cavab verən tədris mühiti

Rektor əlavə edib ki, İlahiyyat İnstitutunun yaradılmasında qarşıya qoyulan əsas hədəflərdən biri həm dinşünaslıq, həm də islamşünaslıq üzrə mütəxəssislərin yetişdirilməsi olub. 2018-2019-cu tədris ilində fəaliyyətinə islamşünaslıq və dinşünaslıq ixtisasları üzrə başlayan institutda dünya standartlarına cavab verən tədris üçün zəruri olan bütün tələblər yerinə yetirilib. Dinşünaslıq ixtisası üzrə standartların hazırlanmasında Azərbaycan reallıqları nəzərə alınmaqla, Kaliforniya Dövlət Universiteti, Oksford, Kembric, Stanford və dünyanın digər aparıcı universitetlərində mövcud olan "Dini tədqiqatlar" (Religious Studies) bölmələrinin standartlarından istifadə edilib. Bu ali təhsil müəssisəsi keyfiyyətli tədrisi təmin edəcək kadr potensialına malikdir. Dərslər ingilis və ərəb dillərində sərbəst şəkildə mühazirə oxuya bilən, öz sahəsində dərin akademik biliyə malik alimlər tərəfindən aparılır. Onların arasında Azərbaycanla yanaşı, Türkiyə, Böyük Britaniya, ABŞ, İran, Portuqaliya kimi dünyanın müxtəlif ölkələrində akademik fəaliyyətlə məşğul olmuş elm adamları var. İnstitutda dinşünaslıq, islamşünaslıq ixtisasları üzrə tədris standartları hazırlanıb və Təhsil Nazirliyi tərəfindən təsdiq olunub.

C.Məmmədov bildirib ki, institut xaricdə fəaliyyət göstərən dini təhsil müəssisələrinin fəaliyyətini öyrənir və Azərbaycan reallığına uyğun olanları ölkəmizdə tətbiq etməyə çalışır. Hazırda institutda bir fakültə (ilahiyyat), 3 kafedra - dinşünaslıq, dinlər, ictimai fənlər kafedraları fəaliyyət göstərir.

### Pulsuz ali təhsil

2018-2019-cu tədris ili üzrə ilk tələbə qəbulunun Dövlət İmtahan Mərkəzinin (DİM) xətti ilə, ödənişsiz əsaslarla, III ixtisas qrupu üzrə iki istiqamətdə - "İslamşünaslıq" və "Dinşünaslıq" ixtisasları üzrə həyata keçirildiyini deyən rektor hazırda institutda 103 tələbənin təhsil aldığını diqqətə çatdırıb. "Dövlət sifarişi əsasında qəbul üzrə ayrılmış plan yerləri 100% dolub, "İslamşünaslıq" ixtisası üzrə 35, "Dinşünaslıq" ixtisası üzrə isə 25 nəfər olmaqla, ümumilikdə, 60 abituriyent tələbə sıralarına qəbul edilib", - deyə o bildirib.

Rektor bir xüsusi məqama da toxunub ki, bu təhsil ocağında təhsil tamamilə ödənişsizdir. Tələbələrin geyimi, qida və yataqxana ilə təmin olunması istiqamətində də müvafiq işlər gedir. Dərs vəsaitləri tələbələrə ödənişsiz verilir. Bütün tələbələr onlara lazım olan ədəbiyyat və dərs vəsaitləri ilə təmin olunublar. Digər tərəfdən, institut yeni yarandığından müxtəlif dərs vəsaitlərinin hazırlanması üzərində də iş gedir. Bundan əlavə, institut müxtəlif araşdırmaların, elmi tədqiqatların aparılması, dini maarifləndirmə işlərində aktiv iştirak etməyi də qarşısına məqsəd qoyub.

İlahiyyat İnstitutu 2019-2020-ci tədris ili üçün magistraturaya tələbə qəbulunu diqqətdə saxlayıb. Magistraturada "Dinşünaslıq" ixtisası üzrə - Dinin psixologiyası, Dinin sosiologiyası, Dinlər tarixi, İslamşünaslıq ixtisaslaşmalarının hər birindən 2 nəfər olmaqla, 8 yer nəzərdə tutulub.

C.Məmmədov vurğulayıb ki, Aİİ-nin məzunları üçün iş imkanlarının yaradılması da nəzərdə tutulub. Belə ki, onlar dövlət qulluqçusu olaraq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində və digər dövlət qurumlarında işləyə biləcək, elmi-tədqiqat və ali təhsil müəssisələrində tədqiqatçı, pedaqoq, Qafqaz Müsəlmanları İdarəsində isə din xadimi kimi fəaliyyət göstərmək imkanlarına sahiblənəcəklər.

### İlahiyyatla yanaşı, dünyəvi fənlər tədris olunur

Rektorun çıxışından məlum oldu ki, İlahiyyat İnstitutu öz fəaliyyətini təkcə ölkə miqyasında məhdudlaşdırmaq niyyətində deyil. Hazırda dünyanın bir sıra dövlətlərində - ABŞ, Avropa və müsəlman ölkələrində bir çox universitetlərdə ilahiyyat fakültələrinin mövcud olduğunu deyən rektor əlavə edib ki, rəhbərlik etdiyi qurum digər ölkələrin universitetləri ilə əməkdaşlığı qarşısına məqsəd qoyur. "Əsas hədəf Azərbaycanda mövcud olan yüksək mənəvi, dini mühitin qorunmasıdır. Tolerantlıq və multikultural ənənələrin daha da gücləndirilməsidir",-deyə rektor bildirib.

İnstitutda dini fəaliyyətin təşkili sahəsində mütəxəssis hazırlığı üçün qarşıda bir neçə məqsəd və hədəf qoyulub. Təhsil müəssisəsində yalnız ilahiyyata aid fənlər deyil, eyni zamanda dünyəvi fənlər də geniş tədris olunur. Əsas məqsədlərdən biri də zəngin dini, dünyəvi biliklərə malik, eyni zamanda yüksək intellektli kadrların, azərbaycançılıq mövqeyində olan mütəxəssislərin, din xadimlərinin yetişdirilməsidir.

Daha sonra çıxış edənlər institutun yaradılmasını təqdirəlayiq hal kimi qiymətləndirərək, mediada dini mövzularda informasiyaların nüfuzlu, elmi əsaslara söykənməsinin vacibliyini bildiriblər. Qeyd olunub ki, biz nəinki İslamı dərindən öyrənməli, ümumiyyətlə, dünya dinləri ilə bağlı geniş bilgilərə də malik olmalıyıq. Xüsusi dini təhsil verən müəssisələrlə yanaşı, ölkədə mövcud olan bütün universitetlərdə, orta məktəblərdə də dini təhsilin tədrisi zəruridir.

Qeyd edək ki, İlahiyyat İnstitutu yüksək dini-mənəvi mühitin qorunub saxlanılması, inkişafı və dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təmin olunması məqsədilə müasir təhsil standartları və dünya təcrübəsi əsasında təsis edilmiş yeni ali təhsil müəssisəsidir. İnstitut Azərbaycan xalqının din sahəsində yüksəkixtisaslı kadrlara olan tələbatını beynəlxalq standarta əsasən təmin etməyi, həm islam, həm də digər dünya dinləri haqqında dərin biliyə malik, bütün konfessiyalara dözümlü yanaşan ilahiyyatçı kadrların hazırlanmasını, ilahiyyat sahəsində problemləri araşdıran tədqiqatlar aparmağı, milli, dini və əxlaqi dəyərləri qorumağı, Azərbaycan xalqının milli və mədəni inkişafına öz töhfəsini verməyi prioritet vəzifələr kimi qarşısına qoyur.

# "Müstəqilliyimiz əbədidir"



Salyan rayon Gənclər və İdman İdarəsi və təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Müstəqilliyimiz əbədidir" mövzusunda ümumtəhsil məktəblərinin şagirdləri arasında şeir və inşa müsabiqəsi keçirilib.

Müsabiqəni keçirməkdə əsas məqsəd müstəqilliyimizin tarixi yolunu işıqlandırmaq, gənc nəslə Vətənə məhəbbət hisslərini aşılamaq, şagirdlərin Dövlət müstəqilliyimiz haqqında biliklərini yoxlamaq, Azərbaycan xalqının tarixinə və rəmzlərinə, milli-mənəvi dəyərlərinə hörmət ruhunda tərbiyə olunması, gənclərin öz bilik və bacarıqlarının, intellektual potensialının effektli reallaşdırılmasına nail olmaq və istedadlı, yaradıcı gənclər üzrə çıxarmaqdır.

İnşa müsabiqəsində hər məktəbdən 2 (VIII-X sinif) şagird iştirak edərək dövlət müstəqilliyimizə, Azərbaycançılıq məfkurəsinə həsr olunmuş mövzularda inşa yazıb.

Şeir müsabiqəsində də eyni mövzularda şeirləri V-XI sinif şagirdləri səsləndiriblər.

Münsiflər heyətinin yekun qərarına əsasən qaliblər elan olunaraq müsabiqəyə yekun vurulub.

# Türkiyənin On Doqquz May Universitetində konfrans

Türkiyənin Samsun şəhərində yerləşən On Doqquz May Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans Azərbaycanın və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb.

Sonra Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, On Doqquz May Universitetinin rektoru Sait Bilgiç çıxış ediblər.

Çıxışlarda Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, keçdiyi şərəfli yol, süqutunun səbəbləri, o cümlədən XX əsrin sonunda dövlət müstəqilliyinin bərpası və Türkiyə ilə yaranan yeni ələqələrin inkişaf dinamikası barədə danışılıb. Azərbaycan ilə Türkiyə arasındakı tarixi qardaşlıq münasibətlərinin müasir dövrdəki vəziyyəti, o cümlədən birgə həyata keçirilən iqtisadi layihələr, qarşılıqlı sərmayə yatırma siyasəti yüksək dəyərləndirilib.

Xəzər İbrahim Samsun şəhərinin rəsmi şəxsləri ilə görüşlər keçirib. Görüşlərdə vurğulanıb ki, Sumqayıt və Samsunun qardaşlaşması iki şəhər arasında bütün sahələr üzrə əlaqələrin daha da genişlənməsi üçün böyük imkanlar yaradır. Səfir Sumqayıt şəhərinin sənaye imkanları, o cümlədən son illər istifadəyə verilən yeni zavod və fabriklər barədə geniş məlumat verib.

Konfransda və görüşlərdə səfirliyin təhsil üzrə müşaviri Nəcibə Nəsibova da iştirak edib.

# Polşada Cümhuriyyətin 100 illiyinə həsr olunmuş forum keçirilib



Polşanın paytaxtı Varşava şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Polşadakı Azərbaycanlılar Birliyinin üzvləri, bu ölkədəki Azərbaycan diasporunun nümayəndələri və polyak gənclər əvvəlcə Varşavada Azərbaycan Xalq Cümhuriyyəti dövrünün hərbi xadimləri - general leytenant Süleyman bəy Sulkeviçin və polkovnik Vəli bəy Yadigarın xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər. Azərbaycan-Polşa münasibətlərinin rəmzinə çevrilən bu abidə önündə çıxış edən gənclər Polşa cəmiyyətinə sülh və dostluq mesajları verib, iki ölkə gənclərinin bundan sonra da birgə fəaliyyətinin vacibliyini qeyd ediblər.

Sonra Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş "Azərbaycan-Polşa münasibətləri, tarixi, mədəni və strateji tərəfdaşlıq əlaqələrində iki ölkə gənclərinin rolu" mövzusunda forum işini davam etdirib. Polşadakı Azərbaycanlılar Birliyi tərəfindən təşkil olunan forumda Polşa və Azərbaycanın dövlət himnləri səsləndirilib.

Forumu giriş sözü ilə açan Polşadakı Azərbaycanlılar Birliyinin sədri Cavid Zeynalov iki ölkə gənclərinin qarşılıqlı münasibətlərindən və diasporumuzun daha da güclənməsi istiqamətində həyata keçirilən işlərdən danışıb.

Daha sonra Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş ingilis dilində qısa film nümayiş etdirilib.

Forum öz işini müxtəlif panellərdə davam etdirib. Panellərin əsas mövzusu "Azərbaycan Xalq Cümhuriyyəti 100 yaşında", "Xaricdə təhsil və diaspora fəaliyyəti", "Polşa cəmiyyətinə inteqrasiyanın əsas məqsəd və prinsipləri", "Qarabağ münaqişəsində Azərbaycanın haqq səsinin səmərəli təbliği" və "Polşada təhsil: qayğılar və perspektivlər" məsələləri ilə bağlı olub.

Forumda Polşa-Azərbaycan Evinin rəhbəri Sabrina Kovalçik, Azərbaycanın Varşavadakı səfirliyinin əməkdaşları və Ukrayna, Rumıniya, Latviya və Litvadan gəlmiş qonaqlar iştirak ediblər.

Sonda Polşada yaşayan və təhsil alan azərbaycanlı gəncləri maraqlandıran suallar cavablandırılıb və yaxın gələcək üçün fəaliyyət perspektivləri müzakirə olunub.

# GDU-nun 80 illik yubileyinə həsr olunmuş spartakiada

Oktyabrın 19-da Gəncə Dövlət Universitetinin (GDU) 80 illik yubileyinə həsr olunan spartakiadanın açılış mərasimi keçirilib. Mərasimdə universitetin rektoru, professor Yusif Yusibov, Gəncə Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov, ali təhsil müəssisəsinin professor-müəllim heyəti, tələbələr və idmançılar iştirak ediblər.

Universitetin rektoru Yusif Yusibov idmançıları bu möhtəşəm idman bayramı münasibətilə təbrik edərək bildirib ki, respublikamızda bədən tərbiyəsi və idmana dövlət qayğısı gündən-günə artır. Bunun sayəsində Azərbaycan idmanı artıq yüksək inkişaf səviyyəsinə çatıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın da inkişafını daim diqqət mərkəzində saxlayıb, kütləvi idman növlərinin geniş yayılmasına diqqət və qayğı göstərib. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev bu gün ölkəmizdə idmanın və idmançıların ən böyük himayəçisidir.

Yusif Yusibov bildirib ki, ölkə universitetlərinin idman klubları arasında GDU-nun idman klubu həm zəngin tarixinə, həm də uğurlarına görə xüsusi yer tutur. Klub daim universitet tələbələri arasında müxtəlif turnirlər təşkil edir ki, onlardan da ən möhtəşəmi spartakiadadır.

Rektor peşəkar idman müəllimlərinin və idmançıların yetişdirilməsi sahəsində GDU-nun İdman Klubunun rolundan, bu vaxta qədər klubun yetirmələrinin ölkəmizdə və beynəlxalq arenalarda qazandıqları nəticələrdən danışıb. Spartakiadanın ölkə idmanı üçün əhəmiyyəti vurğulanıb, gənc nəslin təlim-tərbiyəsində belə tədbirlərin rolundan bəhs olunub.

Gələn il Gəncənin Avropanın İdman Şəhərləri kimi beynəlxalq layihəyə ev sahibliyi edəcəyini deyən Müşfiq Cəfərov Azərbaycanda idmanın inkişafına öz töhfələrini verən GDU-nun idmançılarının bu layihə çərçivəsində təşkil olunacaq yarışlarda da qalib gələcəklərinə inamını ifadə edib.

Sonra idmançıların ayrı-ayrı idman növləri üzrə nümunəvi çıxışları olub.

Tədbirin sonunda mədəniyyət və incəsənət xadimləri idmançılar qarşısında çıxış ediblər.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

# Experiencing study shock

by A. J. Dalton (amended by Jon Porter)

Living in a foreign country is very different from just visiting it on holiday. Nearly everybody experiences 'culture shock' when they stay in a country that has different languages, customs and systems from their own. They will experience excitement, frustration and fear, but finally get used to that foreign culture. For some people the shock will last for just a few hours, but for others, it will persist for weeks or months.

I spoke to two international students living in the UK city of Manchester to see how much they were affected. The first was Tong Li (nickname Lily), a student from Beijing, studying for an MSc in Sustainable Aviation at Manchester Metropolitan University. The second was Umar Munir from Gilgit, the capital city of the northern region of Pakistan bordering both India and China. Umar is working towards an MSc in Environmental Management and Sustainable Development at the same university. I asked Lily and Umar if they had suffered badly from culture shock when they first arrived. Neither of them had. 'Manchester is very diverse. You can walk for five minutes and meet people from Jamaica, the Middle East, Europe, Turkey, Asia, India, all sorts,' Umar explains. 'I particularly like to visit the restaurants in the Curry Mile, where you can get every type of Asian food.' When asked what they thought the best and worst things about Manchester were, Lily said, 'It's not a big city but it's beautiful and safe. However, you sometimes see rubbish on the street.' Umar liked the countryside around Manchester: 'The Peak District is just ten minutes' drive away. I've also visited beaches in North Wales, the Lake District and Blackpool on the coast. They're all close to Manchester. The weather is the worst thing. It's unpredictable and rains a lot.' Lily found the temperate weather a bit more refreshing: 'Although it often rains, the air is clean and fresh. The sky is beautiful and the weather is not too cold or too hot.'


UMAR MUNIR

### How is studying different in the UK?

When I asked Lily what the main differences were in the approaches to study in China and the UK, she said: 'In Manchester Metropolitan University, the class is flexible and usually requires students to use their imagination and creativity. Students often do group work and give presentations in class. Students depend mostly on self-study outside of class. In my university in China, the usual mode of class is the teacher talking and the students listening. I am comfortable with both of these two learning approaches. The combination of them makes me more capable of adopting different learning approaches in different environments.' And Umar? He said: 'The research in the UK tends to be very up to date and focuses on current policy and thinking. It considers today's issues and possible practical solutions. In Pakistan, I have to address my tutor as 'Sir' or 'Ma'am', whereas my British tutor told me to call him Paul. He encourages me to discuss things and talk openly so that we both get useful feedback.'

### Any problems?

'I cannot communicate very well with people who speak with a strong dialect,' Lily admits. 'The Mancunian accent isn't in the IELTS exam, so I had a slight problem at first,' Umar nods. 'Mancunians say /bʊz/ instead of /bʌs/, for example.' In addition, the Mancunian dialect also has some unique words and phrases. For example, being 'mad for it' is to be full of enthusiasm. Also, a 'chip barm' is a bread roll with chips as the filling.

### Free time and making friends?

Lily: 'The Mancunians are friendly and polite. The English are humorous and gentle. I always go shopping, watch TV and see films in my spare time. The fish and chips are delicious but the desserts are too sweet.' Umar: 'The people are well-mannered and helpful. If you're lost, they'll always stop and give you directions. I have two or three close English friends, and they're not my classmates! It's easy to make friends because whenever you go for a walk, people will just start chatting to you. Or they'll talk to anyone in the pubs, clubs and shisha cafés. People are football-crazy here. Everyone supports United or City. I haven't been to the stadium, but I watch it on TV. I like to look at the architecture in Manchester, for the famous red bricks everywhere, and the historic buildings standing right next to modern ones everywhere. And there are lots of churches, mosques and temples all next to each other.'

### Any final advice?

Lily says, 'Before you arrive, learn more about the culture and history of the UK, and lay a good language foundation for yourself.' Umar says, 'If you're feeling homesick, then having food from your own country really helps. So when you choose a UK city in which to study, consider whether there's a community from your own country there. Manchester also has cheaper travel and accommodation than London.'

This article was written with the kind co-operation of

Manchester Metropolitan University

### Activity 1: Cultural attitudes

Look at the following academic issues and decide for each one whether you MUST DO it (MD), DON'T HAVE TO do it (DHT) or MUST NOT DO it (MND) in your country.

- a agree with your teacher
- b plagiarise
- c work independently outside the classroom
- d present your own ideas in class
- e work with other students in class

Now look at the article and compare your answers to those for studying in the UK.

### Activity 2: Lily's experience

Here is a reported question from the article: I asked Lily and Umar if they had suffered badly from culture shock. The question in direct speech is 'Did you suffer badly from culture shock?' See if you can put these reported questions from the article into direct speech.

1 I asked what they thought the best and worst things about Manchester were.
2 I asked Lily what the main differences were in the approaches to study in China and the UK.

Now see if you can turn these direct speech questions into reported speech.

3 'Do you have any problems?'
4 'What do you do in your free time?'

### Activity 3: Multiple choice

Decide if the statements below describe Lily (L), Umar (U) or both students (B).

1 Likes the weather in Manchester
2 Has some trouble understanding the Mancunian dialect
3 Has travelled to other places in the UK
4 Doesn't like British puddings
5 Hasn't suffered much from culture shock
6 Is a sports fan

# Fun corner

**How much would you suffer from culture shock if you visited another country? Choose an answer for each question.**

1 Apart from your own, how many languages can you speak?
- a None
- b One or two
- c Three or more

2 Apart from your own, how many countries have you visited?
- a None
- b One or two
- c Three or more

3 Do you speak to anyone living in a foreign country?
- a Not really
- b I have family or penfriends in a foreign country that I speak to every now and then.
- c I talk online to people from foreign countries all the time.

4 What sorts of foods do you eat?
- a I only tend to eat the traditional cuisine from my country.
- b I have tried foreign foods once or twice.
- c I regularly visit foreign food restaurants.

Now work out your total score. For each a) answer, you get 1 point. For each b) answer, you get 2 points. For each c), 3 points. Now look at the Answers section to see how you did.

## Word of the day

In the Mancunian dialect, the term '**Sorted!**' means 'that's fine' or 'that's good'.




### Answers

**Activity 1**
a DHT
b MND
c MD
d MD
e MD

**Activity 2**
1 'What are the best and worst things about Manchester?'
2 'What are the main differences in the approaches to study in China and the UK?'
3 I asked them if they had any problems.
4 I asked them what they did in their free time.

**Activity 3**
1 L
2 B
3 U
4 L
5 B
6 U

**Fun corner**
If you scored 4–6, you will suffer a lot from culture shock.
If you scored 7–9, you will suffer an average amount of culture shock.
If you scored 10–12, you will only suffer a little from culture shock.

Want to find more learning activities?
Visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2016

# ADPU-da "Yüksəlişin sirri" sənədli filmi nümayiş olunub

## Film Milli Qəhrəman Samid İmanova həsr edilib

Oktyabrın 22-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Kür-Xəzər" Xeyriyyə İctimai Birliyi tərəfindən hazırlanmış "Yüksəlişin sirri" sənədli filmi nümayiş etdirilib. Film İctimai Birliyin Azərbaycan Respublikası-nın Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə həyata keçirdiyi "Azərbaycanın Milli Qəhrəmanı Samid İmanov haqqında "Yüksəlişin sirri" adlı sənədli film" layihəsi çərçivəsində lentə alınıb. Filmin ssenari müəllifi tanınmış jurnalist, Qarabağ müharibəsi veteranı İlham Tumas, rejissoru Anar Şuşalı, redaktoru tanınmış jurnalist, Qarabağ müharibəsi veteranı Rey Kərimoğlu, məsləhətçisi hərbi vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlıdır.



Tədbirdə millət vəkilləri Arif Rəhimzadə, Flora Qasımova, Sona Əliyeva, Qarabağ müharibəsi veteranları, hərbçilər, mədəniyyət və incəsənət xadimləri, ziyalılar, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan ADPU-nun Humanitar və sosial məsələlər üzrə prorektoru, professor Fikrət Rzayev iştirakçıları universitetin rəhbərliyi adından salamlayıb və bildirib ki, "Yüksəlişin sirri" sənədli filminin universitetdə nümayişi diqqətəlayiq hadisədir. 2016-cı ilin Aprel döyüşləri müasir tariximizin parlaq səhifəsidir. Aprel döyüşlərində xalqımızın vətənpərvər və igid oğulları böyük qəhrəmanlıq nümayiş etdiriblər. Gənclər Aprel döyüşlərində qəhrəmanlıq göstərən oğullarımızdan nümunə götürməli, xalqa, Vətənə, dövlətə sədaqətlə xidmət etməlidirlər.

Sonra "Yüksəlişin sirri" sənədli filmi nümayiş olunub.

Tədbirdə layihə çərçivəsində hazırlanmış "İgidim" marşı da təqdim edilib. Marşın sözlərinin və musiqisinin müəllifi Gülqədəm Mirzəzadədir.

Tədbirdə çıxış edən Milli Qəhrəmanın həyat yoldaşı Badam İmanova, millət vəkili Sona Əliyeva, professor Paşa Qəlbinur, Dünya Azərbaycanlıları Konqresinin vitse-prezidenti Xəzər Emin, Xalq artisti, Ankara Gazi Universitetinin profesoru Əflatun Nemətzadə, AzTV-nin əməkdaşı Elnar Məmmədli, Qarabağ müharibəsi veteranı Rey Kərimoğlu, filologiya fakültəsinin II tədris ili tələbəsi Aytac Əliyeva və başqaları Azərbaycanın Milli Qəhrəmanı Samid İmanova həsr edilmiş filmin ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkür ediblər və filmin pedaqoji kadr hazırlığının mərkəzi hesab edilən ADPU-da nümayiş etdirilməsini məqsədəuyğun sayıblar. Çıxışlarda gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsinin vacibliyi və düşmən üzərində qələbəyə inam xüsusi vurğulanıb.

Sonda layihənin rəhbəri, "Kür-Xəzər" Xeyriyyə İctimai Birliyinin sədri, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının Məclis üzvü Akif Kərimov tədbirin keçirilməsinə verdiyi dəstəyə görə ADPU-nun rəhbərliyinə təşəkkür edib və belə film təqdimatlarının gənclərin mənəvi tərbiyəsinə ciddi təsir etdiyini bildirib.


"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4567, **Sifariş** 3182

**Məsul növbətçi:** Y.Əliyev


# Azərbaycan Dövlət Pedaqoji Kolleci ölkə birincisi oldu

**Şakir CƏFƏROV**

"Mektebgushesi.az" portalı virtual sorğu vasitəsilə "Hansı kollecin fəaliyyətini cəmiyyət üçün yararlı hesab edirsiniz?" nominasiyalı sorğunu artıq başa çatdırıb. Bu sorğunun təşkil etməkdə məqsəd modernləşən təhsil sistemimizin inkişafında həm taktiki, həm də strateji istiqamətləri ön plana çəkmək, yeniləşən dünyada təhsilin ayrı-ayrı pillələrinə, o cümlədən kolleclərə yeni prizmadan yanaşmaq idi.

Bir ay müddətində keçirilmiş bu sorğuda ümumilikdə 8527 respondent iştirak edib. Tanınmış təhsil ekspertlərinin yaxından müşahidə etdiyi sorğu qısa müddətdə səs verən respondentlər arasında ciddi rəqabətə çevrilib. Nəticədə I yeri 4414 səslə (52%) Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci qazanıb. Bu uğur cəmiyyətdə hələ də müəllim peşəsinə xüsusi sevginin olması, qocaman təhsil müəssisəsinin idarəetmənin düzgün qurulması, kollec kollektivinin, xüsusilə pedaqoji heyətin gərgin zəhmətinin bəhrəsi, kollecə sevgi və ümid bəsləyənlərin çox olması ilə bağlıdır.

# "Məktəblinin dostu kuboku"

Ümumi təhsil müəssisələrinin şagirdləri arasında futbol çempionatı keçirilir. "Məktəblinin dostu" layihəsi çərçivəsində reallaşdırılan çempionatın əsas məqsədi məktəblilərin asudə vaxtını səmərəli təşkil etmək, şagirdlərin sağlam və aktiv həyat tərzinin təbliği işini genişləndirmək və futbol idman növünə marağını artırmaqdan ibarətdir.

"Məktəblinin dostu kuboku" adlı futbol çempionatında layihənin tətbiq olunduğu 32 məktəbin VII və VIII sinif şagirdlərindən ibarət komandalar mübarizə aparır.

Çempionatın sonunda I, II və III yerlərə layiq görülən komandalar mükafatlandırılacaq.

Qeyd edək ki, "Məktəblinin dostu" pilot layihəsi Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə tərəfdaşlığı ilə Bakı şəhərindəki 32 ümumi təhsil müəssisəsini əhatə edir. Layihənin əsas məqsədi məktəblərdə səmərəli mühitin formalaşması işinə töhfə vermək, tədris ocaqlarında tam təhlükəsiz mühit yaratmaq, fövqəladə hal baş verdikdə ilk tibbi və psixoloji yardım göstərmək, mütəmadi olaraq şagird, valideyn, təlim-tərbiyə müəssisələrinin kollektivləri ilə maarifləndirmə, diaqnostik işlər aparmaqdan ibarətdir.

# Etibarsız sayılır

**Azərbaycan Beynəlxaq Universiteti** tərəfindən 2000-ci ildə Bayramova Aygül Şövkət qızına verilmiş A-056421 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2017-ci ildə Talıbova İffət Müşfiq qızına verilmiş A-143175 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2017-ci ildə Əlizadə Nazlı Zaur qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 173 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Cəbrayılov İntiqam Cəbrayıl oğluna verilmiş A-429264 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft və Energetika Kolleci** tərəfindən 2018-ci ildə Abdullazadə Rəbbim Ceyhun oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Rəsulzadə Gülməmməd Ariz oğluna verilmiş E-101452 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 9 nömrəli beynəlmiləl tam orta məktəbi 1997-ci ildə bitirmiş Alməmmədov Həmid Rasim oğluna verilmiş A-134737 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2012-ci ildə Seyidov Şəmistan Oktay oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1988-ci ildə Səfərova Sevda Topu qızına verilmiş PB-020797 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2013-cü ildə Qasımova Təranə Asif qızına verilmiş B-264775 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutu** tərəfindən 1993-cü ildə Əliyev Mehman Əli oğluna verilmiş ЦВ-852843 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**DİN Polis Akademiyası** tərəfindən 2006-cı ildə Qurbanov Elvin Fəxrəddin oğluna verilmiş BB-I-003117 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əkbərli İbrahim Zakir oğluna verilmiş B-507957 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2018-ci ildə İsmayılova Nərmin Zabit qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Quba rayonu** Cimi kənd tam orta məktəbini 2004-cü ildə bitirmiş Əhmədov Fəxrəddin Kamran oğluna verilmiş B-078445 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 95 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Abdullayeva (Cabbarova) Zivər Əziz qızına verilmiş B-285679 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADA Universiteti** tərəfindən 2018-ci ildə Hüseynli Emin Müşfiq oğluna verilmiş A-148184 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə Tibb Məktəbi** tərəfindən 1992-ci ildə Cəfərova Nailə Firudin qızına verilmiş PT-I-128126 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu** tərəfindən 1978-ci ildə Adışirinov Şamil Fikrət oğluna verilmiş Ю-292471 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 19 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Şəmiyev Elşən Mahir oğluna verilmiş A-380088 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 3 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Həsənov Vüsal Qabil oğluna verilmiş B-050838 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Humanitar Kolleci** tərəfindən 2008-ci ildə Abbasova Bəsdi Cumalı qızına verilmiş BB-II-047862 nömrəli fərqlənmə diplomu itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Qorçulu kənd tam orta məktəbinin VIII sinfini 1991-ci ildə bitirmiş Rzayeva Natəvan Məmməd qızına verilmiş A-711175 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Danyeri kənd tam orta məktəbini 2011-ci ildə bitirmiş Novruzov Salim Razim oğluna verilmiş A-001240 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Pirilli kənd tam orta məktəbini 2012-ci ildə bitirmiş Qurbanov Eyyub Dildar oğluna verilmiş A-175908 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 215 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Əsgərzadə Elçin Malik oğluna verilmiş C-169397 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 254 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Şıxıyev Məhəmməd Qalib oğluna verilmiş E-012767 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Nəsimikənd kənd tam orta məktəbini 1985-ci ildə bitirmiş İmanov Elxan Cavad oğluna verilmiş AK-170883 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** trərəfindən 2001-ci ildə Həsənov Pərvin Hüseynəli oğluna verilmiş A-085662 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Həsənova Gülər Yusif qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Həbilova Xatimət Qurban qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Tibb Məktəbi** tərəfindən 1992-ci ildə Rəşidova Ellada Rəşid qızına verilmiş PT-I-093297 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kimya-biologiya təmayüllü Respublika Liseyini** 2004-cü ildə bitirmiş Cəfərov İlyas İlqar oğluna verilmiş B-061393 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Zəyəm Cırdaxan kənd tam orta məktəbini 2017-ci ildə bitirmiş Kazımov Ruslan Cümşüd oğluna verilmiş E-083107 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2016-cı ildə Ələskərova Rəbiyyə Namid qızına verilmiş AT-002353 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** Dünyamalılar kənd 1 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Yusifova (Sabirova) Rəqsanə Namiq qızına verilmiş A-301784 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kimya-biologiya təmayüllü Respublika Liseyini** 1993-cü ildə bitirmiş Əzizov Əziz Sahib oğluna verilmiş A-063794 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Bakı Slavyan Universitetinin Müasir rus dili, Müasir Azərbaycan dili, Türkologiya kafedralarının və Mətbuat xidməti əməkdaşları professor Nəsirağa Məmmədova bacısı

**SARAY XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## BAKI SLAVYAN UNİVERSİTETİ

**Dekan, kafedra müdiri, professor, dosent və baş müəllim vəzifələrini tutmaq üçün müsabiqə elan edir:**

**Fakültələr üzrə dekan vəzifəsini tutmaq üçün:**

1. Filologiya və xarici dil müəllimliyi fakültəsi

**Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün:**

1. Müasir rus dili kafedrası
2. Avropa dilləri kafedrası
3. Azərbaycan dili və onun tədrisi metodikası
4. Tibbi biliklərin əsasları və mülki müdafiə

**Kafedralar üzrə professor vəzifəsini tutmaq üçün:**

1. Alman filologiyası kafedrası üzrə -1 yer

**Kafedralar üzrə dosent vəzifəsini tutmaq üçün:**

1. Ümumi dilcilik kafedrası üzrə - 2 yer
2. Azərbaycan tarixi və ictimai elmlər kafedrası üzrə - 2 yer
3. Rus dili və onun tədrisi metodikası kafedrası üzrə - 1 yer
4. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə - 1 yer
5. Azərbaycan ədəbiyyatı kafedrası üzrə - 1 yer
6. Rus dili və mədəniyyətlərarası kommunikasiya kafedrası üzrə - 4 yer
7. Diplomatiya və xarici siyasət kafedrası üzrə - 1 yer

**Kafedralar üzrə baş müəllim vəzifəsini tutmaq üçün:**

1. Türkologiya kafedrası üzrə - 1 yer
2. Ümumi dilçiilk kafedrası üzrə - 1 yer
3. Praktik rus dili və onun tədrisi metodikası kafedrası üzrə - 7 yer
4. İngilis filologiyası kafedrası üzrə - 1 yer
5. Roman filologiyası kafedrası üzrə - 1 yer
6. Rus dili və onun tədrisi metodikası kafedrası üzrə - 3 yer
7. Müasir Azərbaycan dili kafedrası üzrə - 4 yer
8. Azərbaycan dili və onun tədrisi metodikası kafedrası üzrə - 4 yer
9. Azərbaycan multikulturalizmi kafedrası üzrə - 2 yer
10. Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrası üzrə - 1 yer
11. Tərcümə nəzəriyyəsi kafedrası üzrə - 1 yer
12. Rus dili və mədəniyyətlərarası kommunikasiya kafedrası üzrə - 8 yer
13. Slavyan filologiyası kafedrası üzrə - 6 yer
14. Xarici dillər kafedrası üzrə - 1 yer
15. Diplomatiya və xarici siyasət kafedrası üzrə - 1 yer
16. İbtidai təhsil kafedrası üzrə - 1 yer
17. Avropa dilləri kafedrası üzrə - 2 yer
18. Rus ədəbiyyatı tarixi kafedrası üzrə - 1 yer
19. Pedaqogika və psixologiya kafedrası üzrə - 2 yer

***Qeyd:*** *Müsabiqədə iştirak etmək üçün sənədlərin qəbulu bu elan qəzetdə dərc olunan gündən bir ay müddətində təqdim edilməlidir. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər (BSU-da işləyən şəxslər ərizə ilə birlikdə yalnız elmi və elmi-metodiki işlərinin siyahısını təqdim edirlər):*

1. Rektorun adına ərizə;
2. Kadrlar uçotunun şəxsi vərəqəsi;
3. Tərcümeyi-hal;
4. Ali təhsil haqqında diplomun surəti;
5. Elmi dərəcə haqqında diplomun surəti;
6. Elmi ad haqqında diplomun surəti;
7. Elmi və elmi metodiki işlərin siyahısı.

**Ünvan: BAKI, AZ 1014, S.RÜSTƏM küçəsi, 33.**
**Telefon: 599-08-70 (daxili-206)**

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

**Aşağıdakı boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir:**

**Dekan vəzifəsini tutmaq üçün:**

1. Memarlıq və mühəndislik

**Kafedralar üzrə müdir vəzifəsini tutmaq üçün:**

1. Nəqliyyat və informasiya texnologiyaları
2. Meliorasiya və su təsərrüfatı mühəndisliyi
3. Tibbi klinik fənlər
4. Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi
5. Bədən tərbiyəsi və idman
6. Ümumi riyaziyyat
7. Azərbaycan dili və ədəbiyyat
8. Jurnalistika və kitabxanaçılıq
9. Beynəlxalq münasibətlər
10. Rus dili və şərq dilləri
11. Zoologiya
12. Musiqi tarixi və nəzəriyyəsi
13. Ümumi təbabət və gigiyena

**Kafedralarda boş olan vəzifələri tutmaq üçün:**

1. Təsviri incəsənət - müəllim-1 yer; baş müəllim-1 yer ; dosent-1 yer;
2. Dünya iqtisadiyyatı və menecment- müəllim-1 yer; dosent-1 yer;
3. İqtisadiyyat-müəllim-1 yer; müəllim-2 yer (0.5 şt);
4. İngilis dili və metodika-müəllim-2 yer;
5. İngilis dili və tərcümə-müəllim-1 yer;
6. Azərbaycan dili və ədəbiyyat - baş müəllim-1 yer; professor-1 yer;
7. Musiqi təlimi-baş müəllim- 1 yer;
8. Xalq çalğı alətləri-baş müəllim - 1 yer;
9. Bədən tərbiyəsi və idman- baş müəllim- 3 yer;
10. Pedaqogika və psixologiya-dosent- 2 yer;
11. Hüquq fənləri-müəllim-2 yer; baş müəllim-1 yer; dosent -1 yer;
12. Bələdiyyə və turizm -müəllim-1 yer; müəllim-1 yer (0.5şt); dosent-1 yer;
13. Fəlsəfə və sosial iş- dosent-1 yer; professor-1 yer; dosent-1 yer (0.5şt);
14. Botanika-dosent- 2 yer (0.5şt)
15. Kimya -dosent-1 yer;
16. Energetika mühəndisliyi -dosent-1 yer;
17. Memarlıq - baş müəllim-1 yer ;
18. Ümumi nəzəri fizika - dosent - 1yer ;
19. Jurnalistika və kitabxanaçılıq-dosent - 1 yer ;
20. Fortepiano- müəllim - 1 yer;
21. Teatr və mədəniyyətşünaslıq-dosent - 1 yer;
22. Orkestr alətləri və dirijorluq -dosent - 1 yer;
23. Ümumi riyaziyyat -baş müəllim-1 yer (0.5şt); baş müəllim -2 yer ; dosent-1 yer;
24. Ümumi təbabət və gigiyena- müəllim-1 yer; baş müəllim-1 yer ;
25. Tibbi klinik fənlər-müəllim-1 yer; dosent-1 yer;
26. Baytarlıq təbabəti- baş müəllim-2 yer;
27. Musiqi tarixi və nəzəriyyəsi-professor-1 yer;
28. Mühasibat uçotu və audit - professor-1 yer (0.5şt).

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

**Ünvan: Naxçıvan şəhər, Universitet şəhərciyi.**

**Telefon :(036)545-23-66/10-01**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Gəncə Dövlət Universiteti

aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir:

***Kafedralar üzrə boş olan vəzifələr:***

1. İqtisadiyyat - dosent, 1 yer; müəllim, 2 yer;
2. İdarəetmə - müəllim, 2 yer;
3. Ümumi riyaziyyat - müəllim, 1 yer;
4. Sosial fənlər - baş müəllim, 2 yer;
5. Təsviri incəsənət - müəllim, 1 yer;
6. İnformatika - müəllim, 1 yer;
7. Anatomiya, fiziologiya və zoologiya - müəllim, 1 yer;
8. Azərbaycan dili - müəllim, 1 yer;
9. Azərbaycan və dünya ədəbiyyatı - müəllim, 1 yer;
10. Qrammatika və ingilis dilinin tədrisi - müəllim, 1 yer, 0,5 ştat;
11. Leksika və ölkəşünaslıq - baş müəllim, 1 yer; müəllim, 2 yer;
12. Psixologiya - müəllim, 1 yer, 0,75 ştat;
13. Botanika - baş müəllim, 1 yer; müəllim, 1 yer;
14. Fizika - müəllim, 2 yer;
15. Kimya - baş müəllim, 1 yer;
16. Alman dili - dosent, 1 yer, 0,5 ştat;
17. Riyazi analiz - dosent, 1 yer.

Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.11.2017-ci il tarixli 5/5 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması” və 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor–müəllim vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.

*ÜNVAN: AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 459.*
*Gəncə Dövlət Universiteti, əsas bina (I)*
*Telefon: (022) 256-73-13; (022) 256-22-69*


# Smartfona yapışan “power bank”

**Yusif ƏLİYEV**

“Bezalel” brendi smartfonların simsiz enerji ilə yüklənməsi üçün “Prelude” adlı yığcam “power bank” istehsal edib.

**techcult.ru** saytının məlumatına görə, kiçik ölçüsü və smartfona yapışması ilə fərqlənən qadcetin ölçüləri 11,4x6,9x1,7 sm, çəkisi 150 q təşkil edir. Qurğu “iPhone”un yeni modelləri, “Samsung Galaxy S6”, həmçinin “LG”, “Sony” və “BlackBerry” smartfonları ilə işləyir.

“Prelude” enerjinin ötürülməsi üçün simsiz texnologiyalardan istifadə edir. Bu səbəbdən kabel qoşulması tələb və smartfonun xarici portlarını məşğul etmir.



Qurğu analoqlarından fərqli olaraq, smartfona maqnitlə deyil, kiçik sorucu cihazların köməyilə bərkidilir.

“Kickstarter” platformasında qurğunun investorlar üçün dəyəri 45 dollar təşkil edəcək. Onun cari ilin dekabr ayında satışa çıxarılması planlaşdırılır.

# Doqquzuncu nəsil “Intel Core” prosessorları




“Intel” şirkəti “Core” prosessorlarının doqquzuncu nəslini təqdim edib.

**ria.ru** saytının məlumatına görə, yeni istehsal xəttinin qabaqcıl prosessoru kimi şirkət tərəfindən ən yaxşı oyun prosessoru adlandırılan “Intel Core i9-9900K” göstərilir. O, 3,6 QHs takt tezlikli 8 nüvədən və 5 QHs-dək sürətləndirilən 16 məlumat axınından ibarətdir.

Bu yaxınlarda “Core i7” və “Core i5” prosessorlarının doqquzuncu nəsli nümayiş edilib. Yeni “i7-9700K” prosessoruna 3,6 QHs takt tezlikli 8 nüvə və 8 məlumat axını daxildir. “i5-9600K” prosessoru isə 3,7 QHs takt tezlikli 6 nüvəyə və 6 məlumat axınına malikdir.

Şirkətin məlumatına görə, yeni prosessorlu sistemlər oyunlarda kadr tezliklərinin göstəricilərini 35-45 faiz artıracaq.

Yeni prosessorlar üçün ilkin sifarişlərin qəbuluna və pərakəndə satışlara oktyabrın 19-dan etibarən başlanılması nəzərdə tutulur. “Core i5-9600K” prosessorunun qiyməti 262, “Core i7-9700K” prosessorunun 374, qabaqcıl “Core i9-9900K” prosessorunun isə 488 dollar təşkil edir.